**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazma hüququnda*

**AYDAN SƏTTAR qızı MƏCİDOVA**

# BÖYÜK BRİTANİYANIN DÖVLƏT SİYASƏTİNDƏ ERMƏNİSTAN AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ

**İxtisaslaşma: HS – 060211 – Ölkəşünaslıq (Britaniya üzrə)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

Elmi rəhbər: _________

N. Hüseynova

Fəlsəfi elmlər üzrə fəlsəfə doktoru

**BAKI – 2022**

# MÜNDƏRICAT

**GİRİŞ**........................................................................................................ 3-8

**I FƏSİL. Böyük Britaniyanın Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dövlət siyasətinin əsasları**........................................................ 9-30

*1.1. SSRİ-nin süqutundan sonra Böyük Britaniyanın milli maraqları kontekstində Cənubi Qafqaz regionu*....................................................... 9-18

*1.2. Böyük Britaniyanın Dağlıq Qarabağ münaqişəsinə dair dövlət siyasətinin normativ huquqi əsasları*....................................................... 18-30

**II FƏSİL. Böyük Britaniyanın dövlət siyasətinə təsir göstərən qeyri-dövlət aktorlarının Dağlıq Qarabağ münaqişəsinə münasibəti**............................... 31-55

*2.1. Böyük Britaniyada nüfuzlu beyin mərkəzlərinin münaqişə ilə bağlı tədqiqatları*............................................................................................ 31-42

*2.2. Münaqişənin Böyük Britaniyanın nüfuzlu KİV-lərində işıqlandırılması*............................................................................................ 43-55

**III FƏSİL. Böyük Britaniyanın Dağlıq Qarabağ münaqişəsinə münasibətdə dövlət siyasətinin ikitərəfli və çoxtərəfli formatı**.................................................................................................. 56-78

*3.1. Böyük Britaniyanın münaqişə tərəfləri ilə ikitərəfli münasibətlərində Dağlıq Qarabağ münaqişəsi faktoru*...................................................... 56-70

*3.2. Böyük Britaniyanın beynəlxalq təşkilatlar səviyyəsində münaqişəyə münasibəti*............................................................................................ 70-78

**NƏTİCƏ**...................................................................................................... 79-81

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**....................................... 82-97

# GİRİŞ

**Mövzunun aktuallığı.** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı beynəlxalq münasibətlərin vacib aktorlarından biridir. Böyük Britaniya BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir. Bununla bərabər Krallıq NATO, ATƏT və digər vacib nüfuzlu beynəlxalq təşkilatlara da üzvdür. Böyük Britaniya böyük və qüdrətli iqtisadiyyata malik olub, inkişaf etmiş ölkələrin forumu olan Böyük Yeddilikdə iştirak edir.

Böyük Britaniyanın bir çox regionlarda, o cümlədən Cənubi Qafqazda milli maraqları var. Cənubi Qafqazın inkişafına uzun müddət mane olan əsas problemlərdən biri Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi idi. Böyük Britaniya ATƏT-in Minsk qrupunun üzvü olmasa da Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində fərqli səviyyələrdə və istiqamətlərdə, passiv və ya aktiv formada iştirak etmişdir. Buna görə də Böyük Britaniyanın Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətdə dövlət siyasətinin tədqiqi aktuallıq kəsb edir.

Azərbaycan zəngin enerji resurslarına malik bir ölkədir. Azərbaycanın Xəzər dənizində zəngin karbohidrogen resurslarının hasilatı və ixracında Böyük Britaniyanın BP şirkəti aktiv iştirak edir. Azərbaycanla Böyük Britaniya arasında bu istiqamətdə əməkdaşlıq müstəqilliyin ilk illərində başlamışdır. Həmin dövrdə Cənubi Qafqazda I Qarabağ müharibəsi gedirdi. Genişmiqyaslı müharibə ilə Krallığın geoiqtisadi maraqlarının sintezi dissertasiya işinin aktuallığı şərtləndirən amillərdən biridir.

Azərbaycan və Ermənistanın yerləşdiyi Cənubi Qafqaz regionu çox vacib geostrateji məkanda yerləşir. Geosiyasət elminin ata banilərindən olan R.Çellenin terminalogiyasından istifadə etsək, Cənubi Qafqaz bufer zonada yerləşir. Cənubi Qafqazın bufer zonada yerləşməsi onu bir tərəfdən Rusiya, digər tərəfdən İran, başqa tərəfdən isə Türkiyə kimi böyük dövlətlərlə qonşu edir. İlk iki dövlət Böyük Britaniyanın geosiyasi rəqibləri, Türkiyə isə NATO üzrə müttəfiqidir. Belə şəraitdə Cənubi Qafqaz böyük dövlətlər arasında geosiyasi oyun meydançasına, Dağlıq Qarabağ münaqişəsi isə böyük dövlətlərin bir-birinə qarşı istifadə etmək istədiyi təsir vasitəsinə çevrilir. Bu

kontekstdə Böyük Britaniyanın münaqişə ilə mövqeyinin və dövlət siyasətinin müəyyənləşdirilməsi təkcə regional səviyyədə deyil, qlobal miqyasda da böyük dövlətlərin rəqabətinə müəyyən qədər aydınlıq gətirməyə şərait yaradır.

10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat II Qarabağ müharibəsini və ümumilikdə Dağlıq Qarabağ münaqişəsini yekunlaşdırdı. II Qarabağ müharibəsində Azərbaycanın qələbəsi dövlətin bir çox ölkələrlə, o cümlədən Böyük Britaniya ilə uzun müddət apardığı uğurlu dövlət siyasətinin məntiqi nəticəsi idi. Müharibənin əvvəlində bəzi ölkələr BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qərəzli qətnamə qəbul etməyə cəhd göstərmişdilər. Lakin Böyük Britaniyanın vaxtında müdaxiləsi bu qərəzli qətnamənin ləğvinə gətirmişdir. Bu fakt Azərbaycanın Krallıq ilə qurduğu yüksək səviyyəli tərəfdaşlıq münasibətlərinin göstəricisi olub, dissertasiya mövzusunun aktuallığına dəlalət edir.

**Problemin öyrənilmə dərəcəsi.** Dissertasiyanın yazılması prosesində mövzu ilə bağlı geniş ədəbiyyat siyahısı tədqiq edilmişdir. Dissertasiya mövzusu üzrə Azərbaycan və Böyük Britaniyanın akademik dairələrində çoxlu sayda tədqiqat işləri yazılıb. Dissertasiyanın yazılması prosesində nəzər yetirilən ədəbiyyatlar içərisində ilk növbədə Azərbaycan Respublikası prezidentinin Böyük Britaniya rəsmiləri ilə Azərbaycanda və ya xarici ölkələrdə görüşləri zamanı səsləndirdiyi fikirləri, verdiyi müsahibələri, etdiyi çıxışları və verdiyi bəyanatları qeyd etmək zəruridir. Azərbaycanın Böyük Britaniya ilə münasibətləri Heydər Əliyev və İlham Əliyevin hakimiyyət illərində yüksələn xəttlə inkişaf etmişdir. Buna görə də dissertasiya çərçivəsində əsas diqqət məhz bu prezidentlərin Krallıq ilə yanaşmalarına verilmişdir.

Tədqiqat işinin elmi bazasını, o cümlədən Böyük Britaniya rəsmilərinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yanaşmasını əks etdirən ədəbiyyatlar təşkil edir. Burda qeyd etməliyik ki, heç də bütün Britaniya siyasətçiləri Dağlıq Qarabağ münaqişəsinə qərəzsiz və obyektiv münasibət bəsləmirlər. Dissertasiya çərçivəsində biz Britaniya parlamentində erməni koksunun bir çox üzvlərinin Azərbaycana qarşı səsləndirdiyi ittihamları təhlil etmişik.

Dağlıq Qarabağ münaqişəsi Böyük Britaniyanın bir sıra normativ hüquqi aktlarında və digər vacib sənədlərində fərqli bucaqlardan əks olunmuşdur. Dissertasiyanın yazılması müddətində parlamentin münaqişə ilə bağlı müvafiq dinləmələri, erməni və Azərbaycan koksuna daxil Britaniya siyasətçilərinin istifadə etdikləri arqumentlər, "Forin Ofis" və Parlamentin Xarici Əlaqələr Komitəsinin münaqişə ilə bağlı verdiyi rəsmi bəyanatlar hərtərəfli və əsaslı şəkildə təhlil olunmuşdur.

Böyük Britaniya xarici siyasətinin formalaşmasına beyin mərkəzlərinin təsiri olduqca böyükdür. Buna görə də tədqiqat çərçivəsində "Çatam Haus" ("Chatham House"), Strateji Tədqiqatlar və Analiz Mərkəzi ("CESRAN"), Beynəlxalq Böhran qrupu ("İnternational Crisis Group"), "Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzi" ("CSİS"), "Ermənistanın Avropa Dostları" ("European Friends of Armenia"), "Beynəlxalq Təhlükəsizlik və Əməkdaşlıq Bölməsi" ("UNİSCİ"), "Xarici Əlaqələr üzrə Avropa Şurası" ("European Council on Foreign Relations"), "Xarici Siyasət Mərkəzi" ("Foreign Policy Center") kimi beyin mərkəzlərinin münaqişə ilə bağlı tədqiqatları araşdırılmışdır. Bu tədqiqatlar Böyük Britaniyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dövlət siyasətinin dərk olunması baxımında əhəmiyyətli olmuşdur.

Böyük Britaniyanın çox nüfuzlu kütləvi informasiya vasitələri var. Britaniya mətbuatı və radio-televiziya kanalları təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə izlənilən kütləvi informasiya resurslarıdır. Dissertasiyanın yazılmasına Britaniyanın nüfuzlu "Faynənşl Tayms" ("The Financial Times"), "Deyli Meyl" ("The Daily Mail"), "Qardian" ("The Guardian"), "Herald Skotland" ("The Herald Scothland"), "İndependent" ("The İndependent") və s. mətbuatının münaqişə ilə bağlı məqaələləri cəlb edilmişdir. Adı çəkilən mətbuat Britaniya əhalisi tərəfindən yaxından izləndiyinə görə nəşrlər tərəfindən münaqişəyə formalaşdırılan yanaşma bu və ya digər dərəcədə əhalinin münaqişə tərəflərinə mövqeyinə də proyeksiya olunur. Digər tərəfdən adı çəkilən nəşrlər Krallığın yüksək vəzifəli məmurları və siyasi elitası tərəfindən də mütəmadi qaydada oxunulur. Mətbuatdan savayı Böyük Britaniyanın BBC tele-radio şirkətlər qrupu münaqişə ilə bağlı sənədli filmlər, reportajlar hazırlayıb, münaqişə tərəflərinin

liderlərindən müsahibələr götürüb. Bu sənədli filmlər, reportajlar və müsahibələr təkcə ingilis dilində deyil, BBC şirkətinin fərqli ölkələrdə fəaliyyət göstərdiyi filialları tərəfindən müxtəlif dillərə tərcümə edilərək, dünyaya yayılmışdır.

Birləşmiş Krallıq BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir. Böyük Britaniya o cümlədən münaqişənin tənzimlənməsində bu və ya digər dərəcədə iştirak edən NATO və ATƏT-in də üzvüdür. Bu səbəbdən dissertasiya çərçivəsində adı çəkilən təşkilatların münaqişə ilə bağlı qəbul etdikləri sənədlər Böyük Britaniyanın iştirakı prizmasından tədqiq edilmişdir. 2020-ci ildə Böyük Britaniya Avropa İttifaqını tərk etsə də, münaqişə fazasında Krallıq hələ də qurumun üzvü sayılırdı. Bu səbəbdən dissertasiya çərçivəsində Avropa İttifaqının münaqişəyə vasitəçilik etmə cəhdlərinə dair elmi əsərlər də hərtərəfli araşdırılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Böyük Britaniyanın Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dövlət siyasətinin nəzəri və praktiki əsaslarının öyrənilməsindən ibarətdir.

Qeyd olunmuş məqsədə çatmaq üçün aşağıdakı **vəzifələri** yerinə yetirmək zəruridir:

- SSRİ-nin süqutundan sonra Böyük Britaniyanın Cənubi Qafqaza marağını şərtləndirən amilləri araşdırmaq;
- Böyük Britaniyanın Dağlıq Qarabağ münaqişəsinə dair dövlət siyasətinin təkamülünü normativ-hüquqi aktlar əsasında tədqiq etmək;
- Böyük Britaniyada nüfuzlu beyin mərkəzlərinin münaqişə ilə bağlı tədqiqatlarında formalaşdırılan ümumi tendensiyaları müəyyənləşdirmək;
- Münaqişənin Böyük Britaniyanın nüfuzlu KİV-lərində işıqlandırılmasının səciyyəvi xüsusiyyətlərini araşdırmaq;
- Böyük Britaniyanın münaqişə tərəfləri ilə ikitərəfli münasibətlərində Dağlıq Qarabağ münaqişəsi faktoruna aydınlıq gətirmək;

- Böyük Britaniyanın beynəlxalq təşkilatlar səviyyəsində münaqişəyə münasibəti deduktiv metodla sistemləşdirmək.

**Tədqiqat işinin nəzəri metodoloji bazası.** Magistr dissertasiyasının yazılması zamanı fərqli nəzəriyyələrdən və müxtəlif metodlardan istifadə olunmuşdur. Böyük Britaniyanın Cənubi Qafqazda milli maraqları, bu maraqların münaqişə tərəflərinə münasibətdə klassifikasiya və sistemləşdirilməsi realizm paradiqmasının nəzəri əsasları üzərində tədqiq edilmişdir. Beyin mərkəzləri və kütləvi informasiya vasitələrinin Britaniyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dövlət siyasətinə təsir limitləri isə liberalizm paradiqması çərçivəsində təhlil olunmuşdur. Böyük Britaniyanın Dağlıq Qarabağ münaqişəsinə yanaşmasının fərqli müddətlərdə necə olduğunu tədqiq etmək üçün retrospektiv analiz istifadə edilmişdir. Britaniyanın Cənubi Qafqazla bağlı fərqli maraqlarının bir-biri ilə əlaqələndirilməsi isə sintez metodunun köməyi ilə həyata keçirilmişdir. Krallığın fərqli beynəlxalq təşkilatlar səviyyəsində münaqişəyə mövqeyi deduksiya metodunun köməyi ilə araşdırılmışdır. Bundan savayı dissertasiya çərçivəsində fərqli geosiyasi məktəb və modellərin köməyi ilə Böyük Britaniyanın münaqişəyə yanaşması təhlil olunmuşdur.

**Dissertasiyanın elmi yeniliyi.** Böyük Britaniya Azərbaycanın strateji tərəfdaşlarından biridir. Bu baxımdan Böyük Britaniyanın Dağlıq Qarabağ münaqişəsinə dövlət siyasətinin hərtərəfli öyrənilməsi  vacib əhəmiyyət kəsb edir. Beləliklə, tədqiqatın elmi yeniliyi azərbaycanlı müəllif tərəfindən Birləşmiş Krallığın Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dövlət siyasətinin fərqli aspektlərinin tədqiq olunmasından ibarətdir. Bununla bərabər qeyd edək ki, dissertasiya daxilində Azərbaycan elmində istifadə olunmayan Britaniyaya məxsus bir çox beyin mərkəzləri və KİV-lərin münaqişə ilə bağlı məqalələr araşdırılmışdır. Bu fakt da dissertasiya işinin  elmin yeniliyinə dəlalət edən məqamlardandır.

**Dissertasiyanın elmi və praktik əhəmiyyəti.** Mövzunun aktuallığını nəzərə alaraq Azərbaycanın xarici siyasət üzrə ixtisaslaşan dövlət orqanları, Azərbaycanın Britaniyadakı səfirliyi, ölkəmizin beyin mərkəzləri dissertasiyada aparılmış tədqiqatı

Azərbaycanın Birləşmiş Krallıqla əlaqələrini təkmilləşdirmək üçün istifadə edə bilərlər. Tədqiqat prosesində alınan nəticələr Britaniya-Azərbaycan münasibətləri əhatə edən fənnlərin tədrisində, proqramların hazırlanmasında, monoqrafiyaların və dərs vəsaitlərinin yazılmasında istifadə oluna bilər.

**İşin aprobasiyası**. Tədqiqatın əsas məzmunu magistrantın universitetin elmi jurnalında çap etdirdiyi məqalədə və Tələbə Elmi Cəmiyyətinin konfransında etdiyi çıxış və məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Magistr dissertasiyası "Giriş", üç fəsil, altı paraqraf, "Nəticə" və "İstifadə olunmuş ədəbiyyat siyahısından" ibarətdir.

# I FƏSİL. BÖYÜK BRİTANİYANIN ERMƏNİSTAN AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ DÖVLƏT SİYASƏTİNİN ƏSASLARI

## 1.1.SSRİ-nin süqutundan sonra Böyük Britaniyanin milli maraqlari kontekstində Cənubi Qafqaz regionu

Böyük Britaniyanın Cənubi Qafqaz regionuna diqqəti həmişə milli maraqlar müstəvisində izah olunan və obyektiv xarakter daşımışdır. Regionun karbohidrogen resurslarla zəngin Xəzər hövzəsində yerləşməsi, Rusiya və İran kimi geosiyasi rəqiblərin aralığında mövqe tutması, o cümlədən Şərqlə Qərbi təhlükəsiz nəqliyyat-kommunikasiya xəttləri ilə bağlaması Cənubi Qafqazın Böyük Britaniya üçün əhəmiyyətini şərtləndirirdi. Soyuq müharibə dövründə Birləşmiş Krallıq üçün Cənubi Qafqaz sadəcə dünyanın 1/6 hissəsini tutan SSRİ-nin cənub bölgələrindən biri idi. 1979-cu ilə qədər İngiltərə Mərkəzi Asiya regionuna İran və digər ölkələr vasitəsilə çıxış əldə edirdi. Lakin İranda şah rejiminin devrilməsi, əvəzində isə ABŞ diplomatlarını girov götürən teokratik rejimin hakimiyyətə gəlməsi bu cənub marşrutunun perspektivlərini sıfra endirdi. Belə olan halda 1991-ci ildə SSRİ-nin parçalanması nəticəsində 15 müstəqil dövlətin yaranması Böyük Britaniyanın dövlət siyasəti qarşısında geniş perspektivlər açdı.

Böyük Britaniyanın 90-cı illərin əvvəllərində geosiyasi strategiyasında Cənubi Qafqazın tutduğu yeri düzgün dəyərləndirmək lazımdır. Bir tərəfdən Cənubi Qafqaz və xüsusilə Azərbaycan, şimaldan Rusiya, cənubdan isə İran kimi rəqiblərin mövcud olması şəraitində həm zəngin karbohidrogen resurslara, həm də Mərkəzi Asiyaya yeganə təhlükəsiz çıxış idi. Prezident Karterin milli təhlükəsizlik məsələləri üzrə müşaviri olan Z. Bjezinski, müəllifi olduğu "Böyük şahmat lövhəsi" kitabında Azərbaycanı Mərkəzi Asiya və Xəzər dənizi hövzəsinin zəngin resurslarına giriş qapı adlandırırdı. Alimə görə müstəqil və Türkiyə ilə yaxın münasibətlərə malik Azərbaycan, Rusiyanın regiona çıxış monopoliyasını sarsıda və onun "Mərkəzi Asiyanın yeni dövlətlərinin siyasətinə əsas təsir vasitəsindən məhrum edə" bilər [22, s.32]. Z. Bjezinskinin amerikalı politoloq olması,

kitabının isə 1997-ci ildə işıq üzü görməsinə rəğmən, əsərdə əks olunan yanaşmanın daha əvvəldən mövcud olmasına heç bir şübhə yoxdur. Azərbaycan Respublikası Xarici işlər nazirliyinin rəsmi məlumatına əsasən, 1904-cü ildə Böyük Britaniya ağ neftə olan tələbatının 47%-ni Azərbaycanın hesabına ödəyirdi. Azərbaycanın zəngin karbohidrogen resursları və xüsusi coğrafi mövqe sayəsində regional nəqliyyat habına çevrilmə potensialı Böyük Britaniyanın Azərbaycan iqtisadiyyatına 30,6 milyard ABŞ dolları sərmayə qoymasını şərtləndirdi. Birləşmiş Krallıq hələ də Azərbaycan iqtisadiyyatına ən çox sərmaye yatıran ölkə olmaqda davam edir və Azərbaycanda iqtisadiyyatın fərqli sferalarında 600-ə yaxın şirkətə malikdir [4].

Cənubi Qafqazın siyasi-iqtisadi əhəmiyyəti Böyük Britaniyanın region ilə bağlı geosiyasi düşüncələrinin yalnız bir tərəfini təşkil edirdi. Bununla bərabər Birləşmiş Krallığın rəsmi və qeyri-rəsmi qurumları regionun özü ilə daşıdığı təhlükələri də böyük diqqətlə izləyirdi. Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzi regionda əksəriyyəti xristianlardan təşkil olunan Ermənistan və Gürcüstanın, eləcədə əksəriyyəti müsəlman olan Azərbaycanın mövcudluğuna işarə edib, Cənubi Qafqazın tarixən Şərqlə Qərb arasında “qırılma zonası” olduğunu qeyd edir [31]. Qərargahlarından biri Londonda yerləşən Beynəlxalq Böhran Qrupu isə hesabatında bildirir ki, Sovet İttifaqın zəifləməsi regionda etnik azlıqların məskunlaşdığı üç rayonun ərazi statusu ilə bağlı siyasi münaqişələr formalaşdırdı. Belə münaqişə ocaqları Azərbaycanda əhalisinin əksəriyyətinin ermənilərdən təşkil olunan Dağlıq Qarabağ Muxtar vilayəti, Gürcüstanda Abxaziya muxtar Sosialist Sovet Respublikası (1992-1993) və Cənubi Osetiya muxtar vilayəti (1989-1992) idi. Beyin mərkəzinə görə, 1990-cı illərin əvvəllərində regionda baş verən bu etno-siyasi münaqişələr 50.000-dən çox insan ölümünə, böyük maddi dağıntılara, regionun ilk onilliyində siyasi qeyri-sabitliyə, iqtisadi çətinliklərə və transmilli cinayətlərin artmasına səbəb olmuşdur [62].

Strateji Araşdırma və Analiz Mərkəzi isə Dağlıq Qarabağ münaqişəsinin tarixi köklərinin Rusiya və Osmanlı İmperiyaları arasındakı müstəmləkəçilik rəqabətinə getdiyini qeyd edir. Mərkəzə görə, münaqişə 1988-ci ildə Ermənistan və Azərbaycan

arasında ərazi bütövlüyü və milli suverenlik prinsipləri arasında toqquşma kimi başlamışdır. Dağlıq Qarabağ 1991-ci ildə öz müstəqilliyini elan etsə də, onu Ermənistan daxil heç bir dövlət və ya qurum tanımamışdır [97]. Oxşar mövqeyi Oksford Universitetinin Rusiyanın xarici siyasəti və keçmiş Sovet İttifaqının regional dinamika məsələləri üzrə mütəxəssisi Nil Makfarleyn də irəli sürür. Oksford mütəxəssisi Dağlıq Qarabağ münaqişəsini nüfuzlu "Milliyyət Sənədləri" ("Nationalities Documents") elmi jurnalında identiklik aspektindən ətraflı tədqiq etmişdir. Müəllifi olduğu məqalənin baş tezisinə görə, "Qarabağ münaqişəsi ermənilər və azərbaycanlıların müəyyən dərəcədə identiklik ilə territoriallıq arasında fərqli təssəvürlərinə malik olmaları səbəbindən yarandı". Alim münaqişənin əsaslarını o cümlədən konstruktivizm müstəvisində təhlil edib, onu ermənilərin Bakı və Sumqayıtdan, azərbaycanlıların isə İrəvandan qovulmasında axtarır. N. Makfarlayn belə əqlinəticəyə gəlir ki, bu köçmə və qovulma halları, həmçinin Osmanlı imperiyasında baş verən 1915-ci il hadisələri siyasi proseslərə identiklik aspektindən yanaşmanı aktual etdi. "Türkiyəni düşmən və hədələyici qonşu" kimi nəzərdən keçirən Ermənistan, xarici siyasətində Rusiyaya meyl etdi, Azərbaycan isə əsas müttəfiqi qismində Türkiyəni nəzərdən keçirtməyə başladı. İdentiklik atəşkəs müqaviləsi imzalandıqdan sonra da öz aktuallığını itirmədi. Qərb ölkələri Sürix protokollorı vasitəsilə Ermənistan və Türkiyə arasında sərhədlərin açılmasına nə qədər səy göstərsələr də, bu prosesin Qarabağ ilə əlaqəli şəkildə aparılmaması Türkiyənin ictimai fikrində və parlamentində "qohum xalqa xəyanət" təsəvvürünü formalaşdırıb, prosesi iflasa apardı. Eyni problemlər Ermənistan və erməni diasporu arasında yaşanmışdır [25].

Oksford Universiteti mütəxəssisinin timsalında biz Böyük Britaniyanın Cənubi Qafqaz regionuna münasibətdə xarici siyasətinin daha bir ölçüsünü müəyyən etmiş oluruq. Böyük Britaniyanın münaqişə tərəfləri arasında Azərbaycana üstünlük verməsinin daha bir səbəbi – axırıncının NATO üzvü olan Türkiyə ilə yaxın və müttəfiq münasibətlərinə malik olması, Ermənistanın isə Qərbin geosiyasi rəqibi olan Rusiyanın həm təbii, həm də sosial konstrukt edilmiş müttəfiqi olması ilə əlaqəli idi. İrəli

sürdüyümüz tezisin subyektiv düşüncənin məhsulu olmadığını isbatlamaq üçün Böyük Britaniyanın Gürcüstan ilə münasibətlərinə nəzər yetirmək kifayətdir. Gürcüstanın Rusiya ilə siyasi problemləri, xristian ölkəsi olması, Qara dənizə çıxışa malik olması və Böyük Britaniyanın böyük yatırımlar etdiyi layihələr üçün tranzit ölkə olması Birləşmiş Krallığın regionda ən sıx siyasi münasibətləri Gürcüstan ilə qurmasını şərtləndirdi. Böyük Britaniyanın 2009-cu il tarixli Milli Təhlükəsizlik Strategiyasına əsasən, "2008-ci ilin avqustunda Gürcüstan-Rusiya münaqişəsindən sonra biz hər iki tərəf və beynəlxalq tərəfdaşlarla bu regionda daha böyük stabilliyin təmin edilməsi üçün... ...demokratik islahatlar və daha sıx Avroatlantik inteqrasiya üzərində Gürcüstan hökuməti ilə işləyirik. Böyük Britaniyanın Rusiya ilə mədəni və iqtisadi planda münasibətləri güclüdür və Rusiya beynəlxalq səviyyədə konstruktiv rol oynamağa davam edir. Bununla belə biz Gürcüstan ilə münasibətlər nümunəsində qəbuledilməz saydığımızda möhkəm dururuq" [98, s. 108-109]. Müşahidə etdiyimiz kimi Böyük Britaniya hələ Rusiya ilə yaxın münasibətlərə malik olduğu və onu beynəlxalq münasibətlərdə bir o qədər destruktiv yox, konstruktiv faktor hesab etdiyi vaxtlarda Gürcüstanı strateji əhəmiyyətli dövlət sənədlərində açıq dəstəkləməkdən çəkinmirdi.

Burda Böyük Britaniyanın regiona diqqətinin, daha dəqiq ifadə etsək isə ehtiyatının başqa vacib səbəbi müşahidə olunur: Azərbaycanın qarşılaşdığı etno-siyasi problem müəyyən modifikasiya olunmuş formada Böyük Britaniyada da müşahidə olunur. Böyük Britaniya Azərbaycan kimi unitar quruluşa malik olub, Şotlandiya və Şimali İrlandiya timsalında separatçılıq tendensiyaları ilə qarşılaşır. Bu isə Böyük Britaniyanın da ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə prinsipləri arasındakı kolliziyadan əziyyət çəkməsi anlamına gəlir. Dövlət maraqları ölkənin parçalanmasını qabaqlamaq üçün ərazi bütövlüyü prinsipini həm daxildə, həm də xaricdə əldə rəhbər tutaraq geniş təbliğ etməyi tələb edirdi, lakin demokratik siyasi rejim və 1992-1993-cü illərdə yaradılacaq Avropa İttifaqının layiqli üzvü olmaq arzusu separatçılıqla sərt mübarizə aparmağa imkan vermirdi. Belə olan halda Böyük Britaniya daxildə yumşaq gücə, beynəlxalq arenada isə düşünülmüş xarici siyasət konsepsiyasına üstünlük verdi. Bu

konsepsiya özündə beynəlxalq hüquq və təşkilatlar səviyyəsində ərazi bütövlüyü prinsipinə üstünlük vermə ilə münaqişə ocaqlarında maksimal neytrallığı qorumaq tələbinin sintezini ehtiva edirdi. Bu konsepsiyanın praktikada inikasını biz bir tərəfdən Böyük Britaniyanın BMT Təhlükəsizlik Şurasının üzvü kimi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən 4 qətnaməyə səs verməsində, digər tərəfdən isə ATƏT-in Minsk qrupunun üzvü olmaqdan imtina etməsində müşahidə edə bilərik.

Britaniyanın Minsk qrupunda həmsədrliyə can atmamasının ən sadə səbəbi isə bunun perspektivdə hissolunan faydaya çevrilməyəcəyi ilə bağlı düşüncə idi. Kembric Univesiteti tərəfindən Rusiya, Ermənistan, Azərbaycan, Gürcüstan və digər postsovet ölkələrinə səfir göndərilən şəxslərdən götürülən müsahibələrin stenoqrammalarına müraciət etsək, Birləşmiş Krallığın Minsk qrupu ilə bağlı mövqeyinə aydınlıq gətirmək mümkün olacaqdır: “Azərbaycan nəzərəçarpan neft ehtiyyatları ilə, böyük kommersiya marağı təşkil edirdi, axırıncı yerdə olmayan BP ilə Qərbin əsas neft şirkətləri üçün əhəmiyyətli maraq kəsb edirdi”. Ermənistana ilk səfəri zamanı prezident L. Ter-Petrosyanın müşavirlərindən biri ilə görüşünü xatırladan Britaniya səfiri, həmsədrlikdən imtinanı “mədəni səbəblər” ilə izah edirdi. Səfirin xatirələrinə görə, ermənilər düşünürdülər ki, britaniyalıların neftə güclü marağı, onların mediator kimi neytrallığına mane olacaqdır. Məsələyə retrospektivdə münasibət formalaşdıran səfir, Minsk Qrupunda ranqa malik olmağın heç bir xeyrinin olmadığını bildirir: “Siz Bakı və İrəvana Minsk Qrupunun üzvü olmayaraq da produktiv səfər edə bilərdiz”.

Münaqişənin regionun iqtisadi potensialına dağıdıcı təsiri Birləşmiş Krallığın diqqət yetirdiyi əsas məqamlardan biri olmuşdur. Bu istiqamətdə tədqiqatlar münaqişənin həm Ermənistanın, həm də Azərbaycanın iqtisadiyyatına vurduğu zərəri ayrı-ayrılıqda hesablamağa yönəlmişdir. Münaqişənin regionun iqtisadi potensialına vurduğu zərər 2008-ci ildə nüfuzlu “Faynenşl Tayms” (“The Financial Times”) qəzetinə məxsus aylıq “Bankir” (“The Banker”) jurnalında ətraflı təhlil olunmuşdur. Məqalədə Azərbaycanın bu illər ərzində qazandığı iqtisadi nailiyyətlər təhlil olunur və bununla bərabər münaqişənin ölkənin və regionun iqtisadi imkanlarına vurduğu zərər ətraflı şərh olunur [77].

Bununla belə regionun siyasi qeyri-stabilliyi ilə iqtisadi problemləri səbəb-nəticə əlaqəsində yox, qarşılıqlı asılılıq və ya düz mütənasiblik əlaqəsində nəzərdən keçirtmək daha düzgündür. Birləşmiş Krallıq, regionun iqtisadi problemlərinin əsasında siyasi münaqişələrin durduğunu qəbul etdikləri qədər, siyasi münaqişələrin də əsasında iqtisadi faktorların dayandığını nəzərdən keçirdirdilər. Birləşmiş Krallığın bir çox siyasətçiləri və siyasətşünasları 2016-cı il aprel döyüşlərinin əsasında iqtisadi motivlərin dayandığını düşünürdülər. Məsələn, Simon Pirani 2016-cı ilin iyununda dərc etdiyi tədqiqatında Azərbaycanın neft və qaz ixracından çox asılı olduğunu vurğulayıb, aprel döyüşlərinin səbəbini Azərbaycanda başlanmış iqtisadi resessiya ilə əlaqələndirirdi [78, s. 1].

Vurğulayaq ki, regionun iqtisadi inkişafında, Krallığın isə iqtisadi maraqlarının təmin edilməsində əsas maneənin Ermənistanın təcavüzkar siyasəti olduğunu London yaxşı dərk edir. Oksford Universiteti nəzdində Reyters Dostluq İnstitutu S. Musayelyanın qələmi ilə münaqişənin Ermənistan iqtisadiyyatına vurduğu uzunmüddətli dağıdıcı təsiri təhlil etmişdir. S. Musayelyana görə 1988-ci il zəlzələsi və Qarabağ uğrunda müharibə Ermənistan ÜDM-nin 50% enməsini şərtləndirdi. İqtisadi böhran o qədər dərin idi ki, Ermənistanın ümumdaxili məhsulu 1990-cı ildə müşahidə olunan göstəriciyə yalnız 2004-cü ildə çatdıra bildi. S. Musayelyana görə Azərbaycan və Türkiyə ilə həllini tapmamış problemlər xarici investisiyalar üçün çəkindirici faktor olub, Ermənistan ticarətinin 70%-dək hissəsini Gürcüstan ərazisində asılı vəziyyətə gətirdi. Bu isə Osetiya müharibəsi zamanı 680 milyon dollar dəyərində zərərə gətirən logistik problemə çevrildi [94, s. 14-18]. Müşahidə etdiyimiz kimi regionun, o cümlədən Ermənistanın yaşadığı iqtisadi problemlərin kökündə Ermənistanın qonşuları ilə siyasi problemlərinin durduğu bir aksioma çevrilmişdir.

1997-ci ildə nüfuzlu "İndependent" qəzetində Fil Rivzin "Necə Ermənistan müharibədə qalib gəldi, amma neftdə məğlub oldu" adlı məqaləsi dərc olundu. Vurğulayaq ki, İndependent qəzeti Britaniya parlamenti üzvlərinin mütəmadi olaraq izlədiyi və öz qərarlarında o cümlədən orda yazılan məlumatlara söykəndiyi bir neçə nüfuzlu nəşrlərdən biridir. Adı çəkilən məqalədə müəllif Xəzər hövzəsində karbohidrogen

resursların Şimal dənizindən iki dəfə daha zəngin olduğunu bildirib, Amerikanın nəhəng neft şirkətlərinin BP konsorsiumunun rəhbərliyi altında Azərbaycanın neft ehtiyatlarının 40%-nə sahib çıxdığını qeyd edir. Bu fakt Azərbaycanın Qərb ölkələri üçün əhəmiyyətini xeyli artırıb, ona qarşı münasibətin təmamilə dəyişilməsini şərtləndirmişdir. Müəllifə görə Ermənistan diaspor sayəsində İsrail istisna olmaqla Birləşmiş Ştatlardan ən çox yardım alan, Azərbaycana isə 907-ci düzəlişə görə dövlət yardımından kənarda qalan ölkələr olsa da, neft faktoru Qərbin xarici siyasətini kökündən dəyişdirdi. Azərbaycanın neft ehtiyatları prezident Heydər Əliyevin ABŞ prezidenti Vilyam Klinton tərəfindən qəbul edilməsinə, 907-ci düzəlişin aradan qaldırılması naminə isə ata Corc Buşun dövlət katibi Ceyms Beyker və Ağ Ev aparatının sabiq rəhbəri Con Sununu timsalında güclü lobbiçiliyin formalaşmasına səbəb olmuşdur: “Məsələ Vaşinqtonun dollarları uğrunda erməni diasporu və neft lobbisi arasında mübarizəyə gəldikdə bu qeyri-bərabər savaş olur. Neftçilər – favoritdir” [84].

Neft faktoru təkcə ABŞ-ın yox, o cümlədən Birləşmiş Krallığın da Azərbaycana münasibətinin dəyişməsinə təsir göstərmişdir. Birləşmiş Ştatlar Konqresi səviyyəsində olmasa da, amma Böyük Britaniya parlamenti də 90-cı illərin əvvəllərində Azərbaycana münasibətdə güclü skepsisə və hətta qərəzli münasibətə malik idi. Lakin BP şirkətinin Azərbaycan neft yataqlarına yatırım etməsi əvvəlcə icraedici hakimiyyət səviyyəsində, daha sonra isə parlament səviyyəsində ölkəmizə müsbət münasibətin formalaşmasına təsir göstərdi. Neft faktorunun və BP şirkətinin bu prosesdə əvəzedilməz rolunu vurğulamaq üçün belə bir fakt gətirmək kifayətdir ki, Azərbaycana göndərilən ilk səfirlik işçiləri BP-nin Bakı ofisində yerləşmişdilər. 1994-cü ildə “Əsrin Müqaviləsi”nin - Azəri-Çıraq-Günəşli yatağının işlənməsi üçün “BP” şirkətinin rəhbərlik etdiyi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə Hasilatın Pay Bölgüsü Sazişi imzalanıb. 1995-ci il 28 noyabr tarixdə Heydər Əliyev Adam Smit İnstitutunun təşkil etdiyi “Azərbaycanda investisiya imkanları” mövzusunda konfransda iştirak etmək üçün Birləşmiş Krallığa işgüzar səfər edib və konfransın gedişində Azərbaycan - Böyük Britaniya Ticarət - Sənaye Şurasının yaradılması haqqında Memorandum imzalamışdır. 3-5 iyun 2002-ci ildə keçirilən illik

"Neft-Qaz 2002" sərgisində Britaniyanın sənaye və energetika naziri Brayan Vilson iştirak etdikdən sonra isə Britaniya nazirləri mütəmadi olaraq Xəzər Neft və Qaz sərgilərində iştirak edirlər. 14 sentyabr 2017-ci ildə Bakıda SOCAR və BP-nin əməliyyatçısı olduğu Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının 2050-ci ilədək işlənilməsini nəzərdə tutan yeni Sazış imzalanıb [2].

Beləliklə, bir tərəfdən iqtisadi perspektivlər, digər tərəfdən isə münaqişələr səbəbindən regionun özü ilə daşıdığı siyasi risklər, Böyük Britaniyanın Cənubi Qafqaz ilə bağlı xarici siyasətinin əsasında təşkil edən iki faktordur. Böyük Britaniya xarici siyasətində ardıcıl olmağa çalışıb, bu iki faktorun təhlükəli metamorfozalar formasında qarışdırılmamasına səy göstərirdi. Lakin vaxtaşırı bəzi Britaniya siyasətçilərinin bu iki faktoru təhlükəli formada sintez etməyə cəhd göstərməsi bəzi potensial problemlər yaradırdı. Məsələn, Kembric Universiteti tərəfindən dərc edilən müsahibələr toplusunda 2002-2012-ci illərdə Böyük Britaniya hökümətinin Cənubi Qafqaza xüsusi nümayəndəsinin Azərbaycan və Ermənistan ilə bağlı fikirləri əks olunur. Müsahibədə britaniyalı diplomat "Dağlıq Qarabağda hüquqların 9/10"-nun Ermənistana məxsus olduğunu bildirir, neft və qaz ilə zəngin Azərbaycana isə özünü regionun Sinqapuru kimi aparmağını məsləhət görür. Diplomatın fikrinə görə alternativ kommunikasiya şəbəkəsinin olmadığı halda Azərbaycan özünü regionun təbii mərkəzi qismində görməlidir, lakin bunun əvəzinə "o düzənliklər həddən artıq isti olduğu vaxtlarda qoyunları (otlamaq) üçün çəmənlik kimi" istifadə edəcək dağlıq ərazilərini bərpa etmək naminə özünü "milli ambisiyaların mərkəzi"nə çevirməyi üstün tutur. Burdan biz bir neçə vacib əqlinəticə çıxara bilərik: əvvəla, Böyük Britaniyanın regionun problemləri haqqında təsəvvürləri natamam və vaxtaşırı təhrif olunmuş xarakterə malik idi; ikincisi iqtisadi maraqların ideoloji əsaslara söykənməsi Krallığın regional siyasətini böyük təhlükə altına qoymuş olurdu. Realizm məktəbinin ata banilərindən olan H. Morgentaunun uğurlu diplomatiyasının 9 qaydasından birincisinə əsasən, "dövlət səlib yürüşü siyasətindən əl çəkməlidir". Başqa sözlə desək, xarici siyasətə ideoloji prizmadan nəzər yetirmək

təhlükəli və metodoloji cəhətdən səhvdir. Ümumən götürdükdə Böyük Britaniya, Cənubi Qafqaz ilə bağlı xarici siyasətində davamlı realizm yanaşması nümayiş etdirmiş və yuxarıda qeyd edilən nadir hallar istisna olmaqla öz siyasətinə ideoloji elementlər qatmamışdır.

Bunun əvəzinə Böyük Britaniya iqtisadiyyatı stabilliyə aparacaq faktor kimi nəzərdən keçirtməyə başladı. Oksford Universitetinin nəzdində elmi müəssisələrdən biri bildirir ki, Vaşinqton münaqişənin karbohidrogen yataqlarına hədə yaratmasından ehtiyat edərək, vaxtı ilə mübahisənin həllinə 2 mlrd.$ yatırım qoymağa hazır olduğunu tərəflərə çatdırdırmışdır. Regional stabilliyə töhfə verə bilən variantlar içərisində Gürcüstanın sərhəd şəhəri olan Sadaxlo nümunə kimi təqdim edilirdi. Qafqazın ən böyük bazarlarından birinin yerləşdiyi Sadoxloda Gürcüstan rəsmilərinin aşağı gömrük tarifləri şəraitində ermənilər və azərbaycanlılar qida, geyim və un ilə ticarət edirlər [86]. İqtisadi mənfəəti siyasi razılaşmanın əsasına qoymaq ideyası çox populyar olsa da, Böyük Britaniya bu istiqamətdə nəzəri araşdırmalardan savayı ciddi bir addım atmadı.

Yekunda Böyük Britaniya ilə Azərbaycan arasında münasibətlərin cari yüksək səviyyəsini Birləşmiş Krallığın baş naziri Boris Consonun sözlərinə istinad edərək, təqdim etmək olar. 2021-ci ildə Bakı Qlobal Forumuna səfir Filip Barkley vasitəsilə müraciət ünvanlayan B. Conson, Azərbaycanın Britaniya üçün strateji əhəmiyyət daşıdığını Forum iştirakçılarının diqqətinə çatdırmışdır: “Birləşmiş Krallıq Azərbaycanın beynəlxalq məsələlərdə artan rolunu, ...Qoşulmama Hərəkatında sədrliyini və son təxliyələr zamanı Kabil hava limanının təhlükəsizliyinin təmin olunmasında Azərbaycan hərbçilərinin göstərdiyi köməyi alqışlayır. Birlikdə üzləşdiyimiz ən böyük beynəlxalq çağırış iqlim dəyişikliyidir. …Mən Sizin “yaşıl enerjiyə” verdiyiniz xüsusi dəyəri və Azərbaycanda bərpa olunun enerjinin rolunun artırılması planlarınızı alqışlayıram. Sizin son 27 il ərzində strateji tərəfdaşınız olan BP Azərbaycanda bu keçidi daha çox dəstəkləmək istəyir. Birləşmiş Krallıq Qafqaz regionunda sülh və sabitliyi, eləcə də postmünaqişə problemlərinin həllini dəstəkləməyə davam edir. …Birləşmiş Krallıq Azərbaycanın etibarlı tərəfdaşıdır və bu, belə də qalacaq” [14]. Boris Consonun öz rəsmi

müraciətində Azərbaycanı etibarlı tərəfdaş adlandırmaqla yanaşı "postmünaqişə" terminindən də istifadə etməsi iki ölkə arasında strateji münasibətlərin nə dərəcədə geniş və dərin əsaslı olduğundan xəbər verir.

Aparılan tədqiqat nəticəsində Böyük britaniyanın Cənubi Qafqazda vacib maraqlara malik olduğu müəyyən olunmuşdur. Krallığın region ilə bağlı milli maraqlarını Azərbaycanın karbohidrogen resurslarla zəngin olması, Gürcüstanın Qara dəniz ölkəsi olması, Cənubi Qafqazın İngiltərənin geosiyasi rəqibləri olan Rusiya və İran arasında yerləşməsi və regionun Mərkəzi Asiyaya çıxış qapısı olması şərtləndirir.

## 1.2.Böyük Britaniyanin Dağlıq Qarabağ münaqişəsinə dair dövlət siyasətinin normativ hüquqi əsasları

Böyük Britaniya konstitusiyalı, daha dəqiq desək isə parlamentli monarxiyadır. İstənilən parlamentli sistemdə isə qanunverici orqan digər iki hakimiyyət orqanı ilə müqayisədə daha səlahiyyətli hesab olunur. Bu səbəbdən paraqraf çərçivəsində münaqişə ilə bağlı Böyük Britaniya parlamentində təşkil olunan müzakirələrin normativ aktları təhlil olunur.

Böyük Britaniya parlamentində münaqişə ilə bağlı müzakirələr 1992-ci ildə təşkil edilmişdir. Qeyd edək ki, müstəqilliyin ilk illərində Britaniya parlamentində Azərbaycana qarşı güclü ermənipərəst kokus fəaliyyət göstərirdi. İndiyə qədər fəaliyyət göstərən bu kokusun ən fəal üzvlərindən biri baronessa Karolina Koksdur. 1992-ci il tarixli parlament müzakirəsində baronessa Qarabağa il ərzində 7 dəfə səfər etdiyini bildirib, münaqişə haqqında geniş bir nitq söyləmişdir. Ermənistana Britaniya elitasının dəstəyini qazandırmaq üçün K.Koks nitqində tarixi və hüquqi faktları falsifikasiya etməkdən çəkinmirdi. Çıxışında baronessa Qarabağın tarixən erməni ərazisi olduğunu və 1920-ci ildə Stalin trəfindən Azərbaycana verildiyini bildirmişdi [35]. Halbuki Azərbaycan SSRİ-yə daxil olanda istər dağlıq, istərsə də aran Qarabağ onun tərkibində idi. Bundan savayı

1921-ci il 5 iyul tarixli iclasda PK (b) P MK Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycan SSR-nin tərkibində saxlanılması barədə qərar vermişdir [7, s.20]. Gördüyümüz kimi yuxarıda qeyd edilən iclasda Dağlıq Qarabağın Azərbaycana verilməsi yox, saxlanılması qərarlaşdırılmışdı. Bununla biz baronessa Koksun öz parlament həmkarlarına səhv informasiya verdiyini sübut etmiş oluruq. Nitqdə Stalinə istinad təsadüfi xarakter daşımır. Stalin demokratik İngiltərə üçün totalitarizmin, repressiyaların, kütləvi qırğınların, ədalətsiz idarəetmənin və Soyuq müharibənin simvolik bir obrazıdır. Hətta tanınmış ingilis yazıçısı C. Oruellin məhşur "1984" adlı əsərində də stalinizm güclü tənqidinə məruz qalır. Orellin əsərində hadisələr Londonda cərəyan etsə də, "böyük qardaşın" obrazı Stalini, ölkənin idarə üsulu isə 1930-cu illər SSRİ-ni özündə təcəssüm etdirir. Stalinə istinad etməklə baronessa Koks dolayısı olaraq Azərbaycanın Qarabağa hüquqlarını diskreditə etməyə və demokratik İngiltərəni diktator tərəfindən edilən "səhvi" düzəltməyə səfərbər etməyə çalışır.

Nitqində xanım Koks Azərbaycanı Qarabağ və Ermənistanı, Türkiyəni isə Ermənistanı blokadada saxlamaqda ittiham edirdi. Lakin baronessanın anti-Azərbaycan təbliğatının zirvəsini Xocalı faciəsinin saxtalaşdırılması təşkil edir. Xocalıdan Xankəndiyə raket zərbələrinin endirildiyini iddia edən K.Koks, şəhərin ermənilər tərəfindən işğal edilməsini hərbi zərurət nöqteyi-nəzərindən əsaslandırmağa çalışırdı. Ardınca baronessa Azərbaycan hərbçilərinin ermənilər tərəfindən mülki əhali üçün açılan evakuasiya dəhlizinə daxil olaraq, mülki əhali içindən ermənilərə atəş açdığını iddia edirdi. Sözsüz ki, baronessanın bu hökmü, ermənilərin dinc əhaliyə evakuasiya dəhlizi verməsi haqqında hökm kimi gerçəkliyə uyğun deyil. Baronessa iddia edirdi ki, Azərbaycan hərbçiləri məqsədyönlü şəkildə dəhlizə daxil olub, mülki əhalini sipər kimi istifadə edirdilər [35]. Baronessa Koksun parlament yoldaşlarına bilərəkdən yalan danışdığını Britaniya mənbələri ilə asanlıqla sübut etmək olar. Beləki, Xocalı hadisələrinin soyqırım olmasını o cümlədən Britaniya jurnalistləri təsdiqləyirlər. Sübut kimi "Tayms", "İndependent", "Faynenşal Tayms" [10], "Sandey Tayms" [8] qəzetlərində çıxan məqalələri və britaniyalı jurnalistlərin şahidliklərini [17, s. 200] gətirmək olar.

Qarabağla bağlı növbəti vacib müzakirə 1997-ci ildə baş tutmuşdur. Baronessa Koks bu parlament müzakirəsində də Azərbaycana qarşı əsassız ittihamlar irəli sürmüşdü. Müzakirə çərçivəsində K.Koks Britaniya hökumətindən Ermənistan və Dağlıq Qarabağda baş verən son hadisələrlə bağlı dövlət siyasətinin nədən ibarət olduğunu soruşmuşdu. Bundan sonra baronessa qərəzli mövqə sərgiləyərək, Qarabağın guya Ermənistanın tarixi torpağı olduğunu, Azərbaycanın isə oradakı erməni əhaliyə blokada tətbiq etdiyini qeyd etdi. Tarixi faktları yenə təhrif edən xanım Koks ermənilərin işğallarına fərqli bərabətlər qazandırırdı. Məsələn, Qarabağ ermənilərinin əllərinə silah almalarını K.Koks Azərbaycanın Qarabağın muxtar statusunu ləğv etmək istəməsi ilə əsaslandırmağa çalışırdı. Bununla belə baronessa Koks bir dəfə də olsun Dağlıq Qarabağın beynəlxalq hüquqa əsasən Azərbaycanın ayrılmaz hissəsi olduğunu, Azərbaycanın isə unitar quruluşa malik olduğunu parlament həmkarlarının diqqətinə çatdırmırdı. Həmkarlarında ermənilərə münasibətdə empatiya hisslərini oyatmaq üçün Qarabağın 160.000 erməni əhalisinin dördüncü Sovet ordusu və 7 milyon azərbaycanlı ilə üz-üzə qaldığını qeyd edirdi. Halbuki heç kəsə sirr deyil ki, Rusiya 1993-cü ildən, yəni müharibənin ən qızğın vaxtlarından 1997-ci ilə qədər Ermənistana təmmənasız qaydada 1 milyard dollar dəyərində silah-sursat göndərmişdir [9, s.609]. Digər tərəfdən SSRİ-nin 1991-ci ildə ləğv edilməsindən sonra "dördüncü Sovet ordusunun" mövcudluğu məntiqə ziddir.

Çıxışı çərçivəsində baronessa əksər əhalisi azərbaycanlılar olan Şuşa və Laçının işğalına və hətta Xocalı soyqırımına da bəraət qazandırmağa çalışırdı. 1992-ci ildən fərqli olaraq 1997-ci ildə Britaniya parlamentinin əlinə soyqırım ilə bağlı çoxlu sübutlar gəldiyinə görə baronessa fərqli manipulyativ fənn işlədib, Xocalı faciəsi ilə bağlı erməni versiyasının da Britaniya höküməti tərəfindən nəzərə alınmasını xahiş etdi. K.Koksa görə Azərbaycan hərbçiləri ermənilər tərəfindən mülki əhali üçün ayrılmış dəhlizə, dinc insanların arasına girərək, ordan erməni qoşunlarına atəş açmışdılar. Koksa görə mülki insanlardan sipər kimi istifadə edən Azərbaycan silahlı qüvvələri ilə ermənilər arasında atışma nəticəsində çoxlu sayda mülki azərbaycanlı dünyasını dəyişmişdi. Bundan sonra K.Koksa görə ermənilər Azərbaycan hərbçilərinə ölmüş mülki əhalinin cəsədlərini

aparmağa şərait yaratmışdılar, amma Azərbaycan hərbçiləri bundan istifadə edib, cəsədlərə qarşı təhqiramiz hərəkətlər edilib, günahı ermənilərin üzərinə atmışlar.

ABŞ hökümətinin Azərbaycana qarşı qəbul etdiyi 907-ci düzəlişi və Rusiyanın Azərbaycana silah satışını dayandırmasını nümunə çəkən baronessa, Britaniya hökümətindən də oxşar təşəbbüslərlə çıxış etməyi xahiş edir.

Baronessa Koksun Azərbaycana qarşı irəli sürdüyü daha bir əsassız ittiham Bakının İrəvanı guya nüvə silahı ilə hədələməsi idi. Vurğulayaq ki, SSRİ ölkələri içərisində yalnız Rusiya, Ukrayna və Qazaxıstanda nüvə silahı var idi. Axırıncı iki ölkə müstəqillik əldə etdikdən sonra nüvə silahından imtina etmişdilər. Azərbaycanda nüvə silahının heç vaxtı olmaması nə Rusiyaya, nə də Mİ-5 və Mİ-6 kimi nüfuzlu kəşfiyyat orqanlarına malik Britaniya hökümətinə sirr deyildi. Baronessa Koksun bu iddiası məntiqsizliyi ilə yalnız Xocalı faciəsi ilə bağlı irəli sürdüyü ittihamla rəqabət apara bilər.

1992-ci il müzakirəsində Azərbaycana qarşı Baronessa Koksdan savayı lord Eyvberi də çıxış etmişdir. Çıxışından L. Eyvberi münaqişənin qurbanları qismində yalnız Ermənistan və Dağlıq Qarabağ ermənilərinin adını çəkir. Ermənistanın dağınıq iqtisadiyyata malik olması səbəbindən Dağlıq Qarabağdakı ermənilərə yardım edə bilmədiyini vurğuladı. Amma Ermənistan iqtisadiyyatının iflic vəziyyətə düşməsini L.Eyvberi onun işğalçı siyasəti ilə deyil, Azərbaycanın ona qarşı “blokada” təşkil etməsi ilə əlaqələndirir. Ermənistan prezidenti Ter-Petrosyana istinad edən lord, 3,5 milyonluq Ermənistan əhalisinin əksəriyyətinin yoxsulluq həddində yaşadığını və yaxın vaxtlarda xarici dünyanın köməyi olmadığı təqdirdə 30.000 nəfərin öləcəyini qeyd etmişdi. Cənab Eyvberinin Ermənistanın “acınacaqlı” vəziyyətini təsvir etməsinin iki məqsədi var idi. Bir məqsəd Britaniyanın Ermənistana yardım etməsi, digər məqsəd isə Londonun rəsmi Bakıya təzyiqin göstərilməsindən ibarət idi. Lord Eyvberi ermənilərin acınacaqlı vəziyyətdə olmasını fərqli çalarla təsvir etsə də, bir dəfə də olsa münaqişə səbəbindən Azərbaycanın bir milyondan artıq qaçqın və məcburi köçkününün ağır durumu haqqında söz açmamışdır. Bunun əvəzində lord Ermənistana böyük həcmdə humanitar yardımın göstərilməsini, Azərbaycana isə ümumiyyətlə heç bir yardımın göstərilməməsini tələb

edirdi. Lordlar Palatasının üzvü Azərbaycana qarşı qərəzli mövqeyinə belə bəraət qazandırırdı ki, guya Bakıya Türkiyə kifayət qədər yardım göstərir və əsl köməyə məhz Ermənistan ehtiyac duyur.

Ermənistana göndərilməsi vacib sayılan yardımın Türkiyə ərazisindən keçməsini lord Eyvberi məqsədəuyğun saymır. Bunun yerinə Britaniyadan Ermənistana göndəriləcək yardımın daha "təhlükəsiz" ərazidən keçməsini xahiş edir. Bu xahişi və ya marşrutun yolunu cənab Eyvberi arqumentləşdirmir. Digər tərəfdən qanunauyğun sual formalaşır ki, Ermənistana göndəriləcək yardım həqiqətən humanitar tərkibə malikdirsə niyə o Türkiyə ərazisində bir təhlükə ilə üzləşməlidir? Maraqlı məqam budur ki, lord Eyvberi Gürcüstanı da güvənli marşrut hesab etmir. Xatırladaq ki, Ermənistan yalnız Türkiyə, Azərbaycan, Gürcüstan və İranla sərhədə malik bir dövlətdir. Bu dörd ölkədən ilk üçü cənab Eyvberiyə görə etibarsız marşrutdur. İran isə o dövrdə Qərb ölkələri ilə siyasi ixtilaflara malik bir ölkə idi. Belə şəraitdə Ermənistana ünvanlanacaq yardımın hansı yolla çatacağı cavabsız qalan bir suala çevrilir. Humanitar yardımın təkcə Ermənitan sakinləri üçün deyil, həmçinin Sumqayıt və Bakı hadisələrindən sonra Azərbaycanı tərk etmiş 313 min insanın da ehtiyaclarını ödəyəcəyini deyən lord, bununla parlament həmkarlarına və hökümətə Ermənistana göndərilən humanitar yardımın az olduğunu və artırılmağa ehtiyac duyduğunu çatdırmaq istəyir.

Lord, Sovet qoşunlarının bu ərziləri tərk etdikdən sonra silahlarının əksəriyyətini Azərbaycana verdiyini qeyd edir. Gürcüstanın "Gurandi" qəzetinə istinadən edən cənab Eyvberi bildirirdi ki, 1992-ci il mayın 25-də Qafqazda Sovet qoşunlarından qalan silahların paylanması ilə bağlı saziş əksər silahların Azərbaycana çatmasına səbəb olmuşdur. Separatçı Qarabağın qondarma müdafiə naziri Sarkisyanın dediklərinə istinad edən lord bildirirdi ki, azərbaycanlılar Rusiyadan əlavə kütləvi silah-sursat, o cümlədən 130 SU24 qırıcı bombardmançı, T82 tankları və BMP3 yüngül tanklar almışdır. Qeyd edək ki, "Globalfirepower"-in 2022-ci il indeksinə görə Azərbaycanın hərbi hava qüvvələrində ümumilikdə 149 ədəd texnika vardır. Bu texnikanın 52,4%-ini (87 ədəd)

hərbi helikopterlər təşkil edir [33]. Bu səbəbdən Azərbaycanın 1992-ci ildə 130 ədəd SU24 qırıcı təyyarəsinə malik olması inandırıcı deyil.

Lord Eyvberi ilə baronessa Koksun münaqişəyə baxışlarında köklü fərqlər də mövcuddur. Məsələn, əgər baronessa Koks Rusiyanı “xeyirxah” vasitəçi kimi təqdim edirdisə, lord Eyvberi onu münaqişəni qızışdıran tərəf hesab edirdi. Cənab Eyvberi mövqeyini belə əsaslandırır ki, Rusiya silahlarını özü üçün dərhal təhdid yaratmayan ölkələrə satır. “Pasifizm” təəssüratını yaratmaq üçün L. Eyvberi MDB ölkələrində münaqişə ölkələrinə satılacaq silahı almaq və onu məhv etmək üçün BMT tərəfindən xüsusi fondun yaradılmasını təklif edirdi. L. Eyvberi Minsk qrupunun deyil, BMT-nin vasitəçiliyini zəruri sayır. BMT baş katibi Butros Qalinin sözlərinə istinad edən lord bildirir ki, BMT vaxtı ikən münaqişənin tənzimlənməsini regional təşkilatlara həvalə etmişdi və bildirmişdi ki, bu təşkilatlar mübahisəni həll edə bilməsə, Təhlükəsizlik Şurası vasitəçiliyi öz üzərinə götürəcəkdir. Lord Eyvberi regional təşkilatların effektivsizliyini qeyd edib, BMT TŞ-nin münaqişənin tənzimlənməsində aktivlik nümayiş etdirməsinin vaxtı gəldiyini bildirir.

1992-ci il müzakirəsində yepiskop Gilfordu xüsusi qeyd etmək lazımdır. Lordlar Palatasının üzvü olan lord yepiskop Gilford baronessa Koks və lord Eyvberinin bəyanatlarına münasibət bildirmişdir. Yepiskop Qarabağın dini münaqişə olmadığını xüsusi vurğulamışdı. Mövqeyinə dəstək üçün o Ümumdünya Kilsələr Şurasının nümayəndə heyətinin qənaətinə istinad edir. Ümumdünya Kilsələr Şurasının nümayəndə heyətinin üzvlərindən birinə əsasən, Dağlıq Qarabağ münaqişəsi dini münaqişə deyil, amma dini ölçülərə malikdir. Yepiskop lord Gilford münaqişənin tezliklə həll olunmadığı təqdirdə dinlərdən sui-istifadə hallarının olacağını ehtimal edirdi. Yepiskop lord münaqişəinin dini olmadığına dair iki mühüm arqument gətirir. Birinci arqument Azərbaycanın dünyəvi dövlət olması ilə əlaqədardır. İkinci arqument isə Ermənistan və Azərbaycan dini liderlərinin Ümumdünya Kilsələr Şurasının himayəsi altında və Avropa Kilsələri Konfransı çərçivəsində görüş keçirməyə razılıq verməsidir. Qeyd edək ki, baronessa Koks və lord Eyvberidən fərqli olaraq Yepiskop lord Qilford münaqişədən zərər

çəkən insan haqqında danışdıqda hər iki tərəfdən yaralıların, evsizlərin, acların olduğun bildirir. Daha sonra o BMT-nin bununla bağlı hesabatlarını təqdim edərək, Azərbaycan tərəfindən qaçqınların sayının Ermənistan tərəfindən daha çox olduğunu bildirmişdir.

1992-ci ildə Britaniya parlamentində erməni koksuna lord Eyvberi və baronessa Koksdan savayı qraf Şennon, Renokdan lord Pirson, baronessa Park və digərləri daxil idi. Ermənistanı dəstəkləmək, Azərbaycana isə təzyiq göstərmək məqsədilə ermənipərəst deputatlar fərqli təşəbbüslərlə çıxış edirdi. Məsələn, baronessa Park Britaniyanın sülhməramlı qismində münaqişəyə müdaxilə edə bilmədiyindən təəsüfləndiyini bildirib, "qədim xristian ölkəsi olan Ermənistanı" və Dağlıq Qarabağı "xilas etmək" üçün BMT-ni Azərbaycana təzyiq göstərməyə çağırmışdı [35].

Münaqişə ilə bağlı digər vacib parlament müzakirəsi 1997-ci ildə baş tutmuşdur. Bu müzakirədə söz götürən baronessa Koks, bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq hüququn iki vacib prinsipi olan öz müqəddəratını təyin etmə və ərazi bütövlüyü ziddiyyət vəziyyətinə gəlib. Çıxışının əvvəlində baronessa tarixi faktları qeyd etməklə bu iki prinsipi əlaqələndirəcəyini vəd edir. Ərazi bütövlüyü prinsipinin digər prinsip üzərində hüquqi üstünlüyünü diskreditə etmək üçün baronessa ermənilərin müxtəlif dövrlərdə türklər tərəfindən "soyqrıma" məruz qaldıqlarını və bu səbəbdən də Azərbaycanın suverenliyini qəbul edə bilməyəcəklərini qeyd edirdi. İşğala Azərbaycan məruz qalsa da, K.Koks çıxışında "yeddi səbəb" gətirərək təcavüzkarın məhz Azərbaycan olduğunu isbatlayacağını söz vermişdi. Amma gerçəklikdə bütün bu "səbəblər" əsassız və məntiqəzidd hökmlərdən savayı nəsə deyildi. Məsələn, xanım Koksun "sübutlarından" birinə əsasən, Azərbaycan müharibədə "Qrad" reaktiv raketlərindən birinci istifadə etdiyinə görə təcavüzkar tərəf hesab edilir.

Bütün bunlardan baronessa Koks belə qənaətə gəlir ki, öz müqəddəratını təyin etmə və ərazi bütovlüyü prinsipləri içərisində ATƏT ikinci prinsipi əsas tutmalıdır. ATƏT-in Lissabon samitində ərazi bütövlüyünə öz müqəddəratını təyinetmə üzərində üstünlük verməsi baronessa Koks tərəfindən təəssüflə qarşılanmışdır. Nitqində K.Koks bunu "tamamilə qeyri-münasib" qərar adlandırıb. Başqa sözlə desək, Baronessa Koks istər

BMT, istərsə də ATƏT çərçivəsində ermənilərin leyhinə qəbul edənləri ədalətli, əleyhinə qəbul edənləri isə ədalətsiz hesab edir [68].

İki il sonra Böyük Britaniya parlamentinin Xarici Əlaqələr üzrə Komitəsi Dağlıq Qarabağ daxil regional münaqişələri ətraflı müzakirə etmişdir. Bu müzakirələr parlamentin altıncı hesabatında dərc olunmuşdur. Hesabatda münaqişənin tarixi təhrif olunmuş formada təqdim edilib. Hesabata görə Dağlıq Qarabağ (ermənilərə görə) Stalin tərəfindən qeyri-qanuni yolla Azərbaycana verilib. Münaqişəyə impuls qismində Dağlıq Qarabağ Muxtar Vilayətinin Ali Sovetinin 1988-ci ildə Ermənistanın tərkibinə daxil olma qərarı qeyd edilir. Hesabat bu qərarın SSRİ tərəfindən rədd edildiyini bildirir. Müharibənin başlama səbəbi qismində isə Dağlıq Qarabağın 1991-ci ildə müstəqilliyini elan etməsi göstərilir. Hesabata əsasən, 1993-cü ildə Ermənistan və Qarabağın silahlı qüvvələri Dağlıq Qarabağı və Azərbaycanın digər əraziləri üzərində nəzarəti ələ keçirmişdilər. Əslində bununla Britaniya parlamenti Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu və Ermənistan tərəfindən işğal olunduğunu təsdiqləmiş olur. Hesabata görə ələ keçirilən ərazilərə “suverenliklə bağlı mübahisələrin olmadığı” ərazilər də daxil idi. Bununla da yeddi ətraf rayonun birbaşa adı çəkilməsə də onların Ermənistan tərəfindən işğal faktı da təsdiqlənir.

Hesabat Rusiyanın Ermənistanı hərbi cəhətdən gücləndirməsini regionda sabitliyi pozan amil kimi qiymətləndirir. Azərbaycanın Türkiyədən hərbi yardım alması ilə bağlı iddiaların olsa da, hesabatda təsdiqləyici hər hansı bir fakt və ya hökm irəli sürülmür. Hesabata əsasən, münaqişənin yekun həlli ilə bağlı geniş konsensusun mövcuddur. Bu konsensusa görə Azərbaycanın işğal altında qalan əraziləri Azərbaycanın nəzarətinə qaytarılmalıdır. Dağlıq Qarabağın statusuna aid hissələrdə bildirilir ki, Şuşa Dağlıq Qarabağa daxil olsa da əvvəllər əsasən azərbaycanlılar tərəfindən məskunlaşmışdır. Başqa sözlə desək ermənilərin Dağlıq Qarabağın bütün yerlərində demoqrafik üstünlüyə malik olduğu Britaniya parlamentinin hesabatı tərəfindən təkzib edilir. Hesabat münaqişənin həllinin hər iki tərəf üçün iqtisadi fayda gətirəcəyini bildirir. Hesabata görə münaqişə hərbi sahəyə və müharibə qurbanalarına böyük vəsaitlərin sərf edilməsini tələb edir. Digər

tərəfdən münaqişə səbəbindən sərhədlərin bağlı olması hər iki ölkənin iqtisadi imkanlarını məhdudlaşdırır. Hesabatın gəldiyi nəticəyə görə sərhədlərin bağlı olması Ermənistan üçün daha ağır fəsadlara gətirir. Beləki, Azərbaycandan fərqli olaraq Ermənistanın Türkiyə ilə də sərhədləri bağlıdır. Hesabat sərhədlərin açılmasının Türkiyə üçün müsbət tərəflərini sadalayır. Misal üçün qeyd edilir ki, Türkiyə iki ölkə arasında elektrik şəbəkəsinin açılmasından faydalana bilər. Hesabata görə münaqişənin olmayacağı təqdirdə Bakı-Tbilis-Ceyhan boru kəməri Ermənistandan və ya "Dağlıq Qarabağın" özündən keçə bilərdi.

Hesabatda bildirilir ki, həm Azərbaycan, həm də Ermənistan Böyük Britanyanı münaqişənin uzunmüddətli həllində vacib rol oynamalı aktor kimi nəzərdən keçirir. Tərəflərin mövqeyinin əsasında Kosovo presedenti çıxış edir. Amma tərəflər Kosovo hadisələrinə və Birləşmiş Krallığın münaqişədə tutmalı olduğu mövqeyə fərqli yanaşmalarla çıxış edirdilər. Hesabata görə Ermənistan Kosovodan sonra ərazi bütövlüyü prinsipinə yeni baxışın tələb olunduğunu düşünür və Britaniyanın Azərbaycana bu istiqamətdə təzyiq edəcəyinə ümid edir. Azərbaycan isə öz növbəsində Kosovoda təcavüzkarın ölkədən çıxarılması üçün güc tətbiqini vacib presedent hesab edib, onun Ermənistana münasibətdə tədbiq ediləcəyinə ümid edir [57].

Atəşkəs müddətində təşkil edilən vacib parlament müzakirələrindən biri 2014-cü ildə baş tutmuşdur. Bu parlament müzakirəsində Lordlar palatasının üzvü Stiven Paund xüsusi seçilmişdir**.** Baronessa Koks və digər ermənipərəst deputatlardan geri qalmaq istəməyən S.Paund nitqində Qarabağın Stalin tərəfindən Azərbaycana verilməsi, Qarabağ və Ermənistanın Azərbaycan tərəfindən blokadaya alınması, Qarabağın öz müstəqilliyinə səs vermək haqqında malik olması kimi əsassız iddiaları təkrar etmişdir. I Qarabağ müharibəsi zamanı qüvvələr nisbətini təhlil edən S.Paund iddia edir ki, Dağlıq Qarabağ və Ermənistanın birlikdə 170 tank və 360 ZTR-sı, Azərbaycanın isə 300 tank, eyni sayda ZTR və ən əsası 170 qırıcı təyyarəyəsi var idi. Bundan qabaqkı müzakirələrdə Azərbaycanın I Qarabağ müharibəsi zamanı 130 qırıcı təyyarəsinin olduğu iddia edilirdisə, 2014-cü ildə qırıcı təyyarələrin sayı birdən-birə 40 ədəd çoxaldı. Bu

Azərbaycan əleyhinə təşkil olunan təbliğat kampaniyasının faktlarla hesablaşmadığına ən sadə nümunələrdən biridir. S. Paund çıxışı zamanı Britaniyanın 2013-cü ildə Ermənistana 882 min funt sterlinq, Azərbaycana isə 1 milyon 335 min funt sterliq yardım etdiyini qeyd edib, Britaniyanın Azərbaycandakı iqtisadi maraqlarının belə məsələlərə təsir etməməli olduğunu bildirdi.

Əvvəlki illərlə müqayisədə 2014-cü ildə Britaniya parlamentində artıq ermənipərəst deputatlara cavab verə biləcək səviyyədə Azərbaycan koksu fəaliyyət göstərirdi. Azərbaycan koksuna üzv nümayəndələrdən biri Çarls Hendri, Steven Paundun sonuncu qeydinə cavab vermişdir. Çıxışının əvvəlində Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi olduğunu qeyd edən cənab Hendri, Stiven Paunda xitabən bildirmişdir ki, Azərbaycanla ticarət əlaqələri çox inkişaf edib. Ç.Hendriyə görə Krallıq BP və bu sektordakı digər şirkətlər vasitəsilə Azərbaycanda ən böyük xarici investor sayılır. Çarles Hendri sonda Azərbaycanın Britaniya iqtisadiyyatı üçün əhəmiyyətinin getdikcə daha da artdığını vurğulayıb, Stiven Paundun bundan sonra öz şərhlərində bunları nəzərə alacağına ümid etdiyini bildirdi. Ç.Hendri bununla həmkarını Britaniyanın milli maraqlarına zidd addım atmaqdan çəkindirmək istəmişdir.

Ç.Hendriyə cavabda S.Paund söhbəti digər istiqamətlərə aparıb, diqqəti 1915-ci il hadisələrinə və insan haqqları probleminə yönləndirdi. O Azərbaycan koksuna daxil deputat Hankokun adını çəkərək, onun 1915-ci il hadisələrini qondarma soyqırım adlandırdığına və Azərbaycandakı "demokratik" müxalifəti bəyənmədiyini hər dəfə dilə gətirdiyinə görə tənqid etdi. Həmçinin S.Paund cənab Hankonku daima prezident İlham Əliyevi müdafiə etdiyinə görə də kəskin tənqid etdi [67].

Parlamentin Xarici İşlər və Birlik Məsələləri üzrə Dövlət Katibinin müavini Mark Simmonds müzakirədə söz götürərək münaqişənin geosiyasi aspektlərinə diqqət çəkdi. Cənab Simmonds Çarles Hendrinin münaqişənin sülh yolu ilə həllinin həm münaqişə tərəflərinə, həm də Cənubi Qafqaza fayda gətirəcəyi fikrinin tam doğru olduğunu vurğuladı. Simmond Cənubi Qafqazın coğrafi cəhətdən strateji əhəmiyyətini qeyd edərək, Cənubi Qafqazın  Çini, Mərkəzi Asiyanı, Xəzər dənizini, Türkiyəni, Avropanı və Yaxın

Şərqi birləşdirən ticarət, nəqliyyat və enerji xəttlərinin kəsişmə nöqtəsində yerləşdiyini vurğuladı. Mark Simmonda görə məhz bu potensial münaqişənin həll edilməsini zəruri edir [67].

Aprel döyüşləri zamanı Böyük Britaniya diplomatik sferada xüsusi aktivlik nümayiş etdirməmişdir. Avropa naziri Devid Lidinqton 2 aprel tarixində Krallığın "Dağlıq Qarabağ ətrafında döyüşlərin artması və insan tələfatı"ndan çox narahat olduğunu qeyd etmişdir. D.Lidinqton bəyanatında hər iki tərəfi döyüş əməliyyatlarını dayandırmağa, təmkinli olmağa və Minsk Qrupu vasitəsilə münaqişənin sülh yolu ilə nizamlanma prosesində konstruktiv və intensiv şəkildə iştirak etməyə çağırmışdır [66]. Aprel döyüşləri bir daha 11 fevral tarixində Azərbaycan nümayəndə heyətinin Britaniyaya səfəri zamanı müzakirə edilmişdir. Qeyd edək ki, Britaniya rəsmiləri Dağlıq Qarabağla bərabər Azərbaycan diplomatik heyəti ilə Suriya, Ukrayna və s. münaqişələri müzakirə etmişdir. Müzakirələr zamanı D.Lindinqton Böyük Britaniya və Azərbaycanın güclü ikitərəfli əlaqələrinin olduğunu qeyd etmiş və aktual məsələləri müzakirə etməyə şərait yaradan "bu mühüm yeni forumun yaradılmasını" alqışladığını bəyan etmişdir [38].

2020-ci ilin iyulunda Ermənistan Tovuz istiqamətində Azərbaycana qarşı hərbi təxribat həyata keçirmişdir. Ermənistanın təxribatçı hərəkətləri 13 iyul 2020-ci il tarixində Britaniya parlamentində müzakirəyə çıxarılmışdır. Müzakirədə parlamentin 6 deputatı "Ermənistanın Azərbaycana qarşı təcavüzü" adlı bəyanat irəli sürmüşdülər. Bəyanata görə təcavüz aktı 1990-cı illərin əvvəllərində baş verən silahlı münaqişəni daha da kəskinləşdirir. Bəyanat Britaniya hökümətini Ermənistanın beynəlxalq hüququ, eləcə də 1994-cü ildə imzalanmış atəşkəs sazişini pozan son hərəkətlərini pisləməyə və "hazırkı hərbi əməliyyatın genişmiqyaslı müharibəyə çevrilməsinin qarşısını almaq üçün" Minsk Qrupunun hərtərəfli araşdırma həyata keçirmə niyyətini dəstəkləməyə çağırır. Bəyanat həmçinin Böyük Britaniya hökumətini BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş qətnamələrində qeyd olunduğu kimi Ermənistan hərbi qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb etməyə çağırır [37].

II Qarabağ müharibəsi Britaniya parlamentində bir neçə dəfə müzakirə edilmişdir. Belə müzakirələrdən biri müharibənin başlanmasından 3 gün sonra, 30 sentyabr tarixində baş tutmuşdur. Müzakirə çərçivəsində lord Kolinz Hayberi müharibənin gedişi ilə bağlı sual vermişdir. Lord Kolinz çıxışında ötən gün Metyu Brayza ilə danışdığını və onun sözlərinə görə ABŞ-ın münaqişədə vasitəçilik səylərinin azaldığını bildirdi. Belə şəraitdə lord Kolinz baronessa Saqdan Krallığın ABŞ Administrasiyasını Minsk Qrupunun bir hissəsi kimi səylərini yeniləməyə təşviq etmək üçün və regionda gərginliyin azaldılması üçün NATO çərçivəsində nə etdiyini soruşdu. Baronessa cavabında Krallığın ABŞ-la, o cümlədən ATƏT və BMT Təhlükəsizlik Şurası vasitəsilə sülh istiqamətində işi davam etdirəcəyini bildirdi. Lord Kolinzdən sonra baronessa Nortover suriyalı muzdlular məsələsinə, Lord Kempbel isə Ermənistana məxsus Su-25 təyyarəsinin Türkiyənin F16 təyyarəsi tərəfindən vurulması ilə bağlı iddialara münasibət bildirməyi xahiş etdi. Baronessa Saq cavabında hər iki məsələ ilə bağlı mediada çıxan xəbərləri təsdiq edə bilmədiyini qeyd etdi. Baronessa Anelay öz növbəsində Rusiyanın Minsk Qrupunda həmsədrliyi ilə onun Ermənistandakı geosiyasi maraqları arasında ziddiyyətin olması haqqında sual verdi. Öz növbəsində baronessa Saq Rusiyanın geosiyasi imperativləri ilə həmsədrliyi arasında ziddiyyətin olmadığını bildirib, münaqişənin sülh yolu ilə həllinin Rusiyanın maraqlarına cavab verdiyini qeyd etdi [70].

Paraqraf çərçivəsində aparılan araşdırma nəticəsində Böyük Britaniyanın vacib normativ-hüquqi sənədlərində Dağlıq Qarabağ münaqişəsinə dair aktual faktlar araşdırılmışdır. Müəyyən olunmuşdur ki, 90-cı illərin əvvəllərində Britaniya parlamentində Azərbaycana qarşı çox güclü erməni koksu fəaliyyət göstərirdi. Başda baronessa Karolina Koks olmaqla bir qrup parlamentarilər Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına fərqli yollarla bəraət qazandırmağa çalışırdılar. Bundan savayı parlamentdə aktivlik nümayiş etdirən erməni koksu Xocalı soyqırımında Ermənistanı yox, Azərbaycanı günahlandırmış və Azərbaycana qarşı Britaniya hökuməti tərəfindən fərqli sanksiyaları qəbul edilməsinə səy göstərmişlər. Azərbaycanda Heydər Əliyevin hakimiyyətə gəlməsi Britaniya ilə münasibətlərin normallaşdırılmasına müsbət

təsir göstərmişdir. Bunu parlamentin 2003-cü ilə qədər olan Dağlıq Qarabağla bağlı dinləmələrində müşahidə etmək olar. O dövrdə Britaniya parlamentində güclü Azərbaycan koksu hələ mövcud olmasa da, ölkəmizə qarşı təpkilər və əsassız ittihamların sayı nəzərəçarpan dərəcədə azalmışdır. İlham Əliyevin hakimiyyət illərində ölkələr arasında münasibətlər daha da yaxşı inkişaf etmişdir. Bu inkişafın göstəricisi Britaniya parlamentində erməni koksuna cavab verə biləcək səviyyədə Azərbaycan koksunun yaranmasıdır.

# II FƏSİL. BÖYÜK BRİTANİYANIN DÖVLƏT SİYASƏTİNƏ TƏSİR GÖSTƏRƏN QEYRİ-DÖVLƏT AKTORLARININ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ MÜNASİBƏTİ

## 2.1.Böyük Britaniyada nüfuzlu beyin mərkəzlərinin münaqişə ilə bağlı tədqiqatları

Qərb ölkələrində beyin mərkəzləri xarici siyasətinin formalaşmasına böyük təsir göstərir. Birləşmiş Krallıqda da bu baxımdan istisnalıq təşkil etmir. Böyük Britaniyada çoxlu sayda nüfuzlu beyin mərkəzləri var. Paraqrafda istinad etdiyimiz əksər mərkəzlərin baş ofisi Krallıqda yerləşir, digərlərinin isə baş ofisləri əsasən ABŞ-da yerləşsə də, filialları Britaniyada ərazisində fəaliyyət göstərir.

Münaqişənin mahiyyətinə beyin mərkəzləri müxtəlif yanaşmalar formalaşdırıblar. Belə yanaşmalardan birinə görə Dağlıq Qarabağ münaqişəsi daxil regional münaqişələr etno-ərazi xarakterli olub, öz müqəddəratını təyinetmə hüququndan irəli gələn separatizmə əsaslanır. Bu münaqişələr region dövlətlərinin sərhədləri daxilində baş versə də, mahiyyət baxımından beynəlxalq xarakterlidir. Böyük Britaniyanın elmi dairələri ümumən belə bir fikirlə razıdırlar ki, münaqişələrdə xarici faktor həlledici rol oynayır və hər bir separatçı dairənin xarici himayədarı vardır.

Başqa bir yanaşmaya görə Dağlıq Qarabağ münaqişəsi ilk növbədə milli kimlik yox, ərazi mübahisəsini özündə ehtiva edir. Bir qrup alimlər münaqişənin əsaslarını iqtisadi və mədəni faktorlarda axtarırlar. Lakin bu yanaşma Britaniyanın elm məkanının periferiyasında yerləşir və və bu istiqamətdə güclü tədqiqatlara malik deyil. Bu yanaşmanın inkişafına ilk növbədə təkzib edilməz tarixi faktlar mane olur. Dövlət sənədləri və statistika Qarabağın Azərbaycanın əksər regionlarından, o cümlədən Ermənistan SSR-dən iqtisadi və sosial rifah baxımından daha irəlidə olduğunu müəyyən edir.

Sosioloji yanaşma tərəfdarlarının fikrincə həm Ermənistan, həm də Azərbaycan Dağlıq Qarabağı milli kimliklərinin təməl daşı kimi qəbul edirlər. Azərbaycanın

Qarabağla bağlı kimliyi XVIII-XIX əsrlərdə Qarabağ xanlığı və onun ən görkəmli hökmdarları Pənahəli xan, İbrahim xan və bir sıra görkəmli şair və xanəndələrlə bağlıdır; ermənilər isə öz növbəsində Qarabağla milli kimliyini "məlikliklər" və çoxsaylı mədəniyyət abidələri ilə bağlayırlar [59].

Münaqişə ətrafında danışıqların qəlizliyini təhlil edən tədqiqatçılar bir neçə vacib məqama diqqət yetirirlər. Birinci məqam ermənilərin Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalacağı təqdirdə etnik təmizləmə ilə qarşılaşacağı haqqında fikirdir. Britaniya tədqiqatçılarına görə Ermənistan əsasən bu səbəbdən danışıqlarda Azərbaycan tərəfindən irəli sürülən ən yüksək muxtariyyət təklifi ilə razılaşmırlar. Digər tərəfdən ermənilər inanırlar ki, Dağlıq Qarabağ və 7 ətraf rayonun qaytarılmasının pantürkizm ideologiyasına əsaslanan nəhəng türk dövlətinin qurulmasına gətirəcəkdir. Bundan əlavə, ermənilərin təsəvvürünə görə, Dağlıq Qarabağ "heç vaxt müstəqil Azərbaycanın bir hissəsi olmayıb". Qeyd edək ki, bu siyasi mifi Ermənistanın sabiq prezidenti R. Koçaryan irəli sürmüşdür. Beyin mərkəzlərinin monitorinqi zamanı apardığımız müşahidələr göstərir ki, bu mifi heç bir britaniyalı alim ciddi qəbul etmir.

Britaniyalı tədqiqatçılara görə dinc tənzimlənməni əngəlləyən daha bir faktor Ermənistanın Dağlıq Qarabağdan savayı 7 ətraf rayonu da ələ keçirməsidir. Ələ keçirilən ərazilər Ermənistan tərəfindən danışıqlarda Dağlıq Qarabağın yekun statusu üzrə sövdələşmə rolunu oynayırdı. Digər tərəfdən Ermənistan ələ keçirilən əraziləri "təhlükəsizlik kəməri" bəhanəsi ilə saxlayaraq, Azərbaycana geri qaytarmaq imtina edirdi, daxili auditoriya üçün isə həmin rayonları "azad edilmiş ərazilər" adlandırırdı. Bu fakt Azərbaycan tərəfinə Ermənistanın regionda ekspansionist siyasət aparmasını vurğulamağa əsas verirdi. Həmçinin britaniya tədqiqatçıları tərəfindən aparılan müşahidələrə görə Robert Koçaryan Turkiyə və Azərbaycan həmrəyliyinə cavab olaraq Osmanlı imperiyasında 1915-ci il hadisələrini beynəlxalq arenada siyasiləşdirmək xəttini aparırdı. Nəticə etibarı ilə beyin mərkəzlərinin əksəriyyətinin fikrincə hər iki tərəf keçmişə müraciət edərək, münaqişə dövründə öz hərəkətlərinə haqq qazandırmağa çalışırlar [59].

Münaqişənin dinc yollarla tənzimlənmə qəlizliyini etiraf edən beyin mərkəzləri digər ölkələrin münaqişənin nizamlanması ilə bağlı həyata keçirtdikləri profilaktik tədbirləri nümunə çəkirlər. Belə nümunələrdən biri Berlindəki Xəzər Tədqiqatlar proqramıdır. Burada münaqişələrin həlli üzrə təlimlər həyata keçirilirdi. Merilend Universitetinin Beynəlxalq İnkişaf və Münaqişələrin İdarə Edilməsi Mərkəzi isə 1995-ci ildə Cənubi Qafqazın qaynar bölgələrinin iştirakçılarına dörd aylıq təlim proqramı təşkil etmişdir. 2001-ci ilin mayında İnkişaf və Sülh Fondu tərəfindən "Qafqazda sülh və stabillik: Dağlıq Qarabağ məsələsi" proqramı təşkil edilmişdir. Qafqaz Mediasına Dəstək Layihəsi isə 1997-2000-ci illər ərzində 200 iştirakçı üçün 12 konfrans və təlim təşkil etmişdir [59].

Bu təcrübədən ilhamlanan Britaniyanın "Çatam Haus" beyin mərkəzi Azərbaycan və Ermənistan siyasi ekspertləri arasında münaqişə ətrafında canlı və onlayn formatlı debatlar təşkil etmişdir. Ən yadda qalan debatlardan biri 2018-ci ilin 22 fevral tarixində baş tutmuşdur. Bu müzakirə münaqişə ətrafında mövcud populyar narrativlərə və vətəndaş cəmiyyətinin roluna həsr edilmişdir. Müzakirədə "Stepanakert Press Klubun" prezidenti, "Analitikon" nəşrinin baş redaktoru Qeqam Baqdarasyan, Gürcüstanın Humanitar Tədqiqatlar İctimai Assosiasiyasının müdiri Əvəz Həsənov, Media Təşəbbüsləri Mərkəzinin müdiri Nune Sarkisyan iştirak edirdilər. Tədbirin sədri və moderatoru "Çatam Haus"un Cənubi Qafqaz üzrə baş mütəxəssisi L. Broers idi [30]. 2018-ci ilin 23 aprel tarixində "Çatam Haus"da Stanislav Pritçin Rusiyanın Dağlıq Qarabağ münaqişəsində rolu haqqında tədbir təşkil etmişdir [28]. 2019-cu ildə L. Broers "Ermənistan-Azərbaycan rəqabətinin 30 ili: dinamika, problemlər və perspektivlər" adlı tədbir təşkil etmişdir. Tədbirdə iştirakçılar onilliklər boyu davam edən ərazi siyasəti, dəyişkən qüvvələr nisbəti və uğursuz vasitəçilik səylərinin münaqişəyə necə təsir göstərdiyini müzakirə ediblər [32]. 2020-ci ilin 18 fevral tarixində "Nümayiş otağı: Dairənin hissələri - Qarabağ münaqişəsinin tarixi" adlı tədbirdə Aİ-nın maliyyələşdirdiyi layihə çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında sənədli filmlər nümayiş etdirilmişdir [29]. Belə müzakirələrin təşkili II Qarabağ müharibəsindən sonra da davam etmişdir. 2020-ci ilin 2

dekabr tarixində Oksford Universitetindən doktor Leyla Əliyeva ilə San Dieqo Universitetinin Krok Sülh tədqiqatları məktəbinin dosenti Filip Gamagelyan yaranmış yeni konfiqurasiya, sülh və təhlükəsizlik perspektivləri haqqında debat təşkil etmişlər [26].

Sürix protokolları və Ermənistanla Türkiyə sərhədlərinin açılması perspektivləri beyin mərkəzlərinin xüsusi diqqətini cəlb etmişdir. Britaniyanın Strateji Tədqiqatlar və Analiz Mərkəzi Sürix protokollarının münaqişənin dinamikasına necə təsir göstərəcəyini araşdırmışdır. Müəllifin fikrincə Azərbaycan ümid edirdi ki, Türkiyə və Ermənistan arasında barışıq protokolları sülh prosesində mühüm irəliləyişə çevriləcək. Lakin Kişinyovda Azərbaycan və Ermənistan prezidentləri arasında keçirilən görüşdə bir neçə çətin məsələnin həlli yolunda heç bir irəliləyiş əldə olunmadı. Digər tərəfdən Ermənistan rəsmiləri Türkiyə ilə barışıq sazişinin Dağlıq Qarabağa heç bir təsir göstərməyəcəyində israr edirdilər. Strateji Tədqiqatlar və Analiz Mərkəzi həmçinin bu protokolların Türkiyə və Azərbaycan arasında münasibətlərə necə təsir göstərəcəyini diqqətində saxlayırdı. Beyin mərkəzi Azərbaycanın Strateji Araşdırmalar Mərkəzinin, Atlas Araşdırma Mərkəzinin və digər fiziki və hüquqi şəxslərinin mövqelərini təhlil edərək, belə qənaətə gəlmişdir ki, Sürix protokolları Azərbaycan və Türkiyə arasında münasibətlərə nəzərəçarpan bir zərər vurmayacaq [34].

Erməni diasporunun Böyük Britaniyada nüfuzu bir sıra beyin mərkəzlərinin Azərbaycana qarşı qərəzli və hətta düşmən mövqe bəsləməsinə səbəb olurdu. Bunu "Ermənistanın Avropa dostları" mərkəzinin nümunəsində daha aydın müşahidə etmək olar. Adı çəkilən mərkəz Azərbaycanı qonşu Ermənistanı müharibə ilə hədələməkdə, sürətlə silahlanmaqda, "1921-ci ildə Stalinin Azərbaycana verdiyi etnik erməni anklavı olan Dağlıq Qarabağda" atəşkəs rejimini pozmaqda, snayperləri cəbhə bölgəsindən çıxarmamaqda, ATƏT-in "atəşkəs xətti boyunca baş verə biləcək insidentlərin" müstəqil araşdırılmasına mane olmaqda ittiham edirdi. Bütün bu ittihamları ümumiləşdirən mərkəz belə qənaətə gəlir ki, "Bakı İrəvanla danışıqları sırf danışıqlar xatirinə aparır, belə ki, bu

görüşlərdə Azərbaycan iştirak etməsə, ona "anti-demokratik dövlət" damğası vurulacaq" [74].

Azərbaycana qərəzli münasibətlərdən biri Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzində (CSİS) formalaşmışdı. Tomas de Vaalın qələminə məxsus bu tədqiqat qaçqın və məcburi köçkünlərin diplomatik təsir vasitəsi kimi istifadə edilməsindən bəhs edir. Dağlıq Qarabağ münaqişəsinə həsr olunan tədbirdə iştirak edən T. de Vaal əldə edilən nəticələri ümimiləşdirərək bildirir ki, seminar iştirakçılarının əksəriyyətinin fikrincə Azərbaycan məcburi köçkün və qaçqınlardan güman ki, siyasi məqsədlər naminə istifadə edir. Azərbaycan məqsədyönlü şəkildə məcburi köçkünlərin sosial sistemə inteqrasiyasına mane olur ki, onları ermənilərin vəhşiliyinin əyani sübutları kimi əcnəbilərə təqdim etsin. Digər tərəfdən seminar iştirakçılarının fikrincə məcburi köçkünlərin tam inteqrasiyası Azərbaycan tərəfindən işğal faktı ilə barışmaq kimi qəbul edilir [106].

Digər mərkəzlər və tədqiqatçılar danışıqlar prosesinə daha obyektiv və ya neytral münasibət formalaşdırırdılar. Hətta məhşur "Qarabağ" kitabının müəllifi, britaniyalı jurnalist T. de Vaal da bəzi tədbirlərdə və tədqiqatlarda Azərbaycanı tənqid etdiyi halda, digərlərində ölkəmizin ədalətli mövqeyini dəstəkləyir. Apardığı tədqiqatların birində münaqişənin tənzimlənmə yolunu britaniyalı tədqiqatçı belə proqnoz edir: Ermənistanın işğal olunmuş ərazilərdən çıxması Azərbaycanın bütün məcburi köçkünlərinin geri qayıtmasına və onun ərazi bütövlüyünün de-yure tanınmasına imkan verəcək; Azərbaycan isə öz növbəsində Ermənistanla münasibətləri normallaşdırmaq və Dağlıq Qarabağa tolerantlıq göstərməklə Qarabağ ermənilərinə öz təhlükəsizliklərini və siyasi kimliyini muxtariyyət formasında qoruyub saxlamasına imkan verəcəkdir [108].

Dağlıq Qarabağ münaqişəsinin inkişafının vacib nöqtələrdən biri 2016-cı il aprel döyüşləri olmuşdur. Təccüblü deyil ki, Böyük Britaniya daxil dünyanın bir çox beyin mərkəzləri bu hadisəyə böyük diqqət ayırmışlar. Tədqiqatçıları bir neçə sual maraqlandırırdı ki, bunlardan birincisi dördgünlük müharibənin başlama səbəbləri ilə bağlı idi. Analitiklər müharibənin başlamasını fərqli səbəblərlə izah edirdilər. Xarici Əlaqələr üzrə Avropa Şurası beyin mərkəzinin mütəxəssisi Frederik Veslou döyüşlər

gedən zaman həm Ermənistan, həm də Azərbaycan prezidentlərinin Vaşinqtonda Nüvə Təhlükəsizliyi Sammitində iştirak etdiyinə vurğulayır. Döyüşlərin niyə həmin vaxtda başladığına dair müəllif bir neçə mülahizə irəli sürür. Bir nəzəriyyə ondan ibarətdir ki, Bakıda sərt xətt tərəfdarları Prezident İlham Əliyevin yoxluğundan istifadə edərək Azərbaycanın hərbi gücünü nümayiş etdirmək üçün məhdud hücum əməliyyatı təşkil etmişlər. Digərləri müharibənin başlama səbəblərini Azərbaycanın qarşılaşdığı iqtisadi və siyasi problemlərlə əlaqələndirirdilər. Daha bir fərziyyəyə görə döyüşlər dünyanın diqqətini Ukrayna və Suriya kimi böhranlardan Cənubi Qafqaza qaytarmaq məqsədilə təşkil edilmişdir. F. Veslou Azərbaycanın danışıqlarda irəliyişin olmaması səbəbindən hücuma keçməsi ideyası ilə razılaşmır. Müəllifə görə gərgin qarşıdurma əhali üçün rahat yayınma təmin edir, neft-qaz qiymətləri yüksək olanda Azərbaycan varlanır, neft qiymətləri aşağı olduqda isə elitalar millətçi və militarist kartından məharətlə istifadə edirlər [109]. Vurğulayaq ki, F. Veslou Ermənistanı aprel döyüşlərinin başlamasında azacıq da olsa günahkar hesab etmir. Məqalələrin birində F. Veslou bildirir ki, Ermənistan Dağlıq Qarabağa faktiki müstəqillik verdiyi üçün status-kvonu saxlamaqda daha maraqlıdır. Alimin fikrincə İrəvan hesab edir ki, istənilən razılaşma kompromislər tələb edəcək, bu isə qurumun indikindən daha az müstəqil olmasına gətirəcəkdir. Təhlildə fərdi faktorlara xüsusi diqqət ayrılır və Ermənistan prezidenti Serj Sarkisyan və yaxın ətrafının əsasən Dağlıq Qarabağdan olması qeyd edilir. Qarabağ müharibəsində iştirak etməsi səbəbindən S.Sarkisyan və onun ətrafı Dağlıq Qarabağın Azərbaycana qayıtma perspektivini emosional səviyyədə belə qəbul edə bilmirlər [109].

Aprel döyüşlərinə geosiyasi kontekstdə də nəzər yetirənlər az deyildi. Xarici Əlaqələr üzrə Avropa Şurasının Stepan Danielyan və Knar Babayan adlı erməni əsilli mütəxəssisləri aprel döyüşlərini Rusiyanın regiona sülhməramlı kontingent yerləşdirmək niyyəti ilə əlaqələndirirdilər. Müəlliflər Qarabağı de-fakto dövlət adlandırıb, onun Rusiyanın nəzarəti altında olmayan yeganə ərazi olduğunu diqqətə çatdırırdılar. Azərbaycanı dördgünlük müharibənin günahkarı adlandıran müəlliflər aprel döyüşlərinin regiona Rusiya sülhməramlılarının yerləşdirilmə ehtimalını artırdığını qeyd edirdilər.

Rusiyanın 2016-cı ildə regiona kontingent yerləşdirməməsi isə Azərbaycan və Ermənistanın yox, “Qarabağ”, ABŞ və Fransa kimi aktorların etirazı ilə izah edilir [42].

“Çatam Haus” da aprel döyüşlərinə öz tədqiqatlarında böyük yer ayırmışdır. 22 aprel tarixində mərkəzdə Zaur Şiriyevin aprel döyüşləri haqqında məqaləsi işıq üzü gördü. Məqalədə alim toqquşmanın Azərbaycanın qarşılaşdığı iqtisadi tənəzzül və korrupsiya qalmaqalları səbəblərindən başladığına dair ittihamları əsassız adlanıdırır. Əks arqumentlərlə alim sübut edir ki, əgər ittihamlar gerçək olsa idi hücum, ehtimal ki, yanvar ayında, qiymət artımına qarşı regional etirazlar fonunda və ya korrupsiya qalmaqallarının ortaya çıxmasından dərhal sonra baş verərdi. Cənab Şiriyevə görə daha çox ehtimal olunan ssenari budur ki, Ermənistanın önləyici zərbə həyata keçirəcəyini fevral ayında bəyan etməsi Bakı üçün strateji problem yaratdı. Belə bir siyasət Bakının Təmas Xətti boyunca imkanlarını məhdudlaşdıra bilərdi. Hadisələrin belə cərəyan etməsini qabaqlamaq, beynəlxalq vasitəçilərin diqqətini cəlb etmək və İrəvanı danışıqlar masası arxasında konstruktiv olmağa məcbur etmək üçün Azərbaycan “idarə olunan eskalasiya” həyata keçirmişdir. Politoloqun fikrincə Azərbaycanın məqsədi işğal altında olan əraziləri hərbi yolla azad etmək deyildi. Beləki, neft-qaz qiymətlərinin aşağı düşməsi bu sektorun inkişaf etdirilməsi məqsədilə xarici sərmayələrin cəlb edilməsini tələb edirdi. Genişmiqyaslı müharibələr isə xarici investorları yatırım etməkdən çəkindirir. Buna görə də müəllifə görə Azərbaycan tərəfinin məqsədləri Ermənistandan hərbi baxımından üstün olduğunu nümayiş etdirmək və İrəvanı danışıqlarda güzəştə getməyə məcbur etməkdən ibarət idi [92].

Aprel döyüşləri münaqişənin dinc yolla tənzimlənmə imkanlarını məhdudlaşdırsa da, digər istiqamətlərdə diplomatik aktivliyini şərtləndirdi. Bu kontekstdə mütəxəssislər Rusiyanın aktivliyinə xüsusi diqqət yetirirdilər. 2016-cı il 8 iyununda Xarici Əlaqələr üzrə Avropa Şurası Anar Vəliyevin məqaləsini dərc etdi. Məqaləyə görə Avropanın enerji təhlükəsizliyi üçün həyati-vacib dövlətə çevrilməyi hədəfləyən Bakı, Rusiyanın Avrasiya İqtisadi İttifaqı kimi layihələrinə bir əngəl kimi baxırdı. Bakının AİI-də maraqlı olmaması o cümlədən iqtisadi mənfəətlərin kifayət qədər cəlbedici olmaması ilə əsaslandırırlırdı.

Bununla belə, A. Vəliyevə görə son iki ildə Aİ ilə pisləşən münasibətlər, neftin qiymətinin aşağı düşməsi və Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyi Azərbaycanı Aİİ-yə münasibətini yenidən nəzərdən keçirtməyə məcbur edib. Bakı Aİİ-yə qoşulmaq istəyini rəsmi bəyan etməsə də, aprel döyüşlərindən sonra Rusiyanın təşəbbüslərinə qarşı öz mənfi ritorikasını xeyli azaltmışdır [105].

Böyük Britaniyanın beyin mərkəzlərini Gürcüstanın aprel döyüşlərindəki mövqeyi çox maraqlandırırdı. Britaniya mərkəzlərinin fikrincə Gürcüstanın əhəmiyyəti Türkiyə və Avropa bazarlarını enerji resursları ilə tranzit ölkə kimi təmin etməsindən, Ermənistan iqtisadiyyatı üçün həyat xəttini olmasından və Azərbaycan üçün mühüm nəqliyyat dəhliz olmasından ibarətdir. Aprelin 2-də ağır döyüşlər barədə ilk məlumatlar yayılanda və bunun adi güc nümayişindən daha ciddi olduğu artıq hamıya bəlli olanda, Gürcüstan neytral mövqe tutmağı üstün tutdu. Britaniya tədqiqatçılarının müşahidələrinə görə nə Xarici İşlər Nazirliyi, nə də hər hansı digər dövlət qurumu mövzu ilə bağlı rəsmi açıqlama vermədi. Xarici siyasət məsələlərində adətən açıq danışan prezident belə susmağa üstünlük verdi. Siyasətçilərdən ara-sıra şərhlər gəlsə də, onlar gərginliyin azaldılması üçün standart istəklərlə məhdudlaşırdı. Adı çəkilməyən bir gürcü eksperti beyin mərkəzinə bildirmişdir ki, ölkə rəhbərliyi yəqin ki, dördgünlük müharibə zamanı əlindən gələni – hərbi əməliyyatların sülh yolu ilə tezliklə sona çatması üçün dua edirdi [110].

Beyin mərkəzləri aprel döyüşlərinin "cilovlanmış" və eyni zamanda düşünülmüş şəkildə aparılmasına diqqət yetirmişlər. Onların müşahidələrinə görə hər iki tərəf müəyyən dərəcədə təmkin nümayiş etdirirdi: Azərbaycan ərazisindən keçən vacib neft və qaz kəmərləri və ya Dağlıq Qarabağdakı hava limanı hədəfə alınmırdı. Aprel döyüşləri haqqında formalaşan mövqelərdən birinə əsasən, tərəflərdən heç biri bütövlükdə müharibəyə başlamaqda və münaqişənin faktiki həllində maraqlı deyildi. Narahat doğuran məqam cəmiyyətlərdən heç birinin sülh sazişi üçün zəruri olan kompromisləri qəbul etməyə hazır olmaması idi. Daha bir diqqət cəlb edən məqam Minsk qrupu həmsədrlərindən heç birinin münaqişənin həlli üçün lazım olan siyasi iradə nümayiş etdirməməsi idi [109].

Aprel döyüşlərinin nəticələrindən danışdıqda britaniyalı tədqiqatçılar həll edilməmiş münaqişənin hər iki ölkəni Moskvadan asılı vəziyyətə saldığını qeyd edirlər. Rusiya ölkələri bir-birinə qarşı “oynada” bilir və bununla da bütün Cənubi Qafqaz regionuna ciddi təsir göstərir. Rusiyanın status-kvonu dəyişməkdə maraqlı olmaması onun hər iki ölkəyə silah satışında da özünü göstərir. Moskva silah satışı ilə tərəflər arasında hərbi “pariteti” saxlamağa çalışır. Nümunə kimi Rusiyanın baş naziri D. Medvedevin bu hadisədən sonra hər iki ölkəyə səfərini qeyd etmək olar. Səfər çərçivəsində baş nazir Rusiyanın iki ölkəyə silah satışını davam etdirəcəyini bəyan etdi. D. Medvedevə görə Rusiya silah satmağı dayandırsa onun yerini sadəcə başqa dövlətlər tutacaqdır. Bu bəyanat Britaniya mərkəzləri tərəfindən Rusiyanın regionda kənar qüvvələri görmək istəməməsi və silah satışında rəqiblər arzulamaması kimi izah edilir [109].

Ermənistanda 2018-ci il hakimiyyət dəyişikliyi Dağlıq Qarabağ münaqişəsinə yeni yanaşmanın formalaşmasına gətirdi. L. Broers 2019-cu il məqaləsində bildirir ki, “məxməri inqilab” Ermənistan üçün təhlükəsizlik və demokratiya haqqında düşüncələri sıfırladı. L. Broersə görə daxili siyasətdə iddialı islahatlara başlamağı planlaşdıran yeni hökümət anlamalıdır ki, bu proqramın nə dərəcədə uğurlu olması Azərbaycanla qurulan münasibətlərdən asılı olacaqdır. Alimin fikrincə Azərbaycanla eskalasiya Paşinyanın gündəmini təhdid edə, müxalifətdəki rəqiblərini isə əksinə gücləndirə bilər [46].

Britaniya alimlərinin xəbərdarlıqlarına rəğmən N. Paşinyan Azərbaycanla eskalasiya variantına üstünlük verdi. 2019-cu ildə Xarici Siyasət Mərkəzinin mütəxəssisi Denis Sammut Ermənistan, erməni diasporu və separatçıların Dağlıq Qarabağın beynəlxalq tanınmasının təmin edilməsi məqsədilə öz fəaliyyətlərini daha da aktivləşdirdiyini bildirirdi. Tədqiqatçı bu fəaliyyətin qurumun beynəlxalq tanınmasına və ya yekunda Ermənistanla birləşməsinə istiqamətləndiyinə dair müxtəlif fərziyyələrin mövcud olduğunu qeyd edirdi [89].

Britaniyalı alimlər hakimiyyət dəyişikliyindən sonra tərəflər arasında danışıqlar prosesinin inkişafına xüsusi diqqət ayırırdılar. 2019-cu ilin 16 yanvar tarixində Parisdə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü baş tutmuşdur. Bu son 9 ayda

baş tutan dördüncü görüş idi və tərəflər arasında müəyyən razılıq əldə edilmişdir. Bura razılığa təmas xətti boyunca yerləşdirilən silahlı qüvvələr arasında operativ kanalın qurulması daxil idi. Həmçinin görüş ərəfəsində atəşkəs pozuntularının sayı xeyli azalmışdır. Görüşdə tərəflər "əhalini sülhə hazırlamaq üçün konkret tədbirlərin görülməsinin zəruriliyinə dair razılığa gəldiklərini" bildirmişlər. Əldə edilən diplomatik uğurların əhəmiyyətini şərh edən L. Broers bildirir ki, Ermənistan və Azərbaycanın üz-üzə danışmasına böyük ehtiyac var idi. Dövlət rəsmiləri arasında danışıqların mütəmadi olması, cəmiyyətlər arasında əlaqənin də yaradılmasına şərait yaradır. İnsanlar arasındakı təmaslardakı məhdudiyyətlərin aradan qaldırılması, münaqişənin yenidən alovlanmasını qabaqlamaq baxımından vacibdir. Əgər Ermənistan və Azərbaycan həqiqətən də öz xalqlarını sülhə hazırlamaq istəyirlərsə, ilk addım olaraq xalqların bir-birləri ilə münasibətlərini bərpa etməlidirlər [46].

2020-ci ilin 27 sentyabrda başlamış II Qarabağ müharibəsi Britaniyan beyin mərkəzlərinin regiona diqqətini yenidən cəlb etdi. Beyin mərkəzlərinin demək olar ki, hamısını hücuma keçən tərəfin Azərbaycan olması haqqında əminlik birləşdirir. Lakin Azərbaycanın hansı səbəblərdən hücuma keçməsinə dair fikirlər müxtəlifdir. Müharibənin ən qızğın günlərində, 13 oktyabr tarixində Avropa Xarici Əlaqələr Şurası beyin mərkəzində müharibənin beynəlxalq aspektlərinə dair məqalə işıq üzü gördü. Məqalə Avropa ittifaqının münaqişə ilə bağlı mövqeyindən bəhs edirdi. 2005-ci ildə Avropa İttifaqı Qonşuluq Siyasətinin inkişafı çərçivəsində onlarla sektoru əhatə edən əməkdaşlıq fəaliyyət planını Ermənistan və Azərbaycandan imzalamağı xahiş etdi. Məsələni siyasiləşdirməmək üçün Aİ Dağlıq Qarabağ münaqişəni sənədlərdə xatırlamamağa çalışırdı. Lakin Azərbaycan Ermənistan tərəfindən işğal edilən 7 ətraf rayon üzərində özünün suverenliyinin Aİ tərəfindən tanınmasında  israr edirdi. Aİ-nın bunu etməkdən çəkinməsi Azərbaycanın qıcığı ilə qarşılandı. Məqalə müəllifi xatırlayır ki, həmin vaxtlar Bakıya səfərlərinin birində azərbaycanlı diplomat şikayət edirdi ki, "fəaliyyət planı üzrə danışıqlar zamanı Azərbaycan ilk dəfə Aİ-nin Dağlıq Qarabağa Moldova və Gürcüstandakı münaqişələrdən fərqli baxdığının şahidi oldu. Moldova və Gürcüstanın

ərazi bütövlüyü Aİ tərəfindən birmənalı olaraq dəstəkləndiyi halda, Azərbaycanın ərazi bütövlüyü sözdə dəstəklənsə də, eyni zamanda (Aİ rəsmiləri) region üçün heç bir statusu istisna etmədikləri də deyirlər [81]. Vurğulayaq ki, mərkəz müharibədən beş ay qabaq Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyünü açıq dəstəkləməməsinin Bakı ilə Brüssel arasında münasibətlərin korlanmasına və münaqişənin dinc yollarla tənzimlənmə imkanlarının məhdudlaşdırılmasına gətirəcəyini bildirmişdir [58]. Müşahidə etdiyimiz kimi bu təhlildə müharibənin başlama səbəbləri Aİ və digər beynəlxalq institutların passivliyi səbəbindən münaqişənin dinc yollarla tənzimlənmə yollarının daha qalmaması ilə izah edilir.

Müharibənin ən qızğın vaxtlarında Çatam Haus əməliyyatların inkişaf istiqamətləri haqqında təhlil dərc etmişdir. Təhlilə əsasən, yenilənmiş Ermənistan-Azərbaycan münaqişəsinin qısa və nəzarətli bir eskalasiya ilə bitə biləcəyinə dair gözləntiləri əsassızdır, beləki müharibə son on ildə yüksək texnologiyalı silahlanmaya sərf olunan böyük məbləğin dağıdıcı miqyasını nümayiş etdirir. Müasir silahların dağıdıcı təsriləri uzunmüddətli bir müharibənin gedəcəyini mümkün edir. Mərkəz Hadrutda gedən döyüşlər zamanı mülki ermənilərin ölməsini 2016-cı ilin 3 aprel tarixində Talış kəndində ölmüş mülki ermənilərlə müqayisə edir. Müəllif, II Qarabağ müharibəsini Qarabağ erməniləri üçün humanitar faciə kontekstində təqdim edir və “insan haqqlarının pozulmasını qabaqlamaq üçün” yeganə çıxış yolunu Qarabağın Azərbaycandan müalicəvi ayrılmasında olduğu qənaətinə gəlir [47].

Xüsusi diqqət müharibənin yekunlarına və imzalanan 10 noyabr razılaşmasına ayrılmışdır. Tədqiqatların birində bildirilir ki, atəşkəs bəyanatında Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağa bitişik və hazırda Azərbaycanın nəzarəti altında olan ərazilərdən çıxması qeyd edilib. Bakı bu bəyanatı belə şərh edir ki, erməni qoşunları, istər Ermənistanın olsun, istərsə də “de-fakto Dağlıq Qarabağ”ın olsun bu əraziləri tərk etməlidir. Amma britaniyalı tədqiqatçılara görə bəyanatın mətni bunu açıq demir və “de-fakto DQ liderləri” bəyanatın müvafiq bəndlərini ordularının orada qala biləcəyi kimi şərh edirlər.

Tədqiqatlarda Qarabağın humanitar faciəsi də qeyd edilir. Bəziləri bölgənin necə göründüyünü gözləriylə görmək üçün bölgəyə yollandılar. Dərc edilən məqalələrə görə 1994-cü ildən bəri Azərbaycanda Dağlıq Qarabağ və onun ətrafından birbaşa reportajlar çox az olduğundan dağıntıların səviyyəsi çoxlarını dəhşətə gətirib. Regiona səfər edən Böhran Qrupunun tədqiqatçısı 60 yaşlı məktəb müəllimi Şadiyyə Qəhrəmanova ilə Füzulidəki söhbətini belə xatırlayır: "Bu, mənim evimdir. Evimə baş çəkə biləcəyimi biləndə bura gəldim. Ancaq mən yalnız xarabalıqlar gördüm. Görmək üçün 26 il gözlədiyim bu deyildi". Digərləri isə dağıntılar altında öz evlərini tapa bilməyiblər.

Yaranmış yeni geosiyasi reallığı şərh edən müəlliflər bildirilər ki, yaxın dönəmdə Dağlıq Qarabağ üçün prespektivlər zəif görünür. Rusiya etnik ermənilərin yaşadığı ərazilərdə qazı yenidən işə sala bilər. Lakin Şuşa yaxınlığındakı su anbarından verilən su Azərbaycanın nəzarətində olduğundan ermənilərin yaşadıqları ərazilər üçün həmçinin su təchizatı ilə də bağlı yeni plan hazırlanmalıdır. Separatçıların vəziyyətini qəlizləşdirən daha bir faktor iqtisadi perspektivlərin olmamasıdır. Müharibədən əvvəl "de-fakto Dağlıq Qarabağın" büdcəsinin təxminən 40 faizi satış üçün Ermənistana daşınan mədən metallarından əldə edilirdi. Hal-hazırda Azərbaycan bu iqtisadi fəaliyyətə son qoymaq imkanı əldə etmişdir [62].

Böyük Britaniyada nüfuzlu beyin mərkəzlərinin xarici siyasət ilə bağlı qərarların qəbul edilməsinə və strategiyaların hazırlanmasına təsiri hissolunan dərəcədədir. Araşdırma müəyyən etmişdir ki, heç də əksər beyin mərkəzləri münaqişədə Azərbaycanın haqlı mövqeyini dəstəkləmirlər. Qatı ermənipərəst mövqelər və təhlillərlə çıxış edən müəllif və mərkəzlərlə müqayisədə Britaniyanın strateji araşdırmalar mərkəzlərində Azərbaycanı dəstəkləyən nadir tədqiqat işlərinin sayı daha azdır. Amma araşdırmaların əksəriyyəti münaqişə tərəflərinin heç birini dəstəkləmir və münaqişənin konkret detallarının təhlilinə diqqət yetirir. Beyin mərkəzləri Britaniyanın və münaqişə tərəflərinin kompetentli orqanları və siyasi elitası ilə yaxın əlaqədə olduğundan münaqişə ilə bağlı araşdırmalarda Azərbaycan elmi mənbələrində olmayan bir çox maraqlı faktlar aşkarlanmışdır.

## 2.2.Münaqişənin Böyük Britaniyanın nüfuzlu KİV-lərində işıqlandırılması

Böyük Britaniyanın kütləvi informasiya vasitələri ölkə və beynəlxalq səviyyədə ictimai fikrin formalaşmasına böyük təsir göstərir. Bu qəbildən Böyük Britaniyanın mətbuat, radio və televiziyasının münaqişə ilə bağlı mövqeyini təhlil etmək aktual və məqsədəuyğundur. Böyük Britaniyanın kütləvi informasiya vasitələrini təkcə Birləşmiş Krallığın əhalisi deyil, o cümlədən vacib siyasi qərarlar qəbul edən şəxslər və beynəlxalq ictimaiyyətin nəzərəçarpan hissəsi izləyir. Buna görə də Krallığın mediasının münaqişə ilə bağlı yanaşmasının təhlili Dağlıq Qarabağ münaqişəsinin dövlət və beynəlxalq səviyyədə qavranılmasına kömək edəcəkdir. Qeyd etməliyik ki, Britaniya mətbuatının nəzərəçarpan hissəsi oxuculara açıq giriş təqdim etmədiyinə görə paraqrafda yalnız əlçatılan nəşrlərin münaqişə ilə bağlı məqalələri təhlil edilmişdir.

Birləşmiş Krallığın fərqli kütləvi informasiya vasitələri Qarabağ münaqişəsi ilə bağlı çoxlu analitik yazı və verlişlər hazırlamışlar. I Qarabağ müharibəsi zamanı münaqişəni hərtərəfli təhlil edən, onu fərqli bucaqlardan işıqlandıran nəşrlər içərisində "Herald Skotland" və "İndependent" qəzetlərinin adlarını çəkmək vacibdir. Herald Skotland qəzeti Qarabağ münaqişəsi haqqında ilk məqaləsini 1989-cu ildə hazırlamışdır. Məqalə Qarabağda ermənilərin separatçılıq fəaliyyətindən və regionun Azərbaycan tərkibində qalmasına imkan verməməyə yönələn cəhdlərindən bəhs edir [93]. Bir neçə gün sonra nəşrdə Qarabağ münaqişəsi ilə bağlı digər məqalə dərc edildi. Bu məqalədə bildirilirdi ki, Sovet İttifaqı Qarabağın Azərbaycanın tərkibində qalmasını qərarlaşdırdığı halda ermənilər Kremlin direktivlərinə əhəmiyyət verməyərək regionun Ermənistana birləşdirilməsi üçün səsvermə keçirmişlər [36]. Herald Skotlandın münaqişə ilə bağlı məqalələrindən belə nəticə çıxartmaq olar ki, ermənilər sadəcə Azərbaycan miqyasında yox, Sovet İttifaqı səviyyəsində separatçı bir qüvvə kimi nəzərdən keçirilirdilər.

Əgər müharibəyə qədərki dövrdə ən aktiv Britaniya nəşri "Herald Skotland" idisə, I Qarabağ müharibəsi zamanı qarşıdurmanın işıqlandırılmasında "İndependent" nəşri

öndə idi. Qeyd edək ki, digər nəşrlərdən fərqli olaraq İndependent qəzeti müharibəni nisbətən daha obyektiv şərh edirdi. Müharibənin ilk aylarında Azərbaycan Ermənistana qarşı bir neçə uğurlu döyüş əməliyyatı həyata keçirmişdir. Bu əməliyyatların əhəmiyyətini şərh edən qəzet bildirirdi ki, döyüş meydanında olan uğursuzluqlar mühasirə vəziyyətinə düşmüş Ermənistanı münaqişəni dinc yolla tənzimləməyə məcbur edir. Qəzetin məlumatına görə bu məqsədlə Ermənistan prezidenti L.Ter-Petrosyan hətta erməni diasporunun qabaqcıl üzvlərini Ermənistandan deportasiya etmişdir [53]. Bu ideya İndependent nəşrinin digər məqalələrində inkişaf etdirilmişdir. 1992-ci il tarixli məqalələrin birində bildirilir ki, Ermənistanın qida, yanacaq və maliyyə cəhətdən vəziyyəti o qədər çətindir ki, prezident L. Ter-Petrosyan status məsələsini, yalnız Azərbaycanla sülh əldə etdikdən sonra qaldırmağı məqsədəuyğun sayır [79].

Buna baxmayaraq Ermənistanın döyüş meydanında əldə etdiyi uğurlar sülh danışıqlarının üstündən xətt çəkdi. Döyüş meydanında qüvvələr nisbətinin Ermənistanın xeyrinə dəyişməsi, beynəlxalq danışıqlarda dinc tənzimləmə variantını geriyə atdı. Bu səbəbdən atəşkəs müqaviləsinə qədər müddətdə Britaniya mətbuatı əsasən döyüş əməliyyatlarının taktiki gedişi haqqında xəbərlər və analitik yazılar paylaşırdı. I Qarabağ müharibəsinin ən qanlı hadisəsi Xocalı soyqırımıdır. Xocalı soyqırımını britaniyalı jurnalist Tomas de Vaal müəllifi olduğu "Qarabağ" kitabında ətraflı təhlil etmişdi. Britaniyalı jurnalist kitabında o cümlədən o vaxtlar erməni komandanı olan, Ermənistanın üçüncü prezidenti S.Sarkisyanın Xocalı soyqırımı ilə bağlı müsahibəsini təqdim edir. Tomas de Vaal kitabında xatırlayır ki, soyqırım barədə Sarkisyana sual verdikdə, axırıncı belə cavab vermişdi: "Xocalıya qədər azərbaycanlılar hesab edirdilər ki, bizimlə oyun oynaya bilərlər, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməzlər. Biz bu (stereotipi) qıra bildik" [17, s.201].

I Qarabağ müharibəsində Azərbaycan məğlub olsa da, Ermənistanı da tam qalib gəlmiş tərəf saymaq olmaz. Ermənistan taktiki üstünlük əldə etsə də strateji və uzunmüddətli perspektivdə məğlub oldu. 1997-ci ildə, yəni Azərbaycanın Birləşmiş Ştatlar, Böyük Britaniya və digər Avropa ölkələri ilə münasibətlərinin normallaşdığı və

neft faktorunun çəkisi artdığı vaxtda Britaniya mətbuatında genişhəcmli bir konseptual məqalə çıxdı. Məqalənin müəllifi Ermənistanın Azərbaycanla apardığı işğalçılıq siyasəti nəticəsində Xəzər dənizindən Qərbə daşınan enerji axınının gəlirlərindən kənarda qaldığını qeyd edirdi. Müəllifə görə Ermənistan prezidenti L.Ter-Petrosyan dövlətinin strateji məğlubiyyətə düçar olduğunu artıq dərk edir. Bununla belə məqaləyə görə Ermənistan cəmiyyətinin və siyasi elitasının Azərbaycana münasibəti o qədər neqativdir ki, hətta gələcək əməkdaşlıq layihələri naminə belə onunla kompromisə getməyə hazır deyil [83].

Ermənistan Azərbaycana qarşı təcavüzkar siyasətini atəşkəs müddətində də davam etdirirdi. İrəvan mütəmadi olaraq təmas xəttini pozur, Azərbaycan silahlı qüvvələrini fərqli silahlardan atəşə tuturdu. Atəşkəs müddətində baş verən ən güclü silahlı qarşıdurmalardan biri 2014-cü ildə baş vermişdir. Bu qarşıdurma zamanı müharibədən bəri ilk dəfə tank atəşlərindən istifadə edilmişdir. Bu toqquşmanı Qardian qəzeti öz məqaləsində şərh etmişdir. Qardian müharibə nəticəsində 30,000 insanın vəfat etdiyini, bir milyondan artıq insanın qaçqın və məcburi köçkün olmasını qeyd etsə də, oxucu üçün müharibə qurbanlarının və əksər qaçqınların azərbaycanlı olduğunu dəqiqləşdirmir və müharibədə kimin işğalçı, kimin isə qurban olması məsələlərinə aydınlıq gətirmir.

2014-cü il silahlı toqquşmasını təhlil edən nəşr məqalədə Azərbaycan və Ermənistan müdafiə nazirliklərinə istinad edir. Azərbaycan hər iki tərəfin itki verdiyini bildirsə də Qardiana görə Ermənistan itki vermədiyini iddia edir. Nəşrə görə Ermənistan tərəfi itki verdiklərini inkar etsələr də, müxtəlif məlumatlara görə toqquşma nəticəsində 5 erməni hərbçisi öldürülmüşdür. Belə məlumatlardan biri separatçı qurum tərəfindən verilmişdir. Qardian bildirir ki, separatçı rejimin qondarma müdafiə nazirliyinə görə toqquşma nəticəsində iki erməni hərbçisi həlak olmuşdu. Qardian sözügedən hadisələr ilə bağlı erməni analitik və separatçı qurumun qondarma "müdafiə nazirinin" kütləvi informasiya vasitələrinə verdikləri müsahibələrini məqaləsində dərc etmişdi. Nəşr RİA Novosti-yə istinadən bildirir ki, erməni analitik Sergey Minasyan müsahibəsində Azərbaycanın beynəlxalq ictimaiyyətin fikrinin münaqişəyə daha çox cəlb olunması üçün

bu "*təxribata*" əl atdığını deyir. Qondarma nazir Movses Akopyan isə hökumət televiziyasına müsahibəsində deyib ki, zorakılığın baş verməsinin səbəbi yeni təyin olunmuş müdafiə naziri Zakir Həsənovun "özünü sübut etmək" istəyi ilə bağlıdır [64].

2014-cü ildə erməni hərbi helikopterinin vurulması ilə başlayan güclü silahlı toqquşmanı Britaniyanın digər nüfuzlu nəşri olan "Deylimeyl" də işıqlandırmışdı. Nəşr hər iki tərəfin hadisə ilə bağlı mövqeyini məqalədə təqdim etmişdi. Separatçılar helikopterin sadəcə təlim uçuşu həyata keçirdiyini bildirdiyi halda, Azərbaycan tərəfi Rusiya istehsallı Mi-24 helikopterinin hücuma cəhd etdiyi zaman vurulduğunu qeyd edir. Müəllif məqalədə belə bir məqama diqqət yetirir ki, həm İrəvan, həm də Bakı helikopterin Ermənistana məxsus olduğunu, separatçı qurum isə onun Dağlıq Qarabağ özünümdüafiə qüvvələrinə məxsus olduğunu qeyd edir. Məqalədə diqqət yetirilən daha bir məqam hadisənin baş vermə zamanı ilə bağlıdır. Müəllif bildirir ki, toqquşmadan bir ay qabaq Azərbaycan və Ermənistan liderləri gərginliyi azaltmaq üçün Parisdə Fransa prezidenti Fransua Ollandla görüşmüşlər. Nəşr Ermənistan xarici işlər nazirliyinin bəyanatına istinad edərək bildirir ki. Bu görüşdə tərəflər gərginlik azaldılması istiqamətində razılıq əldə etsələr də, sonradan erməni helikopterinin vurulması regionda eskalasiyaya səbəb olub. Birbaşa ifadə olunmasa da məqalədə belə bir məntiqi xətt irəli sürülür ki, guya Azərbaycan Fransanın vasitəçiliyi ilə gərginliyin azaldılması üzrə razılığı birtərəfli sürətdə pozduğuna görə son toqquşmaya görə məsuliyyət saşıyır [39]. Bununla belə nəşrdə erməni helikopterinin Azərbaycanın işğal edilmiş ərazisində uçduğu və Azərbaycanın hava məkanında vurulduğu qeyd edilmir. Bu vacib faktın oxucunun diqqətinə çatdırılmaması isə onda hadisələr haqqında səhv təəsüratın yaranmasına səbəb ola bilər.

Hadisələrin oxucuya natamam çatdırılması Britaniyanın əksər kütləvi informasiya vasitələrinə xas bir xüsusiyyətdir. Məsələn Qardian nəşri Dağlıq Qarabağın beynəlxalq hüquqa görə Azərbaycana məxsus olduğunu bildirsə də, onu erməni anklavı adlandırır [40]. Bu səhvi əksər Britaniya nəşrləri təkrarlayır. Halbuki Qarabağın istər dağlıq, istər aran hissəsində azərbaycanlıların sayı müharibədən qabaq heç də az deyildi. Ətraf 7 rayon

və Dağlıq Qarabağda yerləşən Şuşada əsasən azərbaycanlılar məskunlaşmışdı. XX əsrin 80-cı illərin sonlarında Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilərin sayı azərbaycanlılardan çox olsa da, Qarabağı ümumilikdə götürdükdə azərbaycanlıların sayı erməniləri xeyli üstələyirdi. Bu səbəbdən Qarabağı erməni anklavı adlandırmaq hadisələri təhrif olunmuş formada oxucuya təqdim etmək deməkdir.

Münaqişənin ən qəliz məqamlarından biri aprel döyüşləri idi. 2016-cı ildə baş verən bu döyüşlər tarixə "dörgünlük müharibə" kimi daxil olub. "Müharibənin" növbəti günü, yəni 3 aprel tarixində "Deylimeyl" nəşri silahlı toqquşmaya dair genişhəcmli bir məqalə dərc etdi. Döyüşlərin miqyasını və intensivliyini düzgün qiymətləndirən nəşr, cari eskalasiyanı 1994-cü ildən bəri ən alovlu toqquşma adlandırmışdı. Məqalədə bir neçə təhlil xətti müşahidə edilməkdədir. Xəttlərdən biri münaqişənin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə prinsiplərinin toqquşmasını özündə ehtiva edirdi. Digər analitik xətt münaqişənin dini amillərinə diqqət yetirir. Müəllif ermənilərin xristian, azərbaycanlılar isə müsəlman olmasını bildirib, münaqişənin o cümlədən dini elementlərə də malik olduğunu qeyd edir. Vurğulayaq ki, Qardian nəşrindən fərqli olaraq "Deyli meyl" hadisələrə daha obyektiv bucaqdan yanaşır. Məsələn, adı çəkilən məqalədə Azərbaycan Müdafiə Nazirliyinin sözçüsü Vaqif Dərgahlı bildirir ki, Ermənistan gecə ərzində Azərbaycan mövqeləri, həmçinin mülki yaşayış məntəqələrini atəşə tutub. Nəşr Azərbaycan tərəfinin sözlərinə sübut qismində Azərbaycanın Qapanlı kəndində "Qrad" raketinin qalıqlarının şəkillərini sübut kimi göstərir. Daha bir analitik xətt toqquşmanın regional miqyasına həsr edilmişdir. Qarşıdurmanın Azərbaycan və separatçılar arasında başladığı bildirilsə də daha geniş miqyas ala biləcəyi təhlükəsindən bəhs edilir. Ermənistan Müdafiə nazirinin müavininin sözlərinə istinad edən nəşr bildirir ki, "Ermənistan "lazım gələrsə" Qarabağa qoşun yeritməyə hazır olacaq". Bununla bərabər nəşr Türkiyə və Azərbaycan arasında yaxın siyasi-hərbi əməkdaşlığa istinad edərək bu toqquşmada Türkiyənin Azərbaycanı dəstəklədiyini bildirir. Məqalədə aydın müşahidə edilən digər iki analitik xətt münaqişənin iqtisadi və humanitar aspektlərinə həsr edilir. Nəşr Türkiyənin Ermənistan ilə sərhədlərini bağlı olmasını qeyd edərək, həll olunmamış

münaqişənin Ermənistan iqtisadiyyatına zərbə vurduğunu qeyd edir. Toqquşmanın humanitar aspektləri Tərtərdə gülləbaran edilmiş avtomobillər və 12 yaşlı yaralı Gevorq Qriqoryanın şəkilləri ilə müşaiyət olunurdu [41].

Aprel döyüşlərinin başlama səbəbləri Britaniya mətbuatını çox maraqlandırırdı. 6 aprel tarixli məqaləsində "Deyli meyl" müharibənin başlama səbəblərinə dair tərəflərin versiyalarını təqdim etmişdir. Ermənistanın ABŞ-da səfiri Qriqor Hovanisyana görə Azərbaycan xalqın fikrini "sosial iğtişaş və narazılıqlardan" yayındırmaq üçün hücuma keçməyi qərarlaşdırmışdır. Öz növbəsində Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanova əsasən, Ermənistan Azərbaycan prezidenti İlham Əliyevin Vaşinqtona uğurlu səfərindən erməni cəmiyyətinin fikrini yayındırmaq üçün preventiv zərbə endirmək qərarına gəlmişlər [48]. Azərbaycanın Britaniyadakı səfiri Tahir Tağızadə də öz növbəsində Qardiana məktub ilə müraciət etmişdir. Azərbaycan səfirinin məktubu və ona ermənipərəst Britaniya siyasətçisinin münasibəti nəşr tərəfindən 8 aprel tarixində dərc edilmişdir. Qardiana ünvanladığı məktubda T. Tağızadə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində mövcudluğunu sülhə mane olan əsas faktor kimi göstərib. Səfir atəşkəs rejiminin pozulmasını və dörgünlük müharibəni lokal yox, beynəlxalq miqyasda nəzərdən keçirdib, bunun Avropanın sabitliyini təhdid edə bilən genişmiqyaslı hərbi əməliyyatlara çevrilə biləcəyini qeyd edir. Azərbaycan səfirinə görə bunu qabaqlamaq üçün beynəlxalq ictimaiyyət işğalçı Ermənistana qarşı öz təzyiqlərini artırmalıdır. Səfirin məktubunun ardınca nəşr Britaniyanın Lordlar Palatasının üzvü, erməni diasporuna yaxın siyasətçi sayılan Stiven Paundun məktubunu verir. S. Paund öz məktubunda bildirir ki, "nə Ermənistanın, nə də Dağlıq Qarabağın Azərbaycana münasibətdə heç bir ərazi ambisiyası yoxdur və bu əraziyə səfər edən hər kəs ən azı III əsrdən etibarən bölgədə ermənilərin mövcudluğunun təkzibolunmaz sübutlarını görəcək" [85]. Müşahidə etdiyimiz kimi S.Paund öz məktubunda Dağlıq Qarabağı Azərbaycandan ayrı ərazi kimi göstərməklə nəinki Azərbaycan qanunvericiliyinə və beynəlxalq hüquqa hörmətsizlik nümayiş etdirir, o cümlədən Dağlıq Qarabağın müstəqilliyini tanımayan Ermənistan və Böyük Britaniyanın rəsmi mövqeyinə də məhəl qoymur.

Britaniyanın rəsmi mövqeyi və qanunvericiliyinə zidd məktubun dərc edilməsinə icazə verən Qardiandan fərqli olaraq “Deyli meyl” nəşri bütün məqalələrində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu xüsusi vurğulayır. Separatçı ərazidə keçirilən qondarma seçkilərə həsr edilən belə yazılardan birində qəzet Dağlıq Qarabağın qondarma “suverenliyinin” heç bir ölkə tərəfindən tanınmadığını xüsusi vurğulayıb [49].

Aprel döyüşləri əvvəldən-axıra qədər Britaniya mətbuatı tərəfindən diqqətlə izlənilmişdi. Dördgünlük müharibə bitdikdən sonra nəşrlərin birində savaşın nəticələri və münaqişənin səbəbləri analitik məqalədə ümumiləşdirilmişdir. Nəşr münaqişənin qurbanlarından danışarkən ermənilərin Bakıdan, etnik azərbaycanlıların isə Qarabağdan qovulduğunu bildirir. Bununla belə qeyd edək ki, nəşr Ermənistandan 90-cı illərdə qovulan 300 mindən artıq etnik azərbaycanlıları münaqişə qurbanları sırasına aid etmir. Məqaləyə görə toqquşma davam etsə idi genişmiqyaslı müharibəyə, hətta Rusiya və Türkiyənin iştirak etdiyi böyük müharibəyə çevrilə bilərdi. Münaqişənin gələcək inkişafını proqnoz etməyə çalışan müəllif bildirir ki, Azərbaycanın neft gəlirlərindən əldə etdiyi vəsaitin Rusiyadan müasir silahların alınmasına xərclənilməsi münaqişənin hərbi həllini istisna etmir. Bu yanaşmaya dəstək qismində məqalədə Karneqi fondunun elmi işçisi, britaniyalı jurnalist Tomas de Vaalın təhlili yer alır. Tomas de Vaal münaqişənin coğrafiyasına toxunaraq bölgədə sülhməramlıların olmaması səbəbindən hətta aşağı intensivlikdə döyüşlərin belə genişmiqyaslı müharibəyə apara biləcəyini bildirir. Türkiyə tərəfindən Rusiya qırıcısının bir il qabaq vurulmasını qeyd edən britaniyalı ekspert Qarabağın Rusiya və Türkiyə arasında proksi müharibəyə gətirə biləcəyini də istisna etmir [107].

Dağlıq Qarabağ münaqişənin pik nöqtəsi II Qarabağ müharibəsinə təsadüf edir. İlk günündən artıq bəlli idi ki, bu 2014 və ya 2016-cı ildə olan silahlı toqquşmalardan daha geniş miqyas alacaqdır. Müharibəni birinci gündən sonuncu günə qədər Britaniyanın nüfuzlu mətbuatı yaxından izləmişdir. Müharibənin əvvəlində Qardian Dağlıq Qarabağı heç bir dövlət tərəfindən tanınmayan, amma Ermənistanın dəstəyi ilə müstəqil olan anklav

adlandırmışdı [97]. Öz növbəsində Azərbaycanın Britaniyadakı səfiri Tahir Tağızadə Qardianın Dağlıq Qarabağla bağlı yanlış mövqeyinə münasibətini əks etdirən məktub yollamışdır. Məktubunda Azərbaycan səfiri Qarabağı Ermənistan tərəfindən beynəlxalq hüququn kobud şəkildə pozularaq işğal edilmiş və etnik təmizləməyə məruz qalmış Azərbaycan ərazisi olduğunu qeyd edir. Qardian Qarabağla bağlı məqalələrində BMT Təhlükəsizlik Şurası qətnamələrini qeyd etməsə də, Tahir Tağızadə öz məktubunda Azərbaycanın bütün işğal olunmuş rayonlarından dərhal çıxarılmasını tələb edən dörd qətnaməni xüsusi vurğu edir [95].

Azərbaycan səfirinin qətnamələrin üzərinə vurğunun edilməsinin vacib siyasi-hüquqi əhəmiyyəti var. Azərbaycanın ərazi bütövlüyünü tanıyan və işğalçı qoşunların Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən dörd qətnamə, o cümlədən Böyük Britaniyanın səsi ilə qəbul edilmişdir. Hüquq elminə görə dövlətlərin tərəfdaş çıxdığı beynəlxalq müqavilələr ölkə səviyyəsində konstitusiya və referenduumdan sonra ən ali hüquqi qüvvəyə malik normahesab edilir. Bu normativ aktlar ölkənin qəbul etdiyi qanunlar və hökümət qərarlarından daha üstün qüvvəyə malikdir. Böyük Britaniyanın konstitusiyaya malik olmaması isə BMT Nizamnaməsini Krallığın əsasında duran qanunlar külliyatından sonra ən vacib sənədə çevirir. Başqa sözlə desək Böyük Britaniyanın Azərbaycanın ərazi bütövlüyü və işğalçı qoşunların Azərbaycan ərazilərindən çıxarılması leyhinə verdiyi səs münaqişə ilə bağlı bütün qanun layihələrinin, hökümət direktivlərinin və digər az əhəmiyyətli sənədlərin əsasında çıxış edir. Bu səbəbdən Azərbaycan səfiri bu qətnamələrə istinad edərək, Qardianı dolayısı yolla obyektiv və ədalətli jurnalistikaya dəvət etmiş olur.

Müharibənin ilk günlərində Britaniya mətbuatında subyektiv və hətta anti-Azərbaycan, anti-Türkiyə diskursu açıq seçilirdi. Belə diskurslardan biri silahlı qarşıdurmanın hansı səbəbdən başlaması ilə əlaqədar idi. Versiyalardan birinə görə müharibənin katalizatoru və əsas səbəbkarı Türkiyə idi. Türkiyənin Azərbaycana hərbi və diplomatik dəstək verdiyini qeyd edən müəlliflər, Azərbaycanın məhz bundan cəsarətlənərək Ermənistanla müharibəyə başlamağı qərarlaşdırdığını iddia edirlər. Bu

versiyaya görə Ankarının bu müharibədə Azərbaycanı dəstəkləməsinin arxasında Türkiyədəki böyük Azərbaycan icması və 1915-ci il hadisələri durur. Bundan savayı bu versiyaya əsasən Türkiyə prezidentinin beynəlxalq aləmdə artan gücü ölkə daxilində öz rolunu yaxşı oynadı və diqqəti iqtisadi çətinliklərdən xarici siyasətə tərəf apardı. Bu səbəbdən bəzi müəlliflərə görə Türkiyə 2020-ci ildə, pandemiya səbəbindən yaranan iqtisadi böhrandan xalqın fikrini yayındırmaq üçün Azərbaycanı dəstəkləməyi qərarlaşdırdı [97].

Bu diskursa başqa nümunə suriyalı döyüşçülər ilə bağlı uydurma idi. Müharibə ilə bağlı mətbuat yazılarında Türkiyənin Liviyadan suriyalı müxalif döyüşçüləri Dağlıq Qarabağa göndərməsi ilə bağlı iddialar yer almışdı [98]. Britaniya mətbuatı bildirirdi ki, guya türk şirkətləri min suriyalı muzdlu döyüşçünü gizli yolla Azərbaycana, ordan isə Qarabağa göndərmişdir [65]. Bununla belə Britaniya mətbuatı bu versiyanı yaymaqla bu muzdluların kimliyi, hansı yolla Azərbaycana gətirildiyi, Azərbaycan silahlı qüvvələri ilə heç vaxtı təlim keçmədiklərinə görə necə koordinasiyalı fəaliyyət göstərə bilmələri, min nəfərdən ibarət dəstənin 100,000-lik nizamlı orduya nə dərəcədə fayda verə biləcəyi kimi qanunauyğun suallara aydınlıq gətirmir.

Münaqişədə Rusiyanın mövqeyinə diqqət ayıran mətbuat bildirir ki, Rusiya bir tərəfdən Ermənistan ilə hərbi-siyasi ittifaqa malikdir, digər tərəfdən isə “Bakının hakim elitası ilə əlaqə saxlayır və hər iki tərəfə silah satır” [65]. Bundan savayı Azərbaycanın əsas müttəfiqi Türkiyənin Rusiya ilə münasibətləri 2016-cı il ilə müqayisədə çox yaxşı idi. Britaniya mətbuatı müharibə ilə bağlı təhlillərinin birində İstanbulda yerləşən EDAM beyin mərkəzinin sədri Sinan Ülgenin sözlərinə istinad edir: “Türkiyə-Rusiya münasibətlərinin maraqlı tərəfi ondan ibarətdir ki, iki ölkə bir çox məsələlərdə aydın fikir ayrılıqlarına malik olsalar da, heç olmasa ortaq dil tapmağı bacarırlar. Hər əlavə problemlə birlikdə bu, daha da çətinləşir” [65]. Rusiya və Türkiyə “ortaq dil” tapa bilsələr də, mətbuatda nümayiş olunan yanaşmalardan birinə əsasən, Rusiya bir tərəfdən uzunmüddətli perspektivdə Şimali Qafqazda sabitliyi poza biləcək problemə malik olmaq, digər tərəfdən isə Türkiyəni “öz həyətində” görmək istəmir [97].

Britaniya mətbuatı müharibə vaxtı beynəlxalq vasitəçilərin yardımı ilə əldə olunan üç atəşkəs rejiminin dərhal pozulması faktına xüsusi diqqət yetirmişdir. Rusiyanın vasitəçiliyi ilə aparılan danışıqlar oktyabrın 10-dan humanitar atəşkəs haqqında razılaşmaya gətirib çıxarsa da, o, tezliklə pozulmuşdur. Rusiyanın vasitəçiliyi ilə əldə edilən ikinci atəşkəs də heç bir xeyir vermədi. ABŞ-ın vasitəçiliyi ilə Vaşinqtonda ABŞ dövlət katibi Mayk Pompeo ilə Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında ayrı-ayrılıqda danışıqlardan sonra razılaşdırılan atəşkəs növbəti gün yerli vaxtla səhər saat 8-də qüvvəyə mindikdən bir neçə saat sonra pozulmuşdur [72].

II Qarabağ müharibəsi zamanı Britaniya mediası humanitar məsələləri xüsusi diqqətdə saxlayırdı. Məqalələrin birinə görə Azərbaycan silahlı qüvvələri "Dağlıq Qarabağın paytaxtı Xankəndidə" yaşayış məntəqələrinə yüzlərlə bomba və digər sursatlardan zərbələr endirmişlər. Məqalələrdə nadir hallarda Ermənistanın da təmas xəttindən uzaq mülki Azərbaycan ərazilərinə zərbə endirməsi öz əksini tapırdı. Belə məqalələrdən birində Azərbaycan prezidentinin köməkçisi Hikmət Hacıvevin tvitinə istinad edilərək Ermənistanın Yevlax rayonunun yaxınlığında Bakı-Tbilisi-Ceyhan boru kəmərinə kaset raketi atması qeyd edilir. Amma məqalədə bildirilirdi ki, Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ittihamları media və insan haqqları üzrə QHT-lər təsdiqlədiyi halda, Azərbaycanın Ermənistana qarşı sürdüyü analoji ittihamlara dair müstəqil bir şahidlik yoxdur. Əksinə, Qardian kimi nəşrlər görə kassetli sursatların istifadəsi indiyədək əsasən Rusiya istehsalı olan BM-30 Smerç reaktiv yaylım atəşi sistemləri də daxil olmaqla, "azərbaycanlıların arsenalı tərəfindən bombardmana məruz qalan" Xankəndidə qeydə alınıb. Ermənistanın qurban, Azərbaycanın isə təcavüzkar obrazını gücləndirmək üçün Qardian "aprel döyüşləri" zamanı da Azərbaycanın Dağlıq Qarabağda kasset bombalarından istifadə etdiyini bildirib [44].

Müharibə 10 noyabr üçtərəfli razılaşmanın imzalanması ilə yekunlaşdı. Əldə edilən razılaşmanı şərh edən mətbuat Minsk qrupunun müharibənin sona çatması ilə bağlı danışıqlarda az rol oynadığını bildirmişdir. Minsk qrupunun rolunu araşdıran mətbuat yazıların birində ekspert Lukyanovun təhlilini müraciət edir. Lukyanova görə Rusiyanın

vasitəçiliyi ilə Dağlıq Qarabağda atəşkəs razılaşması həm Moskvanı, həm də Ankaranı Cənubi Qafqazda “yeni krallar kimi yerini gücləndirəcək”. Lukyanov Türkiyəni “tənliyin vacib hissəsi” adlandıraraq, “Minsk qrupunun artıq mövcud olmadığı” qeyd edir [88]. Rusiyanın üçtərəfli razılaşmanın əldə edilməsində və onun icrasında rolu xüsusi qeyd edilir. Məsələn, razılaşmadan sonra Ermənistanda baş qaldıran xalq etirazlarını şərh edən nəşrlər Rusiyanın razılaşmada imzasının olduğuna işarə edib, bəyanatın icra ediləcəyini bildirirdilər. Ermənistanın bəyanatı icra etmək boyun qaçırma ehtimalına isə adətən Rusiya prezidentinin sözləri, yəni “intihar”a aparan davranış ilə cavab verirdilər [82]. Bununla belə Britaniya mətbuatına görə Qərbin məsələyə nəzərəçarpan dərəcədə diqqət ayırmaması Ermənistan və Azərbaycan arasında təhlükəsizlik təminatlarını yenidən cızır [88].

Britaniya mətbuatını Rusiya sülhməramlılarının Qarabağa daxil olması da çox maraqlandırırdı. Bəzi nəşrlər yeni atəşkəs razılaşmasına əsasən, Rusiya sülhməramlılarının ən azı beş il Qarabağda qalacağına görə Moskvanın bölgədəki hərbi izini genişləndirəcəyini düşünürdülər [71]. Digərləri Cənubi Qafqaz üzrə britaniya eksperti L. Broersin mövqeyini təkrarlayaraq rus sülhməramlılarının “müstəmləkəçi qüvvə” kimi qəbul edilə biləcəyini qeyd edirdilər [88].

II Qarabağ müharibəsinin Azərbaycanın qələbəsi ilə yekunlaşması Britaniyanın publisistik mətbuatındakı diskursun da dəyişməsinə təsir göstərdi. Məsələn, ermənipərəstliyi ilə seçilən Qardian nəşri 20 noyabr tarixli məqaləsində Ağdamın 1993-cü ildən “erməni separatçılarının nəzarəti altında” olan ərazi olduğunu və postsovet müharibəsindən əvvəl buradan 130 min azərbaycanlının “öz yurdlarından didərgin” düşdüyünü qeyd edir [87].

Kütləvi informasiya vasitələrinə o cümlədən radio və televiziya kanalları da daxildir. Britaniyada Qarabağ münaqişəsi ilə yaxından maraqlanan, onu uzun illər təhlil edən əsas radio-televiziya şirkəti BBC olmuşdur. BBC hətta Dağlıq Qarabağ münaqişəsinə dair 3 hissəli “Dairənin hissələri” adlı sənədli film də çəkmişdir. Bu sənədli film “Müharibəyə aparan yol”, “Müharibə” və “Sülh axtarışlarında” adlanan 3 hissədən

ibarətdir. Film Avropa İttifaqının maliyyələşməsi ilə Azərbaycan və Ermənistan müstəqil ekspert və jurnalistlərinin köməyi sayəsində 9 ilə çəkilmişdir. Filmdə göstərilən kadrlar Ermənistan, Azərbaycan və separatçı regionda çəkilmişdir. Filmin çəkilməsinə 300,000 avro məbləğində büdcə ayrılmışdır. Filmə "Eurasianet" nəşrinin Qafqaz şöbəsinin rəhbəri, amerikalı ekspert Coşua Kuçera, qarabağlı siyasi şərhçi Tiqran Qriqoryan, Çatam Haus beyin mərkəzinin aparıcı elmi işçisi L. Broers və digərləri yüksək qiymət versələr də, Azərbaycanda film kəskin tənqid ilə qarşılaşmışdı. Azərbaycan prezidentinin köməkçisi H.Hacıyev filmi "tipik erməni təbliğatı" adlandırmışdır [1].

II Qarabağ müharibəsindən bir neçə ay sonra BBC "Dağlıq Qarabağ: müharibədən sonrakı həyat" adlı sənədli film hazırlamışdır. Sənədli filmdə təmas xəttinin hər iki tərəfində yaşayan insanların müharibədən bir neçə ay sonrakı təəsüratları əks olunur. Filmdə satıcı, taksi sürücüsü, təqaüdçü və digər mülki şəxslərin həyatları və Qarabağla bağlı fikirləri təsvir edilir [18].

BBC öz müsahibələri ilə çox məşhurdur. Müharibədən qabaq BBC "Hard Talk" proqramı Ermənistanın baş naziri N.Paşinyandan müsahibə götürmüşdür. Müsahibədə jurnalist Stiven Sakur Paşinyanın Azərbaycanın ünvanına səsləndirdiyi təxribatçı bəyanatlarına, Azərbaycan silahlı qüvvələri və mövqelərinə qarşı hücumlarına, iqtisadi və səhiyyə sferasındakı uğursuzluqlarına dair suallar vermişdir [27]. Suallara cavab verməkdə çətinlik çəkən N. Paşinyan sonradan Ermənistan və beynəlxalq səviyyədə güclü qınaq obyektinə çevrilmişdir.

Müharibə müddətində, üçtərəfli razılaşma imzalanmamışdan bir gün qabaq BBC Azərbaycan prezidentindən [24], bəyanat imzalanandan 7 ay sonra isə Ermənistanın üçüncü prezidenti S.Sarkisyandan müsahibə götürmüşdür. Azərbaycan prezidenti ilə müsahibə zamanı müxbiri əsasən hərbi əməliyyatlar və Azərbaycanın yaxın gələcəyə dair planları ilə maraqlandırırdısa, S.Sarkisyandan alınan müsahibə zamanı suallar əsasən Ermənistanda baş qaldıran xalq etirazları və eks-prezidentin əldə edilən razılaşmaya mövqeyinə aid idi. Müsahibə müddətində S.Sarkisyan öz dövrü ilə N.Paşinyan dövrünü fərqli sferalarda, o cümlədən iqtisadi sferada da müqayisə edirdi. Sarkisyan onun

hakimiyyət illərində ermənistan iqtisadiyyatının dünya iqtisadiyyatının artım templərindən daha tez böyüdüyünü, orta məvacibin 3 dəfə, pensiyanın isə 4 dəfə artdığını bildirmişdi. Amma müsahibənin dərc olunmuş versiyasında redaksiya Ermənistanın statistika komitəsinə istinad edərək, o dövrdə maaşların cəmi 2 dəfə artdığını dəqiqləşdirmişdi. Bundan savayı müsahibə zamanı müxbir Sarkisyanın iqtisadi "nailiyyətlər" haqqında uydurmalarını ifşa etmək üçün ona Ermənistanın "çiçəkləndiyi dövrdə" hansı səbəbdən minlərlə erməninin "Rusiyaya yol tikməyə getməsi" barəsində sual vermişdi [21].

Müharibədən sonra BBC 1991-1997-ci illərdə birinci prezident L.Ter-Petrosyanın müşaviri olmuş J. Liparityandan müsahibə götürmüşdür. Müsahibədə sabiq müşavir Ermənistanın hansı səbəbdən müharibədə məğlub olması, birinci prezidentin həyata keçirtdiyi siyasi kursla, sonrakı liderlərin rəhbər tutduqları siyasi kurs arasında fərqin nədən ibarət olması, beynəlxalq ictimaiyyətin bu illər hansı mövqeədən çıxış etməsi və Qarabağın gələcək taleyinə dair baxış və təhlillərini bölüşmüşdür [20].

Tədqiqat Böyük Britaniyanın nüfuzlu kütləvi informasiya vasitələrinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təhlillərini sintez etməyə imkan verdi. Araşdırma I Qarabağ müharibəsinin və atəşkəs illərinin vacib detallarını Britaniya KİV-dən tapmağa imkan verdi. Bundan savayı aparılan müşahidələr göstərir ki, fərqli mətbuat orqanları münaqişəyə fərqli yanaşma nümayiş etdirirlər. Məsələn, "Qardian" nəşri Azərbaycana qarşı qərəzli məqalələri ilə seçilmişdir. Qardiandan fərqli olaraq gündəlik "Deyli meyl" qəzeti atəşkəs illərini daha obyektiv şərh edirdi. İndependent qəzeti I Qarabağ müharibəsini məlumat baxımından obyektiv, analiz baxımından isə lazımı dərəcədə keyfiyyətli həyata keçirirdi. Digər nəşrlər bu iki qütb arasında aralıq mövqe nümayiş etdirirdilər. Britaniya mətbuatından fərqli olaraq BBC tele-radio şirkəti hadisələri bəzi hallarda subyektiv, bəzi hallarda isə obyektiv işıqlandırırdı.

# III FƏSİL. BÖYÜK BRİTANİYANIN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ MÜNASİBƏTDƏ DÖVLƏT SİYASƏTİNİN İKİTƏRƏFLİ VƏ ÇOXTƏRƏFLİ FORMATI

## 3.1.Böyük Britaniyanin münaqişə tərəfləri ilə ikitərəfli münasibətlərində Dağlıq Qarabağ münaqişəsi faktoru

Dağlıq Qarabağ Böyük Britaniyanın Cənubi Qafqaz siyasətinə təsir göstərən aparıcı faktorlardan biridir. Britaniya hökümətinin Azərbaycanla bağlı son yenilənmiş məlumat təhlilində Dağlıq Qarabağ məsələsi ardıcıllıq baxımından ən qabaqda gedən faktlar sırasında olub. Azərbaycanı Cənubi Qafqazın ən böyük və ən inkişaf etmiş ölkəsi adlandırandan, əhalisinin fərqli etnik qruplardan ibarət 10 milyon, ərazisinin isə Şotlandiya ilə eyni ölçüdə olduğu vurğulandıqdan sonra Qarabağ məsələsi qeyd edilir. Təhlil I Qarabağ müharibəsindən söz açıb, müharibə nəticəsində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunduğunu, həmçinin 750 min-ə yaxın əhalinin məcburi köçkün vəziyyətinə düşməsini təsdiqləyir [60].

Münaqişə uzun illər Böyük Britaniyanın həm Azərbaycan, həm də Ermənistan ilə ikitərəfli münasibətlərinə nəzərəçarpan təsir göstərmişdir. Hətta postmünaqişə dövründə belə Qarabağ məsələsi Krallığın region ilə bağlı dövlət siyasətinin aparıcı elementlərindən birini təşkil edir. Bu faktorun Birləşmiş Krallığın Azərbaycan və Ermənistan ilə münasibətlərin təkamülünə necə təsir göstərdiyini araşdırmaq üçün Britaniya rəsmilərinin son 10 ildə münaqişə ilə bağlı verdiyi bəyanatlarını təhlil etmək vacibdir.

Retrospektiv analizi 2013-cü ildən başlamağı məqsədəuyğun sayırıq. 2013-cü ildə Böyük Britaniyada mühafizəkarlar və liberal-demokratların koalisiya hökuməti noyabrın 19-da Vyanada Ermənistan və Azərbaycan liderləri arasında baş tutan görüş haqqında bəyanat vermişdilər. Bəyanatda münaqişə tərəfləri arasında görüşün Britaniya hökuməti tərəfindən alqışlandığı bildirilir. Hökümət bu görüşün liderlər arasında müntəzəm və məzmunlu müzakirələrin yenidən başlaması istiqamətində müsbət addım olduğunu qeyd

edir. Birləşmiş Krallıq bəyanatında iki ölkə prezidentlərini Vyana görüşünə əsaslanmağa və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və uzunmüddətli həll istiqamətində fəal işləməyə çağırdığını bildirir [83]. Bu bəyanatdan və ümumiyyətlə atəşkəsin əldə edildiyi ildən 2013-cü ilə qədər Böyük Britaniyanın münaqişə tərəfləri ilə bağlı dövlət siyasətindən belə nəticə çıxartmaq olar ki, Birləşmiş Krallıq formal səviyyədə Azərbaycan və Ermənistana münasibətdə neytral mövqe nümayiş etdirməyə üstünlük verirdi. Azərbaycan Böyük Britaniya ilə enerji sektorunda uğurlu əməkdaşlıq etsə də Krallıq münaqişə tərəfləri arasında hissolunan fərq qoymurdu. Bu bir neçə amillə izah olunur: bir tərəfdən qeyd edilən müddətdə Britaniya parlamentində güclü erməniпərəst kokus fəaliyyət göstərirdi, digər tərəfdən isə Böyük Britaniya Birləşmiş Ştatlardan fərqli olaraq o dövrdə daha məhdud siyasi imkanlara və geosiyasi ambisiyalara malik idi. Bununla bərabər Xəzər hövzəsinin karbohidrogen yataqlarına böyük yatırımlar edən London, münaqişənin yenidən alovlanmasını sərmayələrə təhdid qismində nəzərdən keçirirdi. Belə şəraitdə rəsmi London Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə üstünlük verirdi.

Mühafizəkarlar və Liberal Demokratların koalisiya hökuməti növbəti bəyanatı 2014-cü ilin 12 may tarixində vermişdir. Bəyanatda Avropa naziri Devid Lidinqtonun sözləri ilə Britaniya hökümətinin münaqişə ilə bağlı mövqeyi əks olunmuşdur. Bəyanatda hökümətin atəşkəs sazişindən 20 il ötməsinə baxmayaraq sülhün hələ də əldə olunmamasından məyusluq bildirilir. Bəyanata görə münaqişənin davam etməsi humanitar böhranın davam etməsinə gətirir. Qeyd edilir ki, sülh üçün bütün tərəflərin kompromisə getməsi vacibdir. Britaniya hökümətinə görə kompromislərin əldə edilməsinə və münaqişənin bitməsinə yanlış narrativlər mane olur. Britaniya azərbaycanlılar və ermənilərin uzun müddət sülh şəraitində birgə yaşadıqlarını və ortaq tarixə malik olduğunu bildirir. Ancaq D.Lidinqtona görə indiki nəsil gözünü açandan ancaq iki xalq arasında münaqişə görüb. Sülhə nail olmaq üçün hər iki tərəf razılaşmanı öz əhalisi üçün məqbul bir vəziyyətə gətirməlidir. Bəyanatda bildirilir ki, bu istiqamətdə addım atılarsa Britaniya ölkələr arasında anlaşmanın inkişafına dəstək verəcəkdir [52].

Vurğulayaq ki, cari bəyanatda Britaniya münaqişəyə vasitəçilik və ya digər müstəqil diplomatic təşəbbüslərlə çıxış etmir. Əksinə bəyanatda açıq-aydın hökümətin Minsk Qrupu formatını dəstəklədiyi qeyd edilir. ABŞ-dan həmsədr C.Vorlikin 7 may tarixli mövqeyinə istinad edilərək münaqişənin tənzimləmə formatının işğal olunmuş ərazilərin qaytarılmasından və Dağlıq Qarabağın statusu ilə bağlı azad iradə ifadəsinin qəbulundan ibarət olduğu bildirilir [52]. 2013 və 2014-cü il bəyanatlarının müqayisəli təhlilini həyata keçirsək axırıncının daha tərkibli olduğunu görmək olar. Bundan başqa, əgər 2013-cü il bəyanatında Britaniya sadəcə Cənubi Qafqaz sülh təşəbbüslərini hər hansı dəqiqləşmə olmadan dəstəklədiyini ifadə edirdisə, 2014-cü il bəyanatında münaqişənin tənzimlənməsinə dair yanaşmanın məğzi açıqlanır. Bəyanatda "işğal edilmiş ərazilərin qaytarılması" ifadəsi Dağlıq Qarabağ ətrafındakı 7 rayonun Azərbaycana verilməsini ehtiva edir. "Dağlıq Qarabağın statusu ilə bağlı azad iradə ifadəsinin qəbulu" isə 2009-cu il Madrid prinsipləri ilə keçirilməsi planlaşdırılan səsverməni özündə təcəssüm etdirir.

Böyük Britaniyanın bu mövqeyi uzun illər, hətta atəşkəs rejiminin güclü pozulduğu vaxtlar belə dəyişməz qalmışdır. 2014-cü ilin yayında Ermənistan və Azərbaycan arasında təmas xəttində ağır hərbi texnikaların iştirakı ilə güclü atışma olmuşdu. Hadisə ilə bağlı 4 avqust tarixində dərc edilən bəyanatda, Britaniyanın təmas xətti boyunca vəziyyətin pisləşməsindən ciddi narahat olduğu bildirilir. Birləşmiş Krallıq ölənlərin sayının artması və daha qabaqcıl hərbi texnikanın istifadəsini 20 illik tarixində atəşkəsin ən narahatedici pozuntularından biri kimi nəzərdən keçirdir. Bəyanatda Britaniya həm Ermənistanı, həm də Azərbaycanı gərginliyi azaltmaq üçün təcili tədbirlər görməyə və 1994-cü il atəşkəs razılaşmasına hörmət etməyə çağırdığını bildirir. Sonda Britaniya höküməti tərəfləri ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə sülh sazişi istiqamətində işləməyə çağırır [51].

Britaniyanın münaqişə tərəflərinə dair mövqeyi "dördgünlük müharibə" kimi ağır zamanda belə dəyişmədi. 2 aprel 2016-cı il tarixli bəyanatda Avropa naziri Devid Lidinqton Dağlıq Qarabağ münaqişəsi zonasında döyüşlərin artmasının və bunun nəticəsində insan təlefatının onu dəhşətə gətirdiyini və çox narahat etdiyini bildirmişdi. Nə Azərbaycanla yüksək səviyyəli strateji əlaqələr, nə də parlamentdə güclü erməni

lobbisi Krallığın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyinə təsir göstərə bilmədi. Bəyanatda hökümət tərəfləri döyüşləri dayandırmağa və təmkinli olmağa çağırmaqla kifayətləndi. Bununla bərabər Britaniya höküməti münaqişə təfərlərini Minsk Qrupu çərçivəsində sülh axtarışında daha intensiv iştirak etməli olduğunu bildirmişdir [66].

Qeyd edək ki, Azərbaycanla Britaniya arasında münasibətlər aprel döyüşləri zamanı və ondan sonra yüksələn xəttlə inkişaf etmişdir. Britaniya rəsmiləri tərəfindən verilən ən son məlumatlara (2022-ci il 14 aprel) əsaslansaq Azərbaycan və Britaniya arasında neft və qaz sənayesinə əsaslanan güclü ikitərəfli əlaqələr mövcuddur. Bundan savayı, ticarət əməkdaşlığının digər sahələri də daxil olmaqla, bərpa olunan enerji sektoru, kənd təsərrüfatı, İKT və səhiyyə sahələrində də əlaqələr çox genişdir. Krallığın təqdim etdiyi statistikaya əsasən, 4000-dən çox azərbaycanlı tələbələr Britaniyada təhsil alır və əksər məzunlar Azərbaycanın bir çox sektorlarında yüksək vəzifələrdə çalışır. Bunula yanaşı Azərbaycanda 1200-dən çox Britaniya vətəndaşı yaşayır [60]. Gördüyümüz kimi Azərbaycanla Britaniya arasında münasibətlər təkcə neft-qaz sektorunu əhatə etmir, bununla yanaşı informasiya-kommunikasiya sektorundan tutmuş mədəni əlaqələrə qədər geniş spektrə yayılır. Amma bütün bunlara baxmayaraq Britaniya Dağlıq Qarabağ münaqişəsində öz mövqeyini uzun müddət dəyişməz olaraq saxlamışdır.

II Qarabağ müharibəsi 2020-ci ilin 27 sentyabrında Ermənistanın Azərbaycana qarşı hücumu ilə başlamışdır. Növbəti gün, yəni 28 sentyabrda Böyük Britaniyanın Xarici işlər naziri Dominik Raab ilə Kanadanın xarici işlər naziri Fransua-Filip Şampan birgə bəyanatla çıxış etmişdilər. Bəyanatda iki anqlosakson ölkənin xarici işlər nazirləri yaşayış məntəqələrinin atəşə tutulması və mülki əhalinin təlefatı ilə bağlı xəbərlərin ağrılı olduğunu qeyd edirlər. D.Raab və F.F.Şampan ATƏT-in Minsk qrupunun işini dəstəklədiklərini bəyan edib, tərəfləri hərbi əməliyyatları dərhal dayandırmağa çağırmışlar [69]. Vurğulayaq ki, Böyük Britaniya və Kanada dünyanın ən inkişaf etmiş ölkələrinin forumu olan Böyük Yeddiliyin üzvləridir. Bundan savayı həm Kanada, həm də Böyük Britaniya NATO-ya üzv ölkələrdir. Bu isə çox vacib faktorlardır. II Qarabağ müharibəsində NATO üzvü Türkiyənin Azərbaycanla, KTMT üzvü Rusiyanın isə

Ermənistanla hərbi ittifaqda olması məlum səbəblərdən rəsmi Londonu narahat edirdi. Vurğulayaq ki, 2020-ci ildə Moskva və London arasında münasibətlər çox gərgin vəziyyətdə idi. Parlamentin Kəşfiyyat və Təhlükəsizlik Komitəsinin 2017-2018-ci illərə dair hesabatına əsasən Rusiya Britaniyanın milli təhlükəsizliyinə təhdid edən aktor kimi nəzərdən keçirildi. Hesabatda bildirilir ki, Rusiya 2014-cü ildə Krımı "işğal etdikdən" sonra "onun Qərbə qarşı düşmənçilik fəaliyyəti" Britaniya tərəfindən daha diqqətlə araşdırılır. Rusiyanın düşmənçilik fəaliyyəti içərisində 2016-cı ildə ABŞ seçkilərinə mümkün qarışma, 2017-ci ildə Krallığın Aİ ilə bağlı səsverməsinə mümkün qarışma və 2018-ci ildə Sergey və Yuliya Skripalin Britaniya ərazisində zəhərlənməsi qeyd edilir [63, s.4].

Dünya ölkələri və beynəlxalq təşkilatların bəyanatlarına rəğmən qarşıdurmanın davam etməsi 2020-ci il silahlı toqquşmasının aprel döyüşlərindən miqyas və intensivlik baxımından keyfiyyətcə fərqləndiyini bəlli etdi. Bu səbəbdən 1 oktyabr tarixli bəyanatında Böyük Britaniya höküməti qarşıdurmanı artıq regional sabitliyə mənfi təsir göstərən amil kimi dəyərləndirirdi. Bəyanatda həmçinin BMT Baş Katibinin 2020-ci ilin son 100 günü üçün qlobal atəşkəsə çağırdığı bir vaxtda bu münaqişənin kəskinləşməsinə Britaniyanın təəssüfləndiyi qeyd edilir. Ardınca Böyük Britaniya Minsk Qrupu həmsədrlərinin fəaliyyətini dəstəklədiyini, tərəfləri isə yerlərdə gərginliyi daha da artıra biləcək hər hansı hərəkət və ya ritorikadan çəkinməyə çağırır. Böyük Britaniya bundan öncəki bəyanatlarında olduğu kimi yenə də münaqişənin hərbi yolla həllini qətiyyətlə istisna edir. Hökümət bütün beynəlxalq tərəfdaşları hərbi əməliyyatların dayandırılmasını dəstəkləməyə və sülh yolu ilə nizamlanma istiqamətində danışıqlara qayıtmaq üçün təzyiq göstərməyə çağırır [75]. Böyük Britaniyanın  müharibə ilə narahatçılığı enerji təhlükəsizliyi və Cənubi Qafqaz vasitəsilə Xəzər dənizi və Mərkəzi Asiyaya keçid marşrutunun mümkün itirilmə təhlükəsi ilə izah olunur. Rəsmi bəyanatlarda bu əks olunmasa da, güman etmək olar ki, Böyük Britaniya Ermənistan hökümətinə boru kəmərlərini hədəfə almamaq barəsində xəbərdarlıq etmişdi. Beləki müharibədən sonra Ermənistan cəmiyyəti və müxalifət N.Paşinyana Azərbaycanın enerji infrastrukturunu

niyə hədəfə almaması barədə sual vermişdir. N.Paşinyan isə öz növbəsində bu addımla Ermənistanın Qərb ölkələri ilə münasibətlərini korlayacağından ehtiyat etdiyini bildirmişdir.

Müharibənin davam etməsi vəziyyətin nəzarətdən çıxması təhlükəsini özündə daşıyırdı. Müharibə müddətində Ermənistana Rusiyadan müntəzəm olaraq silah-sursat daşınırdı. Azərbaycan Respublikası prezidenti 2022-ci il 29 aprel tarixində ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda çıxışı zamanı bu məsələyə xüsusi toxunmuşdur: "Bununla yanaşı, bu, hər kəsə məlumdur və biz 44 günlük müharibə zamanı bunu ictimai şəkildə dəfələrlə bəyan etdik ki, müntəzəm qaydada, gündə bir neçə dəfə Rusiyadan təyyarələr vasitəsilə Ermənistana silah daşınırdı. Biz bütün marşrutları izləyirdik – Rostovdan və Mozdokdan silah daşınırdı" [11]. Rusiyadan mütəmadi silah-sursatın daşınması Bakı və Moskva arasında münasibətləri ciddi poza və Türkiyənin müharibəyə müdaxiləsini qaçılmaz edə bilərdi. Türkiyənin müharibəyə müdaxiləsi bir tərəfdən Rusiya və Ermənistan arasında, digər tərəfdən isə Türkiyə və NATO arasında mövcud təhlükəsizlik öhdəliklərinin işə düşməsinə gətirə bilərdi. Başa düşdüyümüz kimi Türkiyə ilə NATO çərçivəsində qarşılıqlı təhlükəsizlik öhdəliklərinə malik Birləşmiş Krallıq Ermənistan və Azərbaycan arasında müharibənin tez bir zamanda dayanmasında maraqlı idi. Buna nail olmaq üçün 6 oktyabr 2020-ci il tarixində Britaniya və Kanada xarici işlər nazirləri D.Raab və F.F.Şampan Kanada və Böyük Britaniya adından "Dağlıq Qarabağ münaqişəsi zonasında və onun ətrafında davam edən hərbi əməliyyatların təcili dayandırılmasının zəruriliyini" bir daha bəyan etmişdilər [73]. Hökümət istər Kanada ilə birgə, istərsə də öz adından verdiyi bütün bəyanatlarda Minsk qrupunun vasitəçiliyini dəstəklədiyini mütləq sürətdə qeyd edirdi. Bunu iki cür izah etmək olar. Bir tərəfdən Krallıq ATƏT-in Minsk qrupunu dəstəkləyərək münaqişənin nəzarətdən çıxmasında maraqlı olmadığını İrəvan, Bakı, Moskva və Ankaraya çatdırır, digər tərəfdən isə bununla Rusiyaya onun maraqları sferasına müdaxilə etməyə can atmadığını bildirməyə çalışır.

16 oktyabr tarixli bəyanatda Birləşmiş Krallıq hər iki dövlətin bütün xarici tərəflərini və dostlarını hərbi əməliyyatların dayandırılmasına dəstək vermək üçün səylərini ikiqat artırmağa və böhranı daha da gücləndirmək riski olan hərəkətlərdən çəkinməyə çağırdı [99]. Başa düşdüyümüz kimi bəyanatın bu hissəsi əsasən Rusiya və Türkiyəyə və qismən Fransaya ünvanlanır. Bəyanatda həmçinin tərəfləri Minsk qrupunun himayəsi altında substantiv danışıqlara qayıtmalı olduğunu bildirilir [99]. Bəyanatın bu hissəsi isə birmənalı olaraq Ermənistana ünvanlanan bir siyasi mesajdır. Xatırladaq ki, 2018-ci ildə "məxməri inqilab" adlanan dövlət çevrilişi nəticəsində hakimiyyətə gələn N.Paşinyan bir il sonra danışıqlar formatının dəyişdirilməsi istiqamətində destruktiv bəyanatlar vermişdir. Separatçı rejimin danışıqlar formatına daxil olması, münaqişənin tənzimlənməsinin "Azərbaycan, Ermənistan və Dağlıq Qarabağ üçün məqbul" olması və sözsüz ki, "Qarabağ Ermənistandır və nöqtə kimi" kimi bəyanatlar Minsk qrupunun vasitəçiliyi ilə əldə edilən formatın rədd edilməsini nəzərdə tuturdu. Müharibədən sonra Ermənistanın ikinci prezidenti R.Koçaryan 5-ci kanala müsahibəsində bildirmişdir ki, müharibə Minsk qrupu həmsədrlərinin danışıqları pozan tərəfin məhz Ermənistan olduğu aydın olandan sonra başlamışdır [23]. Buna görə də Britaniyanın Minsk qrupu çərçivəsində substantiv danışıqlara qayıtma tələbi Ermənistana ünvanlanan bir siyasi mesajdır.

II Qarabağ müharibəsi zamanı tərəflər bir neçə dəfə atəşkəs haqqında razılığa gəlmişdilər. Vurğulayaq ki, atəşkəs razılaşmalarının hamısı Azərbaycanın rəsmi məlumatlarına görə Ermənistan tərəfindən pozulmuşdur. Əldə edilən hər bir atəşkəs razılaşması Krallıq tərəfindən alqış, atəşkəs pozulduqdan sonra isə məyusluq ilə qarşılanmışdır. Belə bəyanatlardan biri 17 oktyabr tarixində verilmişdir. Bəyanatda hökümət hərbi əsirlərin və ölənlərin qalıqlarının geri qaytarılması məsələsinə toxunaraq, bunu asanlaşdırmaq üçün həyata keçirilən səyləri dəstəklədiyini bildirir [100]. 29 oktyabr bəyanatında Britaniya höküməti sonuncu atəşkəs razılaşmasını dəstəklədiyini, ancaq atəşkəs pozulduğuna görə məyus olduğunu bildirir. Britaniya hər iki tərəfi Qızıl Xaç komitəsinin işini asanlaşdırmağa çağırır və buna dəstək verəcəyini bildirir. Müharibənin

sonuna 10 gün qaldığı dövrdə qəbul edilmiş bəyanatda da Dağlıq Qarabağ münaqişəsinin həlli yalnız sülh yolu ilə münkün olacağı bildirilir. Nizamlanmanın əldə edilməli olduğu əsas format kimi isə Minsk qrupunun adı çəkilir [101].

II Qarabağ müharibəsi Bakı vaxtı ilə 10 noyabr tarixində Ermənistan, Azərbaycan və Rusiya arasında üçtərəfli razılaşmanın imzalanması ilə yekunlaşmışdı. Bəyanatdan 2 gün sonra, yəni 12 noyabr tarixində Britaniya hökuməti müharibənin bitməsi ilə bağlı bəyanat yaydı. Britaniya bəyanatında bu razılaşmanı alqışladığını qeyd edir və bu addımın tərəfləri danışıqlar yolu ilə tam həllə yaxınlaşdıracağına ümid etdiyini bildirir. Bəyanatda Britaniya hökuməti Madrid prinsiplərinə toxunaraq bildirir ki, bu prinsiplər münaqişənin davamlı həlli üçün güclü baza yaradır [104]. Müşahidə etdiyimiz kimi Böyük Britaniyanın yanaşmasına görə müharibə bitsə də bu hələ münaqişənin tam həll olunması deyil. Münaqişənin tam həllinin və atəşkəsin davamlı etməyin yolunu London Minsk qrupunun himayəsi altında Madrid prinsiplərinə qayıtmada görür.

Münaqişənin davam etdiyini London təkcə formal bəyanatlar səviyyəsində nümayiş etdirmir, biz bunu asanlıqla Britaniyanın təcrübədə atdığı addımlarda da müşahidə edə bilərik. Məsələn, 2020-cı il 31 dekabr bəyanatında, Britaniya ATƏT-in 1992-ci ilin fevralında gündəmə gətirdiyi embarqo tətbiqindən sohbət açır. ATƏT həmin tarixdə iştirakçı dövlətlərdən "Dağlıq Qarabağ bölgəsində döyüşən qüvvələrə bütün silah və sursatların çatdırılmasına" embarqo tətbiq etməyi xahiş etmişdi. Britaniya bu embarqonun Britaniya hərbi siyahısında olan bütün əşyaların, malların ixracını, tədarükünü və çatdırılmasını əhatə etdiyini qeyd edir. Embarqonun yalnız Dağlıq Qarabağ regionunda və ya Azərbaycan, Ermənistan arasında quru sərhədində istifadə olunduğu bildirilir. Britaniyada bütün bunlar 2008-ci ildə qəbul edilmiş "İxraca nəzarət sərəncamı" vasitəsi ilə həyata keçirilir. Bundan savayı Britaniya bəyanatda tranzitə nəzarət məsələsinə də toxunur. Qeyd edilir ki, Britaniyadan tranzit keçən hərbi təyinatlı əşyalar var ki, onlar ölkəni tərk etdikdə də ixrac edilmiş sayılırlar və buna görə nəzarətə tabe tutulurlar. 2008-ci il tarixli İxrac Nəzarət Sərəncamının 17-ci maddəsində istisna hallar əks olunsa da, bəyanatda bunun Ermənistan və ya Azərbaycan üçün nəzərdə tutulan mallara şamil

edilmədiyi qeyd edilir [103]. Müşahidə etdiyimiz kimi 2020-ci ilin sonunda Böyük Britaniya ATƏT-in 1992-ci il tarixli silah embarqosuna əməl etməklə münaqişənin hələ də davam etdiyini praktiki addımlarla beynəlxalq ictimaiyyətə çatdırırdı.

Bununla belə Azərbaycanın rəsmi versiyasına görə 10 noyabr üçtərəfli razılaşması təkcə müharibəni yox, o cümlədən Dağlıq Qarabağ münaqişəsini bitirdi. Böyük dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar bu mövqeyi ilk vaxtlar qəbul etməkdən imtina etsələr də, tədricən yeni geosiyasi reallıqla razılaşmalı oldular. Böyük Britaniya bu məsələdə istisna olmadı. Britaniya nəinki azad edilmiş ərazilərin minalardan təmizlənməsinə 500,000 funt sterlinq vəsait ayırdı, o cümlədən digər ölkələri Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (UNDP) təşəbbüsünü dəstəkləməyə çağırır. 1 sentyabr 2021-ci il tarixli bəyanatında Krallıq, azad edilmiş əraziləri insanların istifadəsi üçün təhlükəsiz etmək üçün təlim və kadrların hazırlanmasına kömək edəcəyini bildirdi. Bəyanatda Britaniya 2020-ci il müharibəsindən sonra humanitar yardım elan edən ilk ölkə olduğunu və Qızıl Xaç komitəsinə 1 milyon funt sterlinq bağışladığını qeyd edir. Digər ölkələri də minalı ərazilərdən əvvəllər qovulmuş insanların öz doğma yurdlarına təhlükəsiz qayıtmalarını təmin etmək üçün BMT-nin təşəbbüsünü dəstəkləməyə çağırır. Bəyanatda Avropa Qonşuluqları və Amerika üzrə Nazir Vendi Mortonun sözügedən məsələ ilə bağlı sözləri əks olunub. Beləki, nazir həmin əraziləri “dünyanın ən ağır minalanmış ərazilərindən biri” adlandırır. Britaniyanın bağışladığı vəsaitdən söz açan nazir həmin vəsaitin minaların təmizlənməsinə texniki dəstəyin göstərilməsi, həmçinin Ermənistan və Azərbaycanda mülki həyat üçün risklərin azaldılmasında istifadə olunacağını bildirir [102]. Gördüyümüz kimi 2013-cü ildən bəri təhlil etdiyimiz bütün bəyanatlardan fərqli olaraq 2021-ci il bəyanatı sırf olaraq ölkəmizin haqq işini birmənalı olaraq dəstəkləyən birinci sənəd olmuşdur. Sənəddə nəinki ərazilərin minalardan təmizlənməsi məsələsi, o cümlədən “münaqişə və ya partlamamış sursatlar nəticəsində evlərindən” qovulan insanların bölgəyə qayıtması zəruriliyi öz əksini tapmışdır. Bu isə Azərbaycanın böyük qayıdış siyasətinə dolayısı dəstəyi özündə ehtiva edir.

Birləşmiş Krallığın Xarici, Birlik və İnkişaf ofisi (The Foreign, Commonwealth & Development Office) 29 aprel 2022-ci il tarixində Britaniya vətəndaşları üçün Azərbaycana səyahətlə bağlı tövsiyyələrini əks etdirən sənəd dərc etmişdir. Sözügedən tövsiyələr üç əraziyə şamil olunur: Dağlıq Qarabağ, Zəngilan, Cəbrayıl, Qubadlı, Laçın Kəlbəcər rayonları, Xocavənd, Füzuli və Ağdam rayonlarının qərb əraziləri və Ermənistanla sərhəddən 5 km məsafədə yerləşən ərazilər [56]. Eyni tarxidə çap olunmuş digər sənəd Ermənistana səyahətlə bağlı tövsiyələri əhatə edirdi. Təhlükəli yerlər qismində Ermənistan və Azərbaycan arasında sərhəd boyunca 5 km dərinlikli ərazilər və İjevanla Noyemberyan şəhərləri arasında M16/H26 magistral yolu qeyd edilir [55]. Vurğulayaq ki, Azərbaycanla bağlı sənəddə Azərbaycanın rəsmi mövqeyini təsdiqləyən "post-münaqişə" sözü hallanır. Bu fakt Britaniya hökümətinin Azərbaycanın yaratdığı yeni geosiyasi reallığı qəbul etdiyini göstərir. Bu olduqca vacib bir nailiyyətdir, beləki münaqişə səbəbindən ATƏT 1992-ci ildə Azərbaycan və Ermənistana silah satışı ilə bağlı embarqo tədbiq etmişdir. Embarqo səbəbindən Azərbaycan Böyük Britaniya ilə müdafiə xətti üzrə əməkdaşlığını istədiyi qədər inkişaf etdirə bilmirdi. Lakin münaqişənin öz həllini tapması bu istiqamətdə də münasibətlərin inkişafına şərait yaratdı. Buna ən bariz nümunələrdən biri 2022-ci ilin martın 30-da Böyük Britaniyanın silahlı qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippinin Azərbaycan prezidenti tərəfindən qəbul edilməsidir [13]. Görüşün təfərüatları açıqlanmasa da, Azərbaycan prezidentinin Britaniyanın silahlı qüvvələr naziri ilə görüşü müdafiə sektorunda əməkdaşlığın inkişaf etməsindən xəbər verir.

Britaniyanın Azərbaycan və Ermənistanla ikitərəfli münasibətlərində Qarabağ faktorunu təhlil edərkən Krallığın dövlətlərin xarici siyasətinə dair yanaşmasına xüsusi diqqət yetirmək vacibdir. 2022-ci il 14 aprel tarixində Azərbaycan haqqında məlumat təhlilində Azərbaycan müstəqilliyə önəm verən ölkə adlandırılır. Təhlildə dövlətin coğrafi mövqeyinə də toxunulur və Azərbaycanın Rusiya və İran, Avropa və Asiya arasında yerləşdiyi, Xəzərdən neft və qazın nəqli üçün (Britaniyaya) imkanlar yarada biləcəyi qeyd edilir. Azərbaycanın nəqliyyat qovşağı kimi potensialından söz açan Britaniya hököməti,

Azərbaycanın Bakı-Tbilisi-Qars dəmir yolunun və Bakının cənubunda Ələtdə yeni limanın tikintisi də daxil olmaqla mühüm infrastruktur layihələri həyata keçirdiyini bildirir. İrandan Azərbaycan ərazisi boyunca Rusiyaya keçən şimal-cənub dəmir yolu xəttinin də intensiv olaraq inkişaf etdirildiyi qeyd edilir. Təhlildə o cümlədən Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı əldə etdiyi irəliləyiş xüsusi vurğulanır [60]. Azərbaycan xarici işlər nazirliyinin rəsmi statistikasına əsasən, Birləşmiş Krallıq Azərbaycan iqtisadiyyatına ən çox sərmayə yatıran ölkədir. Birləşmiş Krallıq Azərbaycana 30,6 mlrd.$, Azərbaycan isə Birləşmiş Krallığa 2.4 mlrd.$ sərmayə yatırmışdır. 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsi 704 mln.$, 2020-ci ildə isə (pandemiya səbəbindən) 454 mln.$ olmuşdur [4].

II Qarabağ müharibəsindən sonra Azərbaycanın azad edilmiş ərazilərdə yenidənqurma işləri həyata keçirdir. Öz təhlilində bu məsələyə toxunan Britaniya höküməti Azərbaycanın Britaniya şirkətləri ilə bu prosesdə birlikdə işləməyə hazır olduğunu qeyd edir. Azad edilmiş ərazilərin iqtisadi əhəmiyyətini qiymətləndirən hökümət, bu ərazilərin kənd təsərrüfatı və qida emalı, mədənçıxarma, bərpa olunan enerji və turizm sektorlarında imkanlar təklif etdiyini vurğulayır [60]. Vurğulayaq ki, Britaniya şirkətlərinin azad edilmş ərazilərdə fəaliyyəti 21 fevral 2022-ci ildə Azərbaycan prezidentinin Birləşmiş Krallığın baş naziri B.Consona məktubunda qeyd edilmişdir [6]. Bu məsələ həmçinin 9 mart 2022-ci ildə Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi xanım Baronessa Emma Nikolsonun Azərbaycan prezidenti ilə görüşü zamanı müzakirə edilmişdir [12].

Beləliklə, II Qarabağ müharibəsi Azərbaycanla Birləşmiş Krallıq arasındakı münasibətlərə heç bir xələl gətirmədi, əksinə tərəflər arasında post-münaqişə dövründə tərəfdaşlığı daha da gücləndirdi. 2021-ci ildə keçirilən Bakı Qlobal Forumunda Böyük Britaniyanın Azərbaycandakı səfiri Filip Barkley baş nazir Boris Consonun Foruma ünvanladığı müraciəti oxudu: "Birləşmiş Krallıq Qafqaz regionunda sülh və sabitliyi, eləcə də postmünaqişə problemlərinin həllini dəstəkləməyə davam edir. Biz Birləşmiş Krallıqda - həm hökumət, həm də Britaniya şirkətləri olaraq – bu problemlərin həlli üçün

Azərbaycanın milli minatəmizləmə proqramına və BMT İnkişaf Proqramının mina təmizləmə fəaliyyətinə dəstək göstərməklə mina riskləri barədə məlumatlandırmaya və dünya səviyyəli təcrübəmizi təklif edərək töhfə veririk. Birləşmiş Krallıq Azərbaycanın etibarlı tərəfdaşıdır və bu, belə də qalacaq. Gələcək illərdə tərəfdaşlığımızın davamlı inkişafına ümid edirəm" [14]. 2022-ci ilin 11 mart tarixində iki ölkə arasında diplomatik münasibətlərin 30 illiyi münasibətilə Azərbaycan prezidentinə məktub göndərən Birləşmiş Krallığın baş naziri B.Conson Böyük Britaniyanı Azərbaycanın "sarsılmaz və dəstək verən tərəfdaşı" olduğunu qeyd etmişdir [5].

Paraqraf çərçivəsində təhlili tam etmək üçün Böyük britaniyanın Ermənistan ilə də münasibətlərinə diqqət yetirmək vacibdir. Ermənistanın Avropadakı ilk səfirliyi 2006-cı ildə Böyük Britaniyada açılmışdır. Son 30 il ərzində Ermənistandan Böyük Britaniyaya iyirmiyə yaxın yüksək səviyyəli səfər olub. Ən vacib səfərlər içərisində birinci prezident L. Ter-Petrosyanın, üçüncü prezident Serj Sarkisyanın, 2018-2022-ci illərdə prezident olmuş Armen Sarkisyanın, o cümlədən xarici işlər nazirləri və  Milli Assambleyanın sədrlərinin Böyük Britaniyaya səfərlərini qeyd etmək olar. Britaniya tərəfdən səfərlər əsasən nazirlər səviyyəsində olub. Ən son belə səfər qismində Böyük Britaniya dövlət katibinin Avropa və Amerika məsələləri üzrə köməkçisinin parlamentdəki müavini Vendi Mortnın 2021-ci ilin fevral ayında olan səfəri nümunə çəkmək olar. İki ölkə arasında investisiyaların təşviqi, müdafiə, təhsil, elm, mədəniyyət, hava əlaqəsi və digər sahələrdə əməkdaşlığa dair altı saziş, o cümlədən anlaşma memorandumu imzalanıb. Xüsusi qeyd edək ki, Böyük Britaniyanın Ermənistan ilə münasibətləri axırıncının təqdim etmək istədiyi qədər dərin və geniş deyil. Sadə bir nümunə iki ölkə arasında ticarət dövriyyəsinin (87 mln.$) [112] Britaniya və Azərbaycan arasında ticarət dövriyyəsindən 4 dəfə az olmasıdır. Ermənistan Respublikasının Müdafiə Nazirliyi ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Müdafiə Nazirliyi arasında müdafiə əlaqələri və əməkdaşlıq haqqında memoranduum [113] mövcud olsa da Britaniyanın Azərbaycanla, Ermənistanın isə Rusiya ilə yaxınlığı səbəbindən bu istiqamətdə hissolunan aktivlik müşahidə edilmir.

Ermənistan rəsmiləri Böyük Britaniya ilə Azərbaycan arasında münasibətlərə pozmaq və öz gündəliyini irəli çəkmək istiqamətində uğursuz cəhdlər edirlər. Məsələn, cari xarici işlər naziri Ararat Mirzoyan hələ Ermənistan Milli Assambleyasının spikeri olduğu zaman Krallığın ölkədəki səfiri ilə görüşü zamanı Azərbaycan və Türkiyəni hərbi cinayətlər törətməkdə ittiham edirdi: “Təəssüf ki, Azərbaycan aşkar anti-erməni siyasətini və aqressiv bəyanatlarını davam etdirir ki, bunun bariz nümunəsi Azərbaycan Prezidenti tərəfindən Bakıda (hərbi qənimətlər) parkın açılışıdır” [114]. Səfirlik vasitəsilə Böyük Britaniya hökümətindən arzuladığını əldə etməyən Ermənistan Britaniya parlamentində erməni koksunun üzvləri ilə hal-hazırda işləməyə üstünlük verir. 2022-ci il 1 aprel tarixində Ermənistan parlamentinin sədri Alen Simonyan Böyük Britaniya parlamentinin Böyük Britaniya-Ermənistan dostluq qrupunun rəhbəri Tim Lutenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdi. Qonaqları salamlayan Alen Simonyan “Ermənistan və Artsax üçün çətin bir dövrdə” Ermənistana səfər etdiyinə görə təşəkkür etmişdi. A.Simonyan Böyük Britaniya-Ermənistan Dostluq Qrupu üzvlərinin son iki il ərzində fəaliyyətini yüksək qiymətləndirdi, həmçinin Ermənistan və Artsaxın üzləşdiyi təhlükəsizlik və humanitar problemləri diqqət mərkəzində saxlamağa və onları müntəzəm olaraq daha da qaldırmağa hazır olduğunu vurğuladı. Görüşdə tərəflər regional sabitlik və təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi apardılar [111].

Aparılan araşdırmalar Böyük Britaniyanın Dağlıq Qarabağ münaqişəsinin Ermənistan və Azərbaycanla münasibətlərinə necə təsir göstərdiyini müəyyən etməyə imkan vermişdir. Tədqiqat obyekti kimi biz Krallığın son 10 ildə münaqişə ilə bağlı rəsmi bəyanatlarını araşdırmışdıq. Müşahidələrimiz göstərir ki, Krallıq münaqişənin tənzimlənməsində bacardığı qədər neytrallıq nümayiş etdirməyə çalışırdı. Bununla belə neytrallıq Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsini özündə ehtiva edirdi. 10 noyabr 2020-ci ildə Dağlıq Qarabağ münaqişəsi bitsə də, ilk vaxtlar Britaniyanın rəsmi bəyanatlarında münaqişənin hələ də davam etməsi mövqeyini əks etdirən cümlələrə rast gəlmək olar. Amma 2021-ci ilin sonu 2022-ci ilin

əvvəllərinə aid sənədlərdə münaqişənin bitməsinə əks etdirən yanaşmanı müşahidə etmək olar.

## 3.2.Böyük Britaniyanın beynəlxalq təşkilatlar səviyyəsində münaqişəyə münasibəti

Böyük Britaniya bir çox nüfuzlu beynəlxalq təşkilatların üzvüdür. Dağlıq Qarabağ münaqişəsinə Birləşmiş Krallıq təkcə ikitərəfli münasibətlər səviyyəsində deyil, o cümlədən çoxtərəfli əməkdaşlıq platformaları daxilində də münasibət bildirmişdir. Azərbaycan Respublikasının Birləşmiş Krallıqda uzun illər fövqəladə və səlahiyyətli səfiri olmuş Fəxrəddin Qurbanova əsasən, “Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Böyük Britaniya tərəfinin Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəyişməz dəstək Azərbaycan tərəfindən hər zaman yüksək qiymətləndirilir” [15]. Bu dəyişməz dəstək Böyük Britaniyanın üzv olduğu bir çox beynəlxalq təşkilatlar səviyyəsində də özünü biruzə verir.

Paraqraf çərçivəsində təhlilimizi deduktiv əqlinəticə yolu ilə, yəni ümumidən xüsusiyə doğru (BMT → NATO → ATƏT → Aİ) aparmağı məqsədəuyğun sayırıq. Böyük Britaniyanın üzv olduğu ən böyük təşkilat BMT-dir. Böyük Britaniya BMT-nin əsasında duran ölkələrdən biri olub, onun Təhlükəsizlik Şurasının beş daimi üzvündən biridir. 1993-cü ildə Böyük Britaniya BMT Təhlükəsizlik Şurasına sədrlik edirdi. Ermənistanın təcavüzü nəticəsində eyni ildə Azərbaycanın Ağdam rayonu işğal edilmişdir. Böyük Britaniya 1993-cü ilin 27 iyul tarixində Ermənistan tərəfindən Ağdam rayonunun işğal edilməsinə öz etirazını bildirmiş, 28 iyul tarixində isə Krallığın sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurası iclasında 853 saylı qətnamə qəbul edilmişdir. 1993-cü ildə Azərbaycana yeni təyin olunmuş Britaniya səfiri Tomas Yanq, Heydər Əliyev ilə görüş zamanı ölkəsinin Təhlükəsizlik Şurasının sədri kimi Azərbaycanın ərazi bütövlüyünün qorunmasına dəstək olacağını bildirmişdir [2]. Britaniya Azərbaycanın ərazi bütövlüyünə diplomatik dəstək göstərəcəyini Heydər Əliyevin andiçmə mərasimində də bəyan etmişdir. Oktyabr ayında keçirilən andiçmə mərasiminə Krallığın

dövlət naziri Duqlas Hoqq gəlmişdir. Səfəri çərçivəsində Britaniyalı nazir ölkəsinin Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi saydığını qeyd etmişdir [3].

Böyük Britaniyanın diplomatik dəstəyi ilə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən 4 BMT Təhlükəsizlik Şurası qətnaməsinin qəbul edilməsi Krallıqda münaqişə ilə bağlı siyasi diskursu dəyişdi. Böyük Britaniyanın əksər nüfuzlu nəşrləri BMT Təhlükəsizlik Şurasının münaqişədə Azərbaycanı dəstəklədiyini öz məqalələrində qeyd edirdilər. Nümunə kimi 1994-cü ildə nüfuzlu İndependent qəzetində Yuq Popun qələmindən çıxan məqaləni qeyd etmək olar. Məqalədə müəllif beynəlxalq müşahidəçilərə istinad edərək Azərbaycanın məğlub olmasına baxmayaraq BMT qətnamələrinə arxalanaraq öz ərazilərindən imtina etməyəcəyini bildirir. Bununla bərabər beynəlxalq müşahidəçilərin gəldiyi qənaətə görə Ermənistan da BMT qətnamələrinə məhəl qoymayaraq işğal etdiyi əraziləri Azərbaycana qaytarmayacaq [79]. Təhlükəsizlik Şurası qətnamələrinə istinad edən oxşar məqalələr "Faynənşl Tayms" [43] və "Emercinq Yeurap" [50] kimi nəşrlərdə də dərc edilib. Atəşkəs illərində dərc edilən bu məqalələr o cümlədən Azərbaycanın beynəlxalq ictimaiyyətdən haqlı narazılığından bəhs edir. Məsələn, 2015-ci ildə "Faynənşl Tayms" qəzetində çıxan məqalədə bildirilir ki, Rusiya Krımı ilhaq etdikdən sonra ona qarşı sanksiyalar qəbul edilmişdir. Məqaləyə görə Təhlükəsizlik Şurası Azərbaycanın ərazi bütövlüyünü tanısa da, Ermənistana qarşı heç bir sanksiya qəbul edilməmişdir ki, bu da Bakı tərəfindən Qərbin ikili standartları kimi nəzərdən keçirilir [43].

Böyük Britaniya daxil Qərb ölkələri Ermənistana qarşı sanksiya qəbul etməsələr də Krallığın Azərbaycanla sıx münasibətləri və ölkəmizin ərazi bütövlüyünə davamlı dəstəyi tərəflər arasında münasibətlərə xələl gətirməmişdir. 1994-cü ildə Krallığa səfər edən Heydər Əliyev verdiyi müsahibədə ölkələr arasında çoxtərəfli münasibətləri belə xarakterizə etmişdir: "Bildiyiniz kimi, İngiltərə dünyanın ən böyük dövlətlərindən biridir. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri, dünyanın ən inkişaf etmiş yeddi ölkəsindən biridir. İngiltərə həm tarixinə, həm də bugünkü mövqeyinə görə dünya siyasətinə və iqtisadiyyatına çox böyük təsiri olan bir ölkədir. Ona görə də Azərbaycan

Respublikası ilə İngiltərə arasında sıx əlaqələrin qurulması, ilk növbədə, ölkəmizin milli maraqları baxımından son dərəcə vacibdir” [19]. Böyük Britaniyanın o dövrdə Azərbaycanla BMT və digər qurumlar çərçivəsində əməkdaşlığı Ermənistanda narahatçılıq yaradırdı. Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın 1994-cü ildə Londona səfərinin məqsədlərindən biri britaniyalı muzdluların Şimali Kipr vasitəsilə Azərbaycanın tərəfində döyüşməyə gəlməsi ilə bağlı məlumatlara aydınlıq gətirmək idi [91]. Bu iddiaların heç bir əsası olmasa da, Britaniyanın Azərbaycana güman edilən hərbi yardım göstərməsinin Ermənistanda narahatçılıq yaratması öz-özlüyündə diqqətə layiq bir faktdır. Bu BMT Təhlükəsizlik Şurası çərçivəsində Britaniyanın Azərbaycana verdiyi dəstəyin rəqib ölkəyə nə dərəcədə güclü mənəvi zərbə endirdiyinin göstəricisidir.

Birləşmiş Krallığın Azərbaycanın ərazi bütövlüyünə dəstəyi ölkə başçıları olan Heydər Əliyevin 1998-ci il, İlham Əliyevin də 2004-cü il səfərlərində bir daha bəyan edilmişdir. Bu səfərlər zamanı Böyük Britaniyanın baş naziri Entoni Bleyer idi. Vurğulayaq ki, birinci səfər zamanı “Dostluq münasibətləri və tərəfdaşlıq haqqında bəyannamə”, ikinci səfər zamanı isə Birgə Kommunike imzalanmışdır. Bu isə Krallığın 1993-cü ildə BMT Təhlükəsizlik Şurası çərçivəsində Azərbaycanın ərazi bütövlüyünə verdiyini dəstəyin ikitərəfli strateji sənədlərdə də öz əksini tapması deməkdir.

2008-ci ildə Azərbaycana səfər edən Böyük Britaniyanın Xarici və Dövlət Məsələləri üzrə Nazirliyinin Avropa məsələləri üzrə dövlət naziri Cim Mörfi ölkəsinin Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı bir daha bəyan edib, bu istiqamətdə ölkəmizə bütün səviyyələrdə dəstək olacağını qeyd etdi [2]. Bu sözlər kağız və ya şifahi vədlər formasında qalmadı. 27 sentyabr 2020-ci ildə II Qarabağ müharibəsi başlayandan bir müddət sonra bəzi dövlətlər BMT Təhlükəsizlik Şurası səviyyəsində Azərbaycana qarşı qərəzli bəyanat qəbul etməyə çalışmışdılar. Amma Böyük Britaniya başda olmaqla digər tərəfdaş ölkələrimizin vaxtında müdaxiləsi bu qərəzli bəyanatın qəbul edilməsinə imkan verməmişdir [3].

Böyük Britaniyanın üzv olduğu nüfuzlu beynəlxalq təşkilatlardan biri NATO-dur. Krallıq bu təşkilat çərçivəsində də Azərbaycanın ərazi bütövlüyünün tanınmasına daima

dəstək olmuşdur. Britaniya və digər dövlətlərin dəstəyi sayəsində NATO Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən çoxlu sayda bəyanatlar qəbul edib. Nümunə kimi NATO-nun 1992-ci il 5 iyun tarixli Oslo sammitində qəbul edilən Bəyanatdan çıxarışa müraciət edə bilərik: “5. Biz, həmçinin, Dağlıq Qarabağ və onun ətrafında olan böhranın gedişində döyüşlərin intensivləşməsi, insan tələfatının, iztirabların və dağıntıların artması ilə bağlı dərin narahatlıq hissi keçiririk. ... Biz güc işlədilməsi vasitəsilə ərazilərin əldə edilməsi, sərhədlərin dəyişdirilməsi və ya siyasi məqsədlərə nail olunması üçün hər hansı cəhdin qəbul edilməz olduğunu və bu cəhdin əhəmiyyətli olan uzunmüddətli danışıqlara və dinc nizamlanmaya əsaslanan səylərə yalnız xələl gətirdiyini xüsusilə vurğulayırıq.” 1994-cü il 10 iyun tarixində NATO-nun İstanbul görüşündə qəbul etdiyi bəyanatda “BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq hərbi əməliyyatların dayandırılması, zor vasitəsilə işğal edilmiş ərazilərdən qoşunların çıxarılması və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması” vacib adlandırmışdır. Azərbaycan prezidenti İlham Əliyev isə 2014-cü ilin 4 sentyabr tarixində Birləşmiş Krallıqda – Velsdə NATO sammitində iştirak etmişdir [2].

BMT və NATO-dan savayı Böyük Britaniya ATƏT kimi böyük bir təşkilatın üzvüdür. Böyük Britaniyanın Azərbaycanın ərazi bütövlüyünə dəstəyi BMT-dən qabaq ATƏM çərçivəsində bəyan edilmişdir. 1992-ci ilin 11 mart tarixində Azərbaycana Britaniyanın xarici işlər və birlik işləri üzrə naziri D.Hoqq və Britaniyanın Rusiyadakı səfiri Rodrik Breytveyt səfər etmişdilər. Azərbaycanın Ali Sovetinin sədri Yaqub Məmmədovla görüş zamanı D.Hoqq, Azərbaycanın ATƏM-ə üzv olmasından məmnun olduğunu bildirmiş və Britaniyanın Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdığını və Azərbaycanın yurisdiksiyasından çıxa bilmədiyinə dair mövqeyini bəyan etmişdir. Mətbuat konfransında çıxışı zamanı D.Hoqq, Britaniyanın ATƏM-in 28 fevral tarixli bəyannaməsini tam müdafiə etdiyini bildirdi: “Sərhədlərin toxunulmazlığı və insan hüquqlarının müdafiəsi prinsiplərinə tərəfdarıq. Regionda müharibənin uzanması bizi çox narahat edir" [16]. Çıxışı zamanı D.Hoqq ermənipərəst siyasətçi baronessa Koksun mövqeyinə də toxunmuş və baronessanın dövlət siyasətinə cavabdeh olmayan bir şəxs

olduğunu bildirmişdir [16]. Başqa sözlə desək, nazir Hoqq, baronessa Koksun mövqeyinin Britaniya hökuməti tərəfindən ciddiyə alınmadığını, Britaniyanın xarici siyasətinə təsir göstərmədiyini bildirmişdir.

I Qarabağ müharibəsi zamanı Böyük Britaniyada münaqişənin ATƏM çərçivəsində nizamlanacağına böyük ümidlər var idi. 1992-ci ilin 19 dekabr tarixində Britaniyanın "İndependent" qəzeti dekabrın əvvəlində Türkiyə, Rusiya, ABŞ, Ermənistan və Azərbaycan nümayəndələrinin iştirakı ilə Cenevrədə gizli danışıqların keçirildiyini qeyd edirdi. O dövrdə Azərbaycan döyüş meydanında Ermənistandan daha uğurlu idi. Bu səbəbdən məqalə müəllifi bu danışıqlar çərçivəsində Ermənistan prezidenti L.Ter-Petrosyanın Azərbaycana güzəştə getməyə hazır olduğunu bildirmişdir [79]. ATƏT-in Lissabon sammitində münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tənzimlənməli olmasına dair qərara o cümlədən Böyük Britaniya da səs vermişdir. Bu sammitdən sonra britaniyalı jurnalist F.Rivz "Necə Ermənistan müharibəni uddua, amma nefti uduzdu" adlı məqalə hazırlayır. Məqalədə Azərbaycanın ABŞ və Böyük Britaniya timsalında nüfuzlu ölkələrlə neft istehsalı üzrə razılıq əldə etməsindən və bunun necə Lissabon sammitində Azərbaycanın leyhinə qərarın qəbul edilməsinə kömək etdiyindən bəhs olunur [84].

Qeyd edək ki, Böyük Britaniya ATƏT-in üzvü olsa da, Minsk qrupuna daxil deyil. Buna baxmayaraq Minsk qrupu tərəfindən hazırlanan həll təkliflərinə Britaniya rəsmi və qeyri-rəsmi orqanları mütəmadi olaraq münasibət bildirmişlər. Məsələn, Dağlıq Qarabağın kondominiuum kimi mövcudluğunu özündə ehtiva edən "ümumi dövlət" modeli Oksford Universiteti tərəfindən ətraflı tədqiq olunmuşdur [86]. Madrid prinsiplərini isə "Çatam Haus" beyin mərkəzi təhlil etmişdir. Vurğulayaq ki, "Çatam Haus" Böyük Britaniyanın aparıcı strateji araşdırmalar mərkəzidir. Bu mərkəzdə hətta Azərbaycan Respublikası prezidenti İlham Əliyev 2004-cü ildə Böyük Britaniyaya səfəri çərçivəsində çıxış etmişdir. Madrid prinsipləri üzrə tərəflər arasında ciddi fikir ayrılıqlarını və "Minsk Qrupunun rekonstruksiya olunma" zəruriliyini L.Broers 11 aprel 2016-cı il tarixli araşdırmasında ətraflı təhlil etmişdir [45].

Beynəlxalq Strateji Tədqiqatlar və Analiz Mərkəzi adlı Britaniya beyin mərkəzinin diqqətini isə Madrid prinsiplərinin ziddiyyətli məqamları çəkmişdir. Burda Azərbaycanın qəbul etmədiyi iki faktorun olması qeyd edilir. Birinci faktor münaqişə tərəfləri ilə bağlıdır. Dağlıq Qarabağın danışıqlarda tərəf kimi təmsil olunmasına Ermənistan israr etsə də, Azərbaycan və beynəlxalq ictimaiyyət bunu qəbul etmir. İkinci faktor Madrid prinsipləri ilə müəyyən olunan referenduum ilə əlaqəlidir. Azərbaycan Dağlıq Qarabağın statusunu müəyyən edəcək referenduumun yalnız Dağlıq Qarabağ ərazisində və məhdud əhali içərisində keçirilməsini ölkə konstitusiyasına zidd məqam kimi nəzərdən keçirdir [91].

"Çatam Haus"un Britaniyanın aparıcı strateji araşdırmalar mərkəzi olması onun tərəfindən hazırlanan təhlillərin britaniya siyasətçiləri tərəfindən istifadə edilməsini şərtləndirir. Bu qəbildən beyin mərkəzinin ATƏT haqqında araşdırmaları Britaniyanın bu beynəlxalq təşkilat çərçivəsində münaqişə tərəflərinə formalaşdırdığı siyasətə güclü təsir göstərir. Britaniya siyasətçiləri "Çatam Haus"un tədqiqatları ilə yanaşı elitar nəşr sayılan "Faynənşl Tayms" qəzetinin təhlillərinə də xüsusi önəm verir. Aprel döyüşlərinin baş verdiyi ilin sonunda qəzetdə çıxan məqalələrin birində ATƏT-in monitorinq missiyası fəaliyyətsizliyinə görə tənqid olunmuşdur [61].

Lissabon sammitinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərarı Britaniya parlamentinin xarici əlaqələr komitəsinin 1999-cu il 20 iyul tarixli 6 saylı hesabatında da əks olunmuşdur. Minsk qrupunun fəaliyyətini qiymətləndirən hesabat, onun 1994-cü ildə atəşkəsə nail olmaqda kömək etdiyini, ancaq daha sonrakı işlərində daha az uğurlu olduğunu bildirir. Lissabon sammiti ilə bağlı hissələrdə bildirilir ki, Zirvə toplantısında qəbul edilən prinsiplərə görə Dağlıq Qarabağın leqal statusu "Azərbaycan daxilində ən yüksək öz müqəddəratını təyinetmə"yə əsaslanır. Hesabat həmçinin Ermənistanın Lissabon sammitinin qərarı ilə razılaşmadığını qeyd edir. Bunun əvəzində Ermənistan Rusiyanın təklifi ilə Minsk həmsədrlərinin irəli sürdüyü, Dağlıq Qarabağın "ümumi dövlət" statusu ilə bağlı modelini dəstəklədi. Hesabat "ümumi dövlət" anlayışının izahını verərək, bunun müstəqillik və özünüidarə arasında bir anlayış olduğunu bildirir. Hesabata

görə Azərbaycan "ümumi dövlət" modelini müvafiq beynəlxalq presedent olmadığına və Dağlıq Qarabağa de-fakto müstəqillik təklif etdiyinə görə rədd etmişdir.

Hesabatda həmçinin Azərbaycanın Minsk qrupundan narazı olması da öz əksini tapır. Britaniya höküməti bunu belə izah edir ki, Rusiyanın Ermənistanda geosiyasi maraqları olduğundan və ora silahli qüvvələr yerləşdirdiyindən, digər həmsədrlər olan Fransa və ABŞ isə böyük erməni diasporuna malik olduğundan Azərbaycan tərəfindən qərəzli həmsədrlər kimi qiymətləndirilir.

Hesabatda bildirilir ki, Azərbaycan Britaniyadakı səfirinin sözləri ilə Krallığın "ATƏT-in Minsk Qrupu danışıqlarını müsbət istiqamətdə irəliləməsinə" kömək etməklə "həllin axtarılmasında daha fəal iştirak etməsi" arzusunda olduqlarını ifadə edib. Britaniya hesabatda Minsk Qrupu ilə bağlı hər hansı bir öhdəliyinin olmamasını avantaj kimi qəbul edir. Beləki bu ona danışıqlar prosesini dəstəkləyə və tamamlaya biləcək tərəflərlə müxtəlif yolları kəşf etməyə imkan verə bilər [57].

Böyük Britaniya uzun müddət Avropa İttifaqının üzvü olmuşdur. Hal-hazırda Avropa İttifaqı Ermənistan və Azərbaycan arasında yekun sülh müqaviləsinin əldə edilməsinə real səylər göstərir. Bu proseslər Dağlıq Qarabağ münaqişəsinin artıq bitdiyi və Britaniyanın Avropa İttifaqından çıxdığı dövrə təsadüf etdiyinə görə bu məsələlər paraqraf daxilində tədqiq olunmayacaq. Bununla belə Britaniya Avropa İttifaqına üzv olduğu müddətdə qurumun münaqişənin tənzimlənməsinə potensial töhfəsi Britaniya elmi dairələrində geniş müzakirə olunurdu. 2013-cü il 31 yanvar tarixində Dağlıq Qarabağ münaqişəsinin Birləşmiş Krallıq tərəfindən Aİ qurumlarında müzakirə edilməsi üçün Uffolandlı baronessa Eşton nümayəndə kimi seçilmişdir [54].

Britaniya tədqiqatçıları qeyd edirlər ki, təxminən 15 il əvvəl Aİ Dağlıq Qarabağ münaqişəsinə vasitəçilik etmək üçün ciddi səy göstərsə də tez bir zamanda qurum həm blok daxilində, həm də Ermənistan və Azərbaycan arasında mövcud çoxsaylı fikir ayrılıqları bataqlığına düşmüşdü. Münaqişə illərində nə Ermənistan, nə də Azərbaycan Avropa İttifaqının aktiv vasitəçiliyini arzulamırdılar. Ermənistanın mövqeyi müttəfiqi Rusiyanı qıcıqlandırmaq istəməməsi ilə izah olunurdu. Azərbaycanın mövqeyi isə daha

fundamental əsaslara söykənirdi. 2005-ci ildə Aİ Qonşuluq Siyasətinin inkişafı çərçivəsində Ermənistan və Azərbaycanla onlarla sektoru əhatə edən əməkdaşlıq sahələrini əks etdirən fəaliyyət planını imzalamağa çalışırdı. Planla bağlı danışıqları siyasiləşdirməmək üçün Aİ Dağlıq Qarabağ münaqişəsini xatırlamaqdan qaçmaq istəyirdi. Lakin Azərbaycan Ermənistan tərəfindən işğal edilmiş 7 ətraf rayon üzərində suverenliyinin Aİ tərəfindən tanınmasında israr etdi. Avropa İttifaqı bu münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində müzakirə edildiyini bəhanə edərək, Azərbaycanın bu ərazilər üzərində suverenliyini tanımaqdan boyun qaçırdı. Bu Azərbaycanda qıcıq yaradıb, qurumun münaqişənin tənzimlənməsində iştirakına mane oldu.

Buna baxmayaraq Avropa İttifaqı münaqişəyə bu və ya digər təsir mexanizmlərini əldə etməyə çalışırdı. Aİ-nin 2003-cü ildə Cənubi Qafqaza xüsusi nümayəndə təyin etməsi, blokun regiondakı rolu ilə bağlı gözləntiləri artırdı. Heikki Talviti və Piter Semnebi Avropa İttifaqının regionda mövcudluğunu gücləndirmək üçün hətta Fransanın Minsk Qrupunda Aİ ilə əvəzlənməsinə dair fərziyyələr də irəli sürmüşdülər. Lakın Fransanın Minsk qrupundakı yerini Avropa İttifaqına güzəştə getmək istəməməsi bu yanaşmanı qeyri-aktual etdi. Avropa İttifaqının münaqişənin tənzimlənməsində vasitəçilik şanslarına son zərbəni qurumun özü 2008-ci ildə Kosovonun müstəqilliyini tanımaqla vurdu. Bu addım Azərbaycanın Avropa İttifaqının beynəlxalq hüquqa uyğun olaraq ərazi bütövlüyünü müdafiə edəcəyinə dair inamını sarsıtdı [81].

Tədqiqatlar çərçivəsində mümkün variantlardan biri Avropa İttifaqının münaqişə tərəflərinə münasibətdə “çubuq və yerkökü” (“Stick and carrots”) siyasətini həyata keçirməsi ilə bağlı idi. Bu siyasət Azərbaycan və Ermənistana müvafiq kreditlər, sərmayələr, qurumla daha yaxın əlaqələr, texniki dəstək və s. kimi tədbirləri özündə ehtiva edən “yerkökü” yanaşması ilə Avropa İttifaqının mövqeyinə etinasızlıq göstərildiyi halda sanksiyaların tədbiq edilməsini təcəssüm etdirən “çubuq” yanaşmasının sintezini nəzərdə tutur. Müşahidələr göstərir ki, Avropa İttifaqı hər iki tərəflə Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı proqramları çərçivəsində əməkdaşlıq etdiyinə görə “yerkökü” yanaşmasına “çubuq” yanaşmasından üstün tutmuşdur.

Bundan savayı müşahidələr və hesablamalar göstərir ki, Avropa İttifaqının Cənubi Qafqazda mövqelərinin möhkəmləndirilməsi ilə bağlı iki modeli vardır. Birinci model qısamüddətli xarakter daşıyır və münaqişə tərəflərinə qurumu vacib bir geosiyasi aktor kimi təqdim etməyi nəzərdə tutur. Avropa İttifaqının regiona geosiyasi aktor kimi daxil olması münaqişə tərəflərini qurumla hesablaşmağa və onun münaqişənin tənzimlənməsi ilə bağlı təkliflərinə ciddi yanaşmağa məcbur edəcəkdir. İkinci model avropalaşmanı özündə ehtiva edirdi. Bu uzunmüddətli xarakterə malik olub, münaqişə tərəflərində demokratiya, insan haqqları və Avropa dəyərlərinin təbliği və təşviqi istiqamətində islahatların keçirilməsinə dəstəyi nəzərdə tuturdu. Bu yanaşma əslində demokratik sülh nəzəriyyəsinə əsaslanan bir model idi və "demokratik ölkələr bir-biri ilə müharibə aparmır" qanunauyğunluğunu özündə ehtiva edirdi. Güman edilirdi ki, ikinci model təkcə dövlətləri yox, o cümlədən düşmən xalqları da vahid Avropa dəyərləri altında barışdıra bilərdi. Bununla belə yaxın tarix bu modellərin heç birinin işləmədiyini deməyə əsas verir. Birinci modelin hansı səbəbdən yararsız olduğunu araşdıran müəlliflər münaqişə tərəflərinin Avropa İttifaqını tamhüquqlu geosiyasi aktor kimi nəzərdən keçirtmədiyini bildirirlər. Münaqişə dövründə Azərbaycan və Ermənistan geosiyasi aktorlar qismində ABŞ, Rusiya və Fransanı, yəni Minsk qrupunun həmsədr ölkələrini nəzərdən keçirdirdilər. İkinci model isə münaqişə tərəflərinin köklü siyasi və mədəni islahatlar həyata keçirməyə hazır olmadıqları səbəbindən gerçəkləşmədi [76].

Paraqraf daxilində aparılan tədqiqat nəticəsində Böyük Britaniyanın BMT, ATƏT, NATO və Aİ kimi nüfuzlu təşkilatlar çərçivəsində Azərbaycanın ərazi bütövlüyünə daima dəstək verdiyi müəyyən olunmuşdur. Araşdırmalar Böyük Britaniyanın I Qarabağ müharibəsi zamanı Təhlükəsizlik Şurasının 4 qətnaməsinin qəbul edilməsində müstəsna rolunu aşkarlamışdır. Digər tərəfdən Böyük Britaniya II Qarabağ müharibəsi zamanı da ölkəmizə qarşı Təhlükəsizlik Şurasında qərəzli aktın qəbul edilməsinə mane olmuşdur. Böyük Britaniyanın NATO-nun aparıcı üzvlərindən biri olması qurumun Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar qəbul etməsinə müsbət təsir göstərmişdir. Birləşmiş Krallıq Minsk qrupunun üzvü olmasa da, istər Lissabon sammitində, istərsə də

ATƏT-in digər vacib sənədlərində Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınmasına kömək etmişdir. Böyük Britaniya 2020-ci ildə Avropa İttifaqından ayrılsa da, buna qədər qurum vasitəsilə Dağlıq Qarabağ münaqişəsinin həllinə dair fərqli yanaşma və modellərin hazırlanmasında iştirak etmişdir.

# NƏTİCƏ

Dissertasiya çərçivəsində aparılan araşdırma sayəsində bir neçə vacib nəticə əldə edilmişdir:

1) Tədqiqat Böyük Britaniyanın Cənubi Qafqazda vacib maraqlara malik olduğunu müəyyən etmişdir. Krallığın region ilə bağlı milli maraqlarını Azərbaycanın karbohidrogen resurslarla zəngin olması, Gürcüstanın Qara dəniz ölkəsi olması, Cənubi Qafqazın İngiltərənin geosiyasi rəqibləri olan Rusiya və İran arasında yerləşməsi və regionun Mərkəzi Asiyaya çıxış qapısı olması şərtləndirir.

2) Dissertasiyada aparılan araşdırma Böyük Britaniyanın vacib normativ-hüquqi sənədlərində Dağlıq Qarabağ münaqişəsinə dair aktual faktları aşkarlamışdır. Müəyyən olunmuşdur ki, 90-cı illərin əvvəllərində Britaniya parlamentində Azərbaycana qarşı çox güclü erməni koksu fəaliyyət göstərirdi. Başda baronessa Karolina Koks olmaqla bir qrup parlamentarilər Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına fərqli yollarla bəraət qazandırmağa çalışırdılar. Bundan savayı parlamentdə aktivlik nümayiş etdirən erməni koksu Xocalı soyqırımında Ermənistanı yox, Azərbaycanı günahlandırmış və Azərbaycana qarşı Britaniya hökuməti tərəfindən fərqli sanksiyaların qəbul edilməsinə səy göstərmişdir. Azərbaycanda Heydər Əliyevin hakimiyyətə gəlməsi Britaniya ilə münasibətlərin normallaşdırılmasına səbəb olmuşdur. Bunun müsbət tərəflərini parlamentin 2003-cü ilə qədər olan və Dağlıq Qarabağı özünə daxil edən normativ-hüquqi sənədlərinin təhlilində müşahidə etmək olar. O dövrdə Britaniya parlamentində güclü Azərbaycan koksu hələ mövcud olmasa da, ölkəmizə qarşı təpkilər və əsassız ittihamların sayı nəzərəçarpan dərəcədə azalmışdır. İlham Əliyevin hakimiyyət illərində ölkələr arasında münasibətlər daha da inkişaf etmişdir. Bu inkişafın göstəricisi Britaniya parlamentində erməni koksuna cavab verə biləcək səviyyədə Azərbaycan koksunun yaranmasıdır.

3) Böyük Britaniyada xarici siyasət ilə bağlı qərarların qəbul edilməsinə və strategiyaların hazırlanmasına nüfuzlu beyin mərkəzlərinin təsiri hissolunan dərəcədədir.

Araşdırma müəyyən etmişdir ki, heç də əksər beyin mərkəzləri münaqişədə Azərbaycanın haqlı mövqeyini dəstəkləmirlər. Qatı ermənipərəst mövqelər və təhlillərlə çıxış edən müəlliflər və mərkəzlərlə yanaşı Britaniyanın strateji araşdırmalar mərkəzlərində Azərbaycanı dəstəkləyən nadir tədqiqat işləri də vardır. Amma araşdırmaların əksəriyyəti münaqişə tərəflərinin heç birini dəstəkləmir və münaqişənin konkret detallarının təhlilinə diqqət yetirir. Beyin mərkəzləri Britaniyanın və münaqişə tərəflərinin kompetentli orqanları və siyasi elitası ilə yaxın əlaqədə olduğundan mərkəzlərin araşdırmalarında Azərbaycanın elmi mənbələrində olmayan bir çox maraqlı faktları aşkarlanmışdır.

4) Tədqiqat Böyük Britaniyanın nüfuzlu kütləvi informasiya vasitələrinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təhlillərini sintez etməyə imkan verdi. Araşdırma I Qarabağ müharibəsinin və atəşkəs illərinin vacib detallarını Britaniya KİV-lərindən tapmağa imkan verdi. Bundan savayı aparılan müşahidələr göstərir ki, müxtəlif mətbuat orqanları münaqişəyə fərqli yanaşma nümayiş etdirirlər. Məsələn, “Qardian” nəşri Azərbaycana qarşı qərəzli məqalələri ilə seçilmişdir. Qardiandan fərqli olaraq gündəlik “Deyli meyl” qəzeti atəşkəs illərini daha obyektiv şərh edirdi. “İndependent” qəzeti I Qarabağ müharibəsini məlumat baxımından obyektiv, analiz baxımından isə keyfiyyətli həyata keçirirdi. Digər nəşrlər bu iki qütb arasında aralıq mövqe nümayiş etdirirdilər. Britaniya mətbuatından fərqli olaraq BBC tele-radio şirkəti hadisələri bəzi hallarda subyektiv, bəzi hallarda isə obyektiv işıqlandırırdı.

5) Aparılan araşdırmalar Böyük Britaniyanın Dağlıq Qarabağ münaqişəsinin Ermənistan və Azərbaycanla münasibətlərinə necə təsir göstərdiyini müəyyən etməyə imkan vermişdir. Tədqiqat obyekti kimi biz Krallığın son 10 ildə münaqişə ilə bağlı rəsmi bəyanatlarını götürmüşdük. Müşahidələrimiz göstərir ki, Krallıq münaqişənin tənzimlənməsində bacardığı qədər neytrallıq nümayiş etdirməyə çalışırdı. Bununla belə neytrallıq Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsini özündə ehtiva edirdi. Dağlıq Qarabağ münaqişəsi 10 noyabr 2020-ci ildə bitsə də, ilk vaxtlar Britaniyanın rəsmi bəyanatlarında münaqişənin hələ də davam etməsi mövqeyini əks etdirən cümlələrə rast gəlinirdi. Amma 2021-ci ilin sonu 2022-ci ilin

əvvəllərinə aid sənədlərdə artıq münaqişənin bitməsinə əks etdirən yanaşma müşahidə edilməkdədir.

6) Paraqraf daxilində aparılan tədqiqat nəticəsində Böyük Britaniyanın BMT, ATƏT, NATO və Aİ kimi nüfuzlu təşkilatlar çərçivəsində Azərbaycanın ərazi bütövlüyünə daima dəstək verdiyi müəyyən olunmuşdur. Araşdırmalar Böyük Britaniyanın I Qarabağ müharibəsi zamanı Təhlükəsizlik Şurasının 4 qətnaməsinin qəbul edilməsində müstəsna rolunu aşkarlamışdır. Digər tərəfdən Böyük Britaniya II Qarabağ müharibəsi zamanı da ölkəmizə qarşı Təhlükəsizlik Şurasında qərəzli aktın qəbul edilməsinə mane olmuşdur. Böyük Britaniyanın NATO-nun aparıcı üzvlərindən biri olması qurumun Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar qəbul etməsinə müsbət təsir göstərmişdir. Birləşmiş Krallıq Minsk qrupunun üzvü olmasa da, istər Lissabon sammitində, istərsə də ATƏT-in digər vacib sənədlərində Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınmasına kömək etmişdir. Böyük Britaniya 2020-ci ildə Avropa İttifaqından ayrılsa da, buna qədər qurum vasitəsilə Dağlıq Qarabağ münaqişəsinin həllinə dair fərqli yanaşma və modellərin hazırlanmasında iştirak etmişdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

## Azərbaycan dilində:


1. Atanesyan, Q. Qarabağ münaqişəsinin tarixçəsi ermənilərlə azərbaycanlıların birgə hazırladığı sənədli filmdə. BBC Azərbaycanca, Bakı:21 May 2020 // https://www.bbc .com/azeri/region-52750803
2. Azərbaycan - Böyük Britaniya münasibətləri. Heydər Əliyev İrsi Elektron kitabxana sı / Ümumi Tarixi Arayışlar / Xarici Siyasət / Azərbaycan – Avropa. 2020 // https://lib.aliyevheritage.org/az/7540160.html
3. Bayramov, V. Azərbaycan-Böyük Britaniya əlaqələri yüksək səviyyədə inkişaf edir. “Xalq” qəz., Bakı, 2022, 11 fevral // https://xalqqazeti.com/mobile/az/news/70228
4. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi / Xarici Siyasət / İkitərəfli münasibətlər / Avropa. 2021 // https://mfa.gov.az/az/category/avropa/boyuk-britaniya
5. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Consondan, Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 21 fevral 2022 // https://president.az/az/articles/view/55479
6. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Zati-aliləri cənab Boris Consona, Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 21 fevral 2022 // https://president.az/az/articles/view/55483
7. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. Elektron Prezident Kitabxanasi // https://files.preslib.az/ projects/azerbaijan/gl8.pdf
8. Həsənov, Ə. Xocalı faciəsi azərbaycanlılara qarşı törədilən soyqırımlarının ən qanlı səhifəsidir. “Azərbaycan” qəz., № 43.-S.1,3, Bakı, 2018.-24 fevral. // http://www.elib rary.az/docs/qazet/qzt2018_959.htm
9. Həsənov, Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. / Ə.Həsənov. – Bakı: Azərbaycan nəşriyyatı, - 2005. – 751 s.

10. Xocali soqırımı. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. Elektron Prezident Kitabxanası // http://files.preslib.az/projects/khojali/azkhojali/gl1.pdf
11. İlham Əliyev ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edib, Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 29 aprel 2022 // https://president.az/az/articles/view/55909
12. İlham Əliyev Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul edib, Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 09 mart 2022 // https://president.az/az/articles/view/55588
13. İlham Əliyev Böyük Britaniyanın silahlı qüvvələr nazirini qəbul edib, Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 30 mart 2022 // https://president.az/az/articles /view/55689
14. İlham Əliyev VIII Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edib.Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 04 noyabr 2021 // https://president.az/az/articl es/view/53946
15. Qurbanov, F. Azərbaycan-Britaniya əlaqələri səfirin gözü ilə. BBC Azərbaycanca, Bakı: 9 Mart 2012 // https://www.bbc.com/azeri/azerbaijan/2012/03/120309_azerbaij an_britain_ambassador
16. Ömərov, V. Azərbaycan-Böyük Britaniya münasibətlərinin müasir tarixi: ilkin mərhələ (1991-1993-cü illər). "Səs" qəz., Bakı, 2013, 4 fevral // https://sesqazeti.az/ news/mia/332451.html
17. Tomas de Vaal, Qarabağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında, Bakı: "İlah MMC" 2008, 344 səh.

**Rus dilində***:*

18. "Нагорный Карабах: жизнь после войны". Документальный фильм Би-би-си. BBC на русском, Москва: 26 мая 2021 // https://www.bbc.com/russian/media-57245389

19. Адыгезалов З.Н., Политические аспекты Азербайджано-Британских отношений. Алматы: Вестник КазНУ, 2011. // https://articlekz.com/article/7853
20. Атанесян, Г. "Многие думали, что война - это забава": Жирайр Липаритян о поражении Армении и будущем Карабаха, BBC на русском, Москва: 30 ноября 2020 // https://www.bbc.com/russian/features-55132269
21. Атанесян, Г. "Я готов был носить клеймо предателя, но решить вопрос": экс-президент Армении Серж Саргсян о Карабахе и Пашиняне, BBC на русском, Москва: 24 июня 2021 // https://www.bbc.com/russian/features-57598041
22. Бжезински, З. Великая Шахматная доска. Москва: "АСТ", 2021, 384 с.
23. Формирование добровольческих отрядов стало сигналом для Баку: Кочарян о провале в Карабахе. Спутник Армения. 04.10.2021 // https://ru.armeniasputnik.am/20211004/formirovanie-dobrovolcheskikh-otryadov-stalo-signalom-dlya-baku-kocharyan-o-provale-v-karabakhe-33905645.html

**İngilis dilində:**

24. "Nagorno-Karabakh: President Ilham Aliyev speaks to the BBC", 2020, 9 November // https://www.bbc.com/news/av/world-europe-54865589
25. "Nationalities Documents". "The Nationalities Papers", Volume 46, Issue 6 (2018) // http://www.tandfonline.com/toc/cnap20/current#.UkLdT1M9860
26. "New Configurations of the Nagorny Karabakh Conflict: Prospects for Peace, Security and Participation". Chatham House, the Royal Institute of International Affairs, London, 2 December 2020 // https://www.chathamhouse.org/events/all/research-event/new-configurations-nagorny-karabakh-conflict
27. "Nikol Pashinyan: Peace for Armenia and Azerbaijan?", BBC Hard Talks, 14 August, 2020 // https://www.bbc.co.uk/programmes/w3cszbxn
28. "Russia and the Nagorny Karabakh Conflict: Recent Developments". Chatham House, the Royal Institute of International Affairs, London, 23 APRIL 2018 //

https://www.chathamhouse.org/events/all/research-event/russia-and-nagorny-karabakh-conflict-recent-developments

29. “Screening Room: Parts of a Circle - History of the Karabakh Conflict”. Chatham House, the Royal Institute of International Affairs, London, 18 FEBRUARY 2020 // https://www.chathamhouse.org/events/all/members-event/screening-room-parts-circle-history-karabakh-conflict
30. “The Nagorny Karabakh Conflict: Popular Narratives and the Role of Civil Society”. Chatham House, the Royal Institute of International Affairs, London, 22 FEBRUARY 2018 // https://www.chathamhouse.org/events/all/research-event/nagorny-karabakh-conflict-popular-narratives-and-role-civil-society
31. “The South Caucasus: Analyzing economic, political, and security developments in Armenia, Azerbaijan, and Georgia. Center of Strategic and International Studies, Russia and Eurasia Program / Archives / The South Caucasus. Washington D.C. // https://www.csis.org/programs/russia-and-eurasia-program/archives/south-caucasus
32. “Thirty Years of Armenian-Azerbaijani Rivalry:Dynamics, Problems andProspects”. Chatham House, the Royal Institute of International Affairs, London, 20 November 2019 // https://www.chathamhouse.org/events/all/research-event/thirty-years-armen ian-azerbaijani-rivalry-dynamics-problems-and-prospects
33. 2022 Azerbaijan Military Strength. Global FirePower Index // https://www.globalfire firepower.com/country-military-strength-detail.php?country_id=azerbaijan
34. Abbasov, S. Azerbaijan: Baku Hopes Turkish-Armenian Rapprochement Means Deal on Karabakh. Center of Strategic Research and Analysis, York, 2014, 1 April // https://cesran.org/azerbaijan-baku-hopes-turkish-armenian-rapprochement-means-deal-on-karabakh.html
35. Armenia and Nagorno-Karabakh. Lords Sitting / HL Deb, 15 December 1992, vol 541, cc516-50 // https://api.parliament.uk/historic-hansard/lords/1992/dec/15/armenia-and-nagorno-karabakh

36. Armenia defies Moscow on unity vote. “The Herald Scotland”. Glasgow. 1989 // https://www.heraldscotland.com/news/11969628.armenia-defies-moscow-on-unity-vote/
37. Armenian aggression against Azerbaijan. UK Parliament / EDM (Early Day Motion) 717: tabled on 13 July 2020 // https://edm.parliament.uk/early-day-motion/ 57245/ armenian-aggression-against-azerbaijan
38. Azerbaijan and the UK, Uk Government, Foreign, Commonwealth & Development Office and The Rt Hon Dominic Raab MP, 2022 // https://www.gov.uk/ government/ news/ukazerbaijan-foreign-policy-dialogu
39. Azerbaijan downs helicopter in Nagorno-Karabakh. “The Daily Mail”, London, 2014, 12 November // https://www.dailymail.co.uk/wires/ap/article-2831462/Azerbaijan-downs-helicopter-Nagorno-Karabakh.htm
40. Azerbaijan shells separatist territory for first time in 20 years. “The Guardian”, London, 2015, 10 December // https://www.theguardian.com/world/2015/dec/10/ azerbaijan-shells-nagorno-karabakh
41. Azerbaijan: Unilateral cease-fire against Nagorno-Karabakh.“The Daily Mail”, London, 2016 , 3 April // https://www.dailymail.co.uk/wires/ap/article3521231/Fighting-persist -Nagorno-Karabakh-30-forces-killed.html
42. Babayan, K., Danielyan, S. Nagorno-Karabakh: The edge of Russia’s orbit. European Council on Foreign Relations. London, 2016, 1 September // https://ecfr.eu /article/essay_nagorno_karabakh_the_edge_of_russias_orbit/
43. Barber, T. Azerbaijan: Threat of ripple effect in Nagorno-Karabakh conflict. “The Financial Times”, London, 2015, March 12 // https://www.ft.com/content/b8513050-be99-11e4-8036-00144feab7de
44. Beaumont, P., Safi, M. Nagorno-Karabakh conflict: both sides accused of using cluster bombs. “The Guardian”, London, 2020, 08 October //https://www.theguardian.com/

world/2020/oct/08/nagorno-karabakh-conflict-both-sides-accused-of-using-cluster-bombs

45. Broers, L. Decisive Diplomacy Essential to Securing Fragile Nagorny Karabakh Ceasefire. Chatham House, the Royal Institute of International Affairs, London, 11 APRIL 2016 // https://www.chathamhouse.org/expert/comment/decisive-diplomacy-essential-securing-fragile-nagorny-karabakh-ceasefire
46. Broers, L. How Ready Are Armenia and Azerbaijan for Peace?. Chatham House, the Royal Institute of International Affairs, London, 24 JANUARY 2019 // https://www.chathamhouse.org/2019/01/how-ready-are-armenia-and-azerbaijan-peace
47. Broers, L. Humanitarian Crisis Unfolds In and Around Nagorny Karabakh. Chatham House, the Royal Institute of International Affairs, London, 16 OCTOBER 2020 // https://www.chathamhouse.org/2020/10/humanitarian-crisis-unfolds-and-around-nagorny-karabakh
48. Cease-fire largely holding around Nagorno-Karabakh. “The Daily Mail”, London, 2016, 6 April // https://www.dailymail.co.uk/wires/ap/article-3526197/Cease-fire-holding-Nagorno-Karabakh.html
49. Disputed Nagorno-Karabakh region holds elections. “The Daily Mail”, London, 2020, 31 March // https://www.dailymail.co.uk/wires/ap/article-8173929/Disputed-Nagorno-Karabakh-region-holds-elections.html
50. Eldarov, N. Paris Statement offers new hope for resolution of conflict in Nagorno-Karabakh. “The Emerging-Europe”, London, January 21, 2019 // https://emerging-europe.com/news/paris-statement-offers-new-hope-for-resolution-of-conflict-in-nagorno-karabakh/
51. FCO concerned by increased violence around Nagorno-Karabakh. UK Government, Foreign & Commonwealth Office / Press Release, 4 August 2014 // https://www.gov.uk/government/news/fco-concerned-by-increased-violence-around-nagorno-karabakh

52. FCO Minister comments on 20th Anniversary of Nagorno-Karabakh ceasefire. UK Government, Foreign & Commonwealth Office and The Rt Hon David Lidington CBE, 12 May 2014 // https://www.gov.uk/government/news/fco-minister-comments-on-20th-anniversary-of-nagorno-karabakh-ceasefire
53. Fisk, R. Armenia edges away from enclave war: The battle for Karabakh is proving too expensive to bear, writes Robert Fisk. “The İndependent”.London. 09 July 1992 // https://www.independent.co.uk/news/world/europe/armenia-edges-away-from-enclave-war-the-battle-for-karabakh-is-proving-too-expensive-to-bear-writes-1532330.html
54. Foreign Affairs Council and General Affairs Council. The Foreign Secretary will attend the Foreign Affairs Council and Foreign Office Minister David Lidington the General Affairs Council. UK Government, Foreign & Commonwealth Office and The Rt Hon David Lidington CBE. 30 January 2013 // https://www.gov.uk/goverment/speeches/foreign-affairs-council-and-general-affairs-council--3
55. Foreign travel advice: Armenia.UK Government / Passports, travel and living abroad / Travel abroad / Foreign travel advice. UK, 12 May 2022 // https://www.gov.uk/foreign-travel-advice/armenia
56. Foreign travel advice: Azerbaijan. UK Government / Passports, travel and living abroad / Travel abroad / Foreign travel advice. UK, 12 May 2022 //https://www.gov.uk/foreign-travel-advice/azerbaijan
57. Foreign Affairs - Sixth Report. House of Commons, Session of 1998-1999. Publications on the internet *Foreign Affairs Committee Publications*, 20 July 1999 // https://publications.parliament.uk/pa/cm199899/cmselect/cmfaff/349/34908.htm
58. Frappi,C. Almost an ally: Italy’s new approach to Azerbaijan and the Nagorno-Karabakh conflict. European Council on Foreign Relations. London, 2020, 16 April // https://ecfr.eu/article/commentary_almost_an_ally_italys_new_approach_to_azerbaijan_and_the_nagorno/

59. Gahramanova, A. Identity Conflicts and Its Implications for Conflict Management. Manheim: Mannheim University Press, UNISCI discussion papers Nº 11, May 2006, 35 p.
60. Guidance: Overseas Business Risk – Azerbaijan. Uk Government, Help and services around the world, UK help and services in Azerbaijan, Trade and invest. Updated 14 April 2022 // https://www.gov.uk/government/publications/overseas-business-risk-azerbaijan/overseas-business-risk-azerbaijan
61. Hille, K. Armenian and Azerbaijani forces clash on border. "The Financial Times", London, 2016, December 29 // https://www.ft.com/content/34b36014-cde8-11e6-864f-20dcb35cede2
62. Improving Prospects for Peace after the Nagorno-Karabakh War. Crisis Group Europe. Briefing N°91, Baku/Yerevan/Tbilisi/Istanbul/Moscow/Brussels, 22 December 2020, pages 20.
63. Intelligence and Security Committee of Parliament. Annual Report 2017–2018 / The Rt Hon. Dominic Grieve qc mp / Presented to Parliament pursuant to section 3 of the Justice and Security Act 2013 // https://assets.publishing.service.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/772726/HC1692_ISC_Annual_Report_2017_18.pdf
64. Kuchera, J. Bloody clashes between Azerbaijan and Armenia over disputed territory. "The Guardian", London, 2014, 4 August // https://www.theguardian.com/world/2014/aug/04/nagorno-karabakh-clashes-azerbaijan-armenia
65. McKernan, B. Syrian recruit describes role of foreign fighters in Nagorno-Karabakh. "The Guardian", London, 2020, 02 October // https://www.theguardian.com/world/2020/oct/02/syrian-recruit-describes-role-of-foreign-fighters-in-nagorno-karabakh
66. Minister for Europe statement on Nagorno-Karabakh conflict. UK Government, Foreign & Commonwealth Office and The Rt Hon David Lidington CBE, Press

Release, 2 April 2016 // https://www.gov.uk/government/news/minister-for-europe-statement-on-nagorno-karabakh-conflict

67. Nagorno-Karabakh and Azerbaijan. UK Parilament / Lord Sittings, Volume 575: debated on Tuesday 11 February 2014 // https://hansard.parliament.uk/Commons/2014-02-11/debates/14021188000002/Nagorno-KarabakhAndAzerbaijan
68. Nagorno-Karabakh and Azerbaijan. UK Parliament / Lords Chamber. Lords Publications / Lords Hansard / Daily Hansard. 1 Jul 1997 : Column 153 // https://publications.parliament.uk/pa/ld199798/ldhansrd/vo970701/text/70701-19.htm#70701-19_head0
69. Nagorno-Karabakh violence: UK and Canada foreign ministers' joint statement. UK Government, Foreign, Commonwealth & Development Office and The Rt Hon Dominic Raab MP, Press Realease, 28 September 2020 // https://www.gov.uk/government/news/nagorno-karabakh-violence-uk-and-canada-foreign-ministers-joint-statement
70. Nagorno-Karabakh. UK Parliament / Lord Chamber, Volume 806: debated on Wednesday, 30 September 2020 // https://hansard.parliament.uk/Lords/2020-09-30/debates/A4150C07-6905-4672-8244-B6345D289F81/Nagorno-Karabakh
71. Nagorno-Karabakh: old tensions behind conflict. “The Daily Mail”, London, 2020, 10 November // https://www.dailymail.co.uk/wires/reuters/article-8933231/Nagorno-Karabakh-old-tensions-conflict.html
72. Nagorno-Karabakh: old tensions behind renewed fighting. “The Daily Mail”, London, 2020, 26 October // https://www.dailymail.co.uk/wires/reuters/article-8879999/Nagorno-Karabakh-old-tensions-renewed-fighting.html
73. Nagorno-Karabakh: UK and Canada joint statement in response to continued military clashes. UK Government, Foreign, Commonwealth & Development Office and The Rt Hon Dominic Raab MP, 6 October 2020 // https://www.gov.uk/government/news/nago

rno-karabakh-uk-and-canada-joint-statement-in-response-to-continued-military-clashes

74. Oil and democracy in the UK-Azerbaijan relations -Azerbaijan relations Azerbaijan relations –an opinion poll analysis. Opinion poll analysis. European Friends of Armenia. September 2011, pages 7.
75. Ongoing military action along the line of contact in the Nagorno-Karabakh region: UK statement. Delivered by Ambassador Neil Bush at the special OSCE Permanent Council on 29 September 2020. Uk Government, Foreign, Commonwealth & Development Office and Neil Bush, 1 October 2020 // https://www.gov.uk/government/speeches/ongoing-military-action-along-the-line-of-contact-in-the-nagorno-karabakh-region-uk-statement
76. Pepinova, U. The EU and Nagorno-Karabakh conflict resolution. The Foreign Policy Center, UK, October 8, 2012 // https://fpc.org.uk/the-eu-and-nagorno-karabakh-conflict-resolution/
77. Philip, A. Time to seize opportunities. “The Banker”, London, 2008, 5 May // https://www.thebanker.com/World/Central-Eastern-Europe/Azerbaijan/Time-to-seize-opportunities/(language)/eng-GB
78. Pirani Simon, “Azerbaijan’s gas supply squeeze and the consequences for the Southern Corridor”, Oxford Institute for Energy Studies, Oxford University, OIES PAPER: NG 110, Registered Charity, No. 286084, ISBN 978-1-78467-062-7, 2016 pp 16 (1).
79. Pope, H. Fighting upsets secret Karabakh talks. “The İndependent”. London. 19 December 1992 // https://www.independent.co.uk/news/world/fighting-upsets-secret-karabakh-talks-1564403.html
80. Pope, H. Azeris square up to a loser's peace: The extension to the ceasefire with the Armenians in Nagorny Karabakh undermines Azerbaijan's chances of recovering control over the region, writes Hugh Pope in Baku. “The İndependent”. London. 28 July 1994 // https://www.independent.co.uk/news/world/azeris-square-up-to-a-losers-peace-the-extension-to-the-ceasefire-with-the-armenians-in-nagorny-1416891.html

81. Popescu, N. How the EU became marginalised in Nagorno-Karabakh. European Council on Foreign Relations. London, 2020, 13 October // https://ecfr.eu/article/commentary_how_europe_became_marginalised_in_nagorno_karabakh/
82. Putin warns: Armenia backing out of Nagorno-Karabakh deal would be suicida. “The Guardian”, London, 2020, 18 November // https://www.theguardian.com/world/2020/nov/18/putin-warns-armenia-backing-out-of-nagorno-karabakh-deal-would-be-suicida
83. Reaction to meeting between Presidents of Azerbaijan and Armenia. UK Government, Foreign & Commonwealth Office and The Rt Hon David Lidington CBE, Press Release, 25 November 2013 // https://www.gov.uk/government/news/reaction-to-meeting-between-presidents-of-azerbaijan-and-armenia
84. Reeves, R. How Armenia won the war but lost the oil. “The İndependent”. London. 24 July 1997 // https://www.independent.co.uk/news/world/how-armenia-won-the-war-but-lost-the-oil-1252380.html
85. Rights and wrongs in Nagorno-Karabakh. “The Guardian”, London, 2016, 8 April // https://www.theguardian.com/world/2016/apr/08/rights-and-wrongs-in-nagorno-karabakh
86. Rogers, A., Newcombe, E. Armenia: Relations between Yerevan and the diaspora. Transnational Communities // Oxford: Traces, – 1998. Volume 1, p. 16-68. // http://www.transcomm.ox.ac.uk/traces/iss10pg3.htm
87. Roth, A. Nagorno-Karabakh: Azerbaijan troops begin retaking land from Armenia. “The Guardian”, London, 2020, 20 November // https://www.theguardian.com/world/2020/nov/20/nagorno-karabakh-azerbaijani-troops-enter-first-district-handed-over-by-armenia səh 22

88. Roth, A., Safi, M. Nagorno-Karabakh peace deal reshapes regional geopolitics. “The Guardian”, London, 2020, 10 November //https://www.theguardian.com/world /2020/nov/10/nagorno-karabakh-peace-deal-turkey-russia-reshapes-regional-geopolitics səh 19
89. Sammut, D. Clarity and consistency versus fudge and constructive ambiguity in the European strategy of engagement with de facto states. The Foreign Policy Center, UK, September 26, 2019 // https://fpc.org.uk/clarity-and-consistency-versus-fudge-and-constructive-ambiguity-in-the-european-strategy-of-engagement-with-de-facto-states/
90. Savill Annika, Armenians see little hope of peace: President Levon Ter Petrosian tells Annika Savill that neither side in the bloody war in Nagorny Karabakh is ready to compromise // https://www.independent.co.uk/news/world/armenians-see-little-hope-of-peace-president-levon-ter-petrosian-tells-annika-savill-that-neither-1393292.html
91. Shiriyev, Z. Time to change of ‘status quo’ in Karabakh conflict. Center of Strategic Research and Analysis, York, 2014, 1 April // https://cesran.org/time-to-change-of-status-quo-in-karabakh-conflict.html
92. Shiriyev, Z. Violence in Nagorny Karabakh a Reflection of Azerbaijan’s Security Dilemma. Chatham House, the Royal Institute of International Affairs, London, 22 APRIL 2016 // https://www.chathamhouse.org/2016/04/violence-nagorny-karabakh-reflection-azerbaijans-security-dilemma
93. Soviet Parliament restores upper hand to Azerbaijan. “The Herald Scotland”. Glasgow. 1989 // https://www.heraldscotland.com/news/11968894.soviet-parliament-restores-upper-hand-to-azerbaijan/
94. Suren Musayelyan, Armenia: Building a Competitive Economy, Reuters Institute Fellowship Paper, University of Oxford, Hilary Term 2009
95. Taghizade, T. Nagorno-Karabakh belongs to Azerbaijan. “The Guardian”, London, 2020, 01 October // https://www.theguardian.com/world/2020/oct/01/nagorno-karabakh-belongs-to-azerbaijan

96. The Conflict in Nagorno-Karabakh and the Impact of COVID-19 on International Diplomacy. Center of Strategic Research and Analysis, York, 2020, 16 November // https://cesran.org/the-conflict-in-nagorno-karabakh-and-the-impact-of-covid-19-on-international-diplomacy.html
97. The Guardian view on Nagorno-Karabakh: new interests in an old conflict. “The Guardian”, London, 2020, 1 October //https://www.theguardian.com/commentisfree /2020/oct/01/the-guardian-view-on-nagorno-karabakh-new-interests-in-an-old-conflict
98. The National Security Strategy of the United Kingdom: Update 2009 – Security for the Next Generation
99. The situation in and around Nagorno-Karabakh: UK statement. Delivered by Nicola Murray, Deputy Head of Delegation, at the OSCE Permanent Council on 16 October 2020 // https://www.gov.uk/government/news/the-situation-in-and-around-nagorno-karabakh-uk-statement
100. The situation in and around Nagorno-Karabakh: UK statement. Delivered by Ambassador Neil Bush at the OSCE Permanent Council on 22 October 2020. UK Government, Foreign, Commonwealth & Development Office and Neil Bush, 22 October 2020 // https://www.gov.uk/government/speeches/the-situation-in-and-around-nagorno-karabakh-uk-statement-22-october
101. The situation in and around Nagorno-Karabakh: UK statement. Delivered by Ambassador Neil Bush at the OSCE Permanent Council on 29 October 2020. UK Government, Foreign, Commonwealth & Development Office and Neil Bush, 29 October 2020 // https://www.gov.uk/government/speeches/the-situation-in-and-around-nagorno-karabakh-uk-statement
102. UK announces £500,000 fund to support UNDP to respond to last year’s Nagorno-Karabakh conflict. UK Government, Foreign, Commonwealth & Development Office and Wendy Morton MP, 1 September 2021 // https://www.gov.uk/government

/news/uk-announces-500000-fund-to-support-undp-to-respond-to-last-years-nagorno-karabakh-conflict

103. UK sanctions relating to Armenia and Azerbaijan. UK Government / Foreign, Commonwealth & Development Office and Export Control Joint Unit, 31 December 2020 // https://www.gov.uk/government/collections/uk-sanctions-on-armenia-and-azerbaijan
104. UK statement on situation in and around Nagorno-Karabakh: 12 November 2020. Delivered by Nicola Murray, Deputy Head of Delegation, at the OSCE Permanent Council on 12 November 2020. // https://www.gov.uk/government/news/uk-statement-on-situation-in-and-around-nagorno-karabakh-12-november-2020
105. Valiyev, A. Azerbaijan: Perspectives on Eurasian integration. European Council on Foreign Relations. London, 2016, 8 June //https://ecfr.eu/article/essay_eurasian_integration_azerbaijan/
106. Waal, T., No Peace in the Caucasus: Mediation Efforts in Karabakh, Abkhazia, and Chechnya. Center of Strategic and International Studies. International War and Peace Reporting / Russia and Eurasia Program Caucasus Initiative. Washington D.C., April 17, 2003
107. Walker, S. Nagorno-Karabakh: Azeri-Armenian ceasefire agreed in disputed region. “The Guardian”, London, 2016, 5 April // https://www.theguardian.com/world/2016/apr/05/nagorno-karabakh-azeri-armenian-ceasefire-agreed
108. Welt, C. It's the Process That Counts. Center of Strategic and International Studies, Washington D.C., February 13, 2006. Pages 8.
109. Wesslau, F. Trouble in Nagorno-Karabakh. European Council on Foreign Relations. London, 2016, 11 April // https://ecfr.eu/article/commentary_trouble_in_nagorno_karabakh6085/
110. Zurabashvili, T. Georgia: Fearing the worst from the Karabakh flare-up. European Council on Foreign Relations. London, 2016, 12 April //

https://ecfr.eu/article/commentary_georgia_fearing_the_worst_from_the_karabakh_flare_up6087/

**Erməni dilində:**

111. Վերջին տարիներին հայ-բրիտանական քաղաքական շփումները զգալի ակտիվացել են. Ալեն Սիմոնյանն ընդունել է Թիմ Լոութենին. “հայ-բրիտանական քաղաքական շփումների”. 01/04/2022 // https://armtimes.com/hy/article//234150
112. Հայաստանը և Միացյալ Թագավորությունը նշում են դիվանագիտական հարաբերությունների հաստատման 30-ամյակը. 2022, հունվարի 30 // https://armenpress.am/arm/news/1073451/
113. Մեծ Բրիտանիայի և Հյուսիսային Իռլանդիայի Միացյալ Թագավորության և Հայաստանի միջև Երկկողմ հարաբերություններ. 21/02/2022 // https://www.mfa.am/hy/bilateral-relations/gb
114. Միացյալ Թագավորությունը հետաքրքրված է տարածաշրջանում կայուն խաղաղության պահպանմամբ, հայտարարում է դեսպանը. Մայիս 06, 2021 // https://www.azatutyun.am/a/31241292.html